Xalqın qəzeti!
# Xalq qəzeti
№ 41 (31010) 4 mart 2026-cı il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan boru kəməri ilə qaz ixracında dünya lideridir

## Bakıda Cənub Qaz Dəhlizi və Yaşıl Enerji məşvərət şuraları çərçivəsində nazirlərin iclasları




**Martın 3-də Bakı Konqres Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasları keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Azərbaycanın energetika naziri **Pərviz Şahbazov** dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən sizi Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında salamlayıram. Bizim bu toplantımız uğurlu işimizdə bərpaolunan enerjinin tarazlı şəkildə inkişaf etdirilməsi və enerji bağlantılarının regional səviyyədə daha da şaxələndirilməsində göstərdiyimiz səylərin mühüm mərhələsidir.

Mən öz dərin təşəkkürümü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ifadə edirəm ki, O, bu uğurun arxasında dayanan əsas şəxsdir və bu işlərə rəhbərlik etmişdir. İndi isə mən böyük məmnunluq hissi ilə əsas çıxış üçün sözü verirəm cənab Prezidentə.

***

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

*(ardı 2-ci səhifədə)*

## Birinci vitse-prezident Mehriban Əliyeva Od çərşənbəsi ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Od çərşənbəsi ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda deyilir: "Uca Allah mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin! Od çərşənbəniz mübarək!".**

## Hörmüz boğazında böhran neft bazarını möhkəm silkələyib

**Qlobal enerji bazarlarında regional münaqişələrin kəskinləşməsi fonunda dalğalanmalar artıb. Hörmüz boğazından keçən təchizat marşrutları ilə bağlı narahatlıqlar səbəbindən daşınma xərcləri də bahalaşıb.**




Qəza və hücum xəbərdarlıqları nəticəsində tanker sahibləri öz gəmilərini limanlardan çıxarmır, sığorta şirkətləri riskə görə öhdəliklərini azaldır. Bu da neftdaşıyan gəmilərin Hörmüz boğazından istifadə etməsinə mənfi təsir edir. Bunun fonunda hərbi qarşıdurmadan sonra yüzlərlə gəmi dənizə dəmir atıb. Tankerlər Fars körfəzinin iri neftçıxaran ölkələrinin sahilləri yaxınlığında açıq dənizdə qalıblar. Dünya mediasındakı məlumatlara əsasən, ən azı 150 tanker Hörmüz boğazına çatmadan açıq sularda lövbər salıb. Blokada olan tərəfdaş ölkələrdəki ixraclar ciddi təhlükə altındadır.

*(davamı 9-cu səhifədə)*

## Türkoloji Qurultayın yubileyi Bakıda elmi məclislərlə qeyd edildi



Səhifə ⇨ 12

## Yaxın Şərqdə savaş qlobal təhlükəsizliyi sarsıdır

Səhifə ⇨ 8


Rəqəmsal inqilabın bayraqdarı



Səhifə ⇨ 4

Uşaq hüquqları həm də gələcəyimizi qoruyur



Səhifə ⇨ 4

Qırmızı dənizdən Xəzərə uzanan xoş məram



Səhifə ⇨ 5

Overçukun Bakı səfəri və "AZAL"ın təyyarəsi ilə bağlı məsələ



Səhifə ⇨ 5

Regionun enerji paytaxtı



Səhifə ⇨ 6

Gerçəklik və xəyallar arasında



Səhifə ⇨ 6

"Mütərəqqi Bolqarıstan" üçbucağı



Səhifə ⇨ 8

# Bakıda Cənub Qaz Dəhlizi və Yaşıl Enerji məşvərət şuraları çərçivəsində nazirlərin iclasları

*(əvvəli 1-ci səhifədə)*

## Prezident İlham Əliyevin çıxışı

– Xanımlar və cənablar, sabahınız xeyir.

İlk növbədə, bütün qonaqlarımızı salamlayıram. Cənab komissarı xüsusi salamlamaq istəyirəm, çünki o, indi gəlib və istirahətə ehtiyacı var. Ancaq buna baxmayaraq, o, bizimlə birlikdədir. Biz onun Brüsseldə iş qrafikinin sıx olmasına baxmayaraq, bu gün bu vacib tədbirdə iştirak etməsini yüksək qiymətləndiririk. Sizin iştirakınız Azərbaycanla Avropa təsisatları arasında yalnız enerji sahəsi ilə məhdudlaşmayan güclü tərəfdaşlığı bir daha nümayiş etdirir.

Hər zaman olduğu kimi, biz Məşvərət Şurasının illik iclasında ötən iclasdan bəri görülmüş işləri nəzərdən keçirir, enerji təhlükəsizliyi və dayanıqlı enerji təchizatı sahələrində əməkdaşlığımızın və tərəfdaşlığımızın gücləndirilməsi ilə bağlı gələcək birgə addımlarımızı planlaşdırırıq.






Bu təşəbbüsün davamlılığını nümayiş etdirməsindən artıq on ildən çox vaxt keçir və 12 il əvvəl bu təşəbbüsə başladığımız dövrlə müqayisədə birlikdə - məhz birlikdə toplaşmağın və enerji təhlükəsizliyinə dair mühüm məsələləri müzakirə yolu ilə həll etməyin nə dərəcədə vacib olduğunu indi daha aydın şəkildə anlayırıq.

Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması, həqiqətən də, gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq. Hər dəfə biz məhz irəliləyişdən danışırıq.

Sonuncu dəfə bu auditoriya qarşısında çıxış edərkən bildirmişdim ki, biz 12 ölkəyə qaz tədarük edirik. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük edirən ölkələrin sayına əsasən dünyada birinci yerdədir.

Sonuncu dəfə çıxışım zamanı qaz təchizatının coğrafiyasının genişləndirilməsi ilə bağlı planlarımıza toxunmuşdum. Gördüyünüz kimi, bu planlar artıq reallaşdırılıb. Hesab edirəm ki, digər mühüm hadisə qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatması olmuşdur. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlamışıq ki, bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır.

Beləliklə, Suriyaya 1,5 milyard kubmetr həcmində Azərbaycan qazının tədarükü vasitəsilə biz əhalinin daha yaxşı qorunmasına, biznes fəaliyyəti üçün daha geniş imkanların yaranmasına və müəssisələrin normal fəaliyyətinin təmin edilməsinə töhfə verdik. Çünki hamıya yaxşı məlumdur ki, elektrik enerjisi olmadan heç bir inkişaf əldə etmək mümkün deyil. Bu, həm Suriya, həm region, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Çünki qaz təchizatının şaxələndirilməsi hər bir ölkə kimi, bizim üçün də xüsusi əhəmiyyət daşıyır. Biz qaz qəbul edən ölkələrin şaxələndirmə ilə bağlı üzləşdikləri çətinlikləri anlayırıq. Lakin, eyni zamanda, istehsalçı ölkələr üçün də şaxələndirmə mühüm amildir.

Yenə də görürük ki, istehsalçı Azərbaycan, tranzit ölkələr və istehlakçılar arasında əməkdaşlıqda müsbət dinamika müşahidə olunur. Hesab edirəm ki, məhz bu birlik, birgə maraqlar və qarşılıqlı fayda prinsipi on ildən artıq davam edən uğurlu yolumuzun əsas amilidir.

Planlarımıza gəldikdə, bəli, biz Avropanın enerji bazarında mövcudluğumuzu genişləndirmək niyyətindəyik. Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur. Lakin bunun üçün şübhəsiz ki, ötən dəfə də qeyd etdiyimiz kimi, mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsi üzərində düşünməliyik. Çünki bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır.

Cari ildə "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından hasilatın başlanmasını gözləyirik. Hasilatın ötən il başlanacağı gözlənilirdi, lakin bu, baş vermədi. Bununla belə, hasilatın məhz cari ildə başlanacağına əminik. İki-üç il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinin başlanmasını gözləyirik ki, bu da "Abşeron"dan qaz hasilatını üç dəfə artıracaq. Eyni zamanda, "Ümid" yatağının ikinci mərhələsi üzrə qaz hasilatına başlanması gözlənilir.

Təbii qazın əsas mənbəyi olan "Şahdəniz" yatağımızla bağlı olaraq deyə bilərəm ki, 2028-ci ildə "Şahdəniz"in yeni mərhələsi üzrə hasilatın başlanmasını gözləyirik. Qeyd olunan bütün hasilat profilləri maksimum istehsal səviyyəsində 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək. Daha əvvəl qeyd etdiyim kimi, bunun üçün yeni bazarlara, mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyac var və əlbəttə, qazpaylama şəbəkəmizin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir.

Artıq bir neçə ildir ki, Məşvərət Şurası çərçivəsində müzakirə olunan məsələlərin bir hissəsi də yaşıl gündəlikdir və bu istiqamətdə də müsbət nəticələr barədə məlumat verə bilərik. Cari ilin yanvarında regionda indiyədək ən böyük külək elektrik stansiyasının - 240 meqavat gücündə obyektin açılışı olub. Layihə "ACWA Power" tərəfindən maliyyələşdirilib və həyata keçirilib.

Bu, bizim artıq malik olduğumuz potensiala əlavə edilən yeni yaşıl enerji mənbəyidir. 2023-cü ildə "Masdar" şirkəti 230 meqavat gücündə Günəş elektrik stansiyasını inşa edib. Bir neçə layihə artıq icra mərhələsindədir və gələcək illərdə biz alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının açılışını gözləyirik. Burada bizdə xarici sərmayədarlardan və yerli şirkətlərdən ibarət müsbət kombinasiya mövcuddur. Yerli şirkətlər dedikdə, əlbəttə ki, SOCAR-ı nəzərdə tuturam. Lakin təkcə SOCAR yox, həmçinin özəl şirkətlər alternativ enerji mənbələrinə investisiya yatırmağa başlayıb, çünki burada böyük potensial və bazarda tələbat var.

Artıq ötürücü xətlər mövcuddur, lakin daha çox ötürücü xətlər olacaq. Biz bu məsələ üzərində işləməliyik. Biz enerji kabelləri - Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir.

Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır.

Vurğulamaq istəyirəm ki, bunlar anlaşma memorandumları deyil, müqavilələrdir, beləliklə, tərəflərin müqavilə öhdəlikləri var. Biz 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6-8 giqavat elektrik enerjisi əldə etməyi gözləyirik. Əlbəttə ki, bu, böyük aktivdir. Beləliklə, biz onu ixrac etməliyik. Hazırda elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı əvəzləmək məqsədilə daxili tələbat üçün istifadə etməliyik. Kommunikasiya sektoru, süni intellekt, data mərkəzləri ilə bağlı planlarımız da daxil olmaqla artan iqtisadiyyat və sənaye üçün şəraiti təmin etməliyik.

Bütün bunlar mənim və ABŞ-nin Vitse-prezidenti tərəfindən imzalanan Amerika Birləşmiş Ştatları və Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasından sonra artıq üzərində iş gedən layihələrdir. Bu Xartiya bir çox sahələri, o cümlədən süni intellekt, enerji, bağlılıq və bir çox digər məsələləri əhatə edir.

Dünyanın ən qüdrətli dövləti Amerika Birləşmiş Ştatlarının strateji tərəfdaşımız kimi çıxış etməsini nəzərə alaraq bizim planlarımızın gerçəkləşməsi tamamilə real görünür. Biz hidroelektrik stansiyalarına sərmayə yatırırıq. Bu layihələr Ermənistanın işğalından azad edilmiş ərazilərdə icra olunur. Hələ ki, 307 meqavat gücündə hidroelektrik stansiyalar artıq sistemimizə qoşulub. Planlarımız bunu 2-3 ilə təqribən ikiqat artırmaqdır. Bu, bizə əlavə potensial və ucuz enerji verəcək.

Beləliklə, hidroenerji, Günəş enerjisi, külək enerjisi, potensial olaraq termal enerji, - biz hazırda bu məsələni araşdırırıq, - qaz və bütün mümkün kombinasiyalar nəzərdən keçirilir və işin məhz belə aparılması zəruridir. Müzakirə etdiyimiz məsələyə qayıdaraq qeyd edim ki, hətta COP29 çərçivəsində - bu iqlim konfransına ev sahibliyi etdiyimiz zaman da bildirmişdim, baxmayaraq ki, o dövrdəki tendensiya ilə tam uyğun olmadığını anlayırdım, faydalı qazıntı yanacaq növlərini nəzərə almaq mümkün deyil. Əgər siz qazıntı yanacağını nəzərə almırsınızsa, bu o deməkdir ki, siz xəyallarla yaşayırsınız.

Biz hamımız planetin təhlükəsiz və təmiz olmasını istəyirik. Heç birimiz iqlim dəyişikliyinin fəsadlarını görmək istəmirik. Yeri gəlmişkən, burada Xəzər dənizinin ildən-ilə dayazlaşdığını görə bilərsiniz. Lakin, eyni zamanda, biz bu məsələyə ideologiya nöqteyi-nəzərindən deyil, praqmatizm, realizm nöqteyi-nəzərindən yanaşmalıyıq. Beləliklə, qazıntı yanacağının və bərpaolunan enerji mənbələrinin vəhdəti, xüsusilə də Azərbaycan kimi ölkələrin sayələrinin yüksək qiymətləndirilməsi, - ölkənin öz qaz ehtiyatlarının 100 il üçün kifayət edə biləcəyi halda bərpaolunan enerji mənbələrinə milyardlarla sərmayə yatırması, - hesab edirəm ki, iş məhz belə aparılmalıdır. Əminəm ki, bütün bu məsələlər bugünkü tədbirdə müzakirə olunacaq və biz yaxşı həll yolları tapacağıq.

Həmçinin vurğulamaq istərdim ki, Azərbaycan enerji ehtiyatlarının etibarlı tranziti ölkəsi rolunu da oynayır. Biz Qazaxıstan, Türkmənistan üçün neftin mühüm tranzitini təmin edirik və bizim sistemimiz vasitəsilə nəql olunan neftin həcmi ildən-ilə artır. Biz Xəzərin şərq sahillərindən daha çox neft qəbul etmək iqtidarındayıq və bunun üçün infrastruktura malikik.




Avropa enerji bazarında səylərimizlə bağlı məsələlərə gəlincə, düşünürəm auditoriyanın bilməyi vacib olardı ki, biz bu yaxınlarda Türkiyədə ən böyük elektrik stansiyalarından birini əldə etmişik - 870 meqavat gücündə. Ötən ay Serbiya ilə 500 meqavatlıq elektrik stansiyasının inşasına dair müqavilə imzalandı. Beləliklə, bizim enerji təhlükəsizliyinə töhfəmiz yalnız öz sərhədlərimizlə, Cənub Qaz Dəhlizi ilə məhdudlaşmır.

Həmçinin bizim üçün mühüm nailiyyətlər, mühüm amillər arasında İtaliyada ümumi emal qabiliyyəti 10 milyon ton olan 2 neftayırma müəssisəsinin əldə olunması var. Əgər Egey dənizinin Türkiyə sahillərində artıq sahib olduğumuz 12 milyon tonluq neftayırma müəssisəsini də əlavə etsək, ümumilikdə Aralıq və Egey dənizlərində 22 milyon ton neftayırma potensialımız olacaq ki, bu da öz növbəsində sözsüz ki, neft məhsullarının davamlı təchizatını təmin etməyə kömək edəcək və minlərlə yanacaqdoldurma stansiyası bu razılaşmanın bir hissəsidir.

Sizin vaxtınızı çox almaq istəmirəm. Bilirəm ki, çox məşğul olacaqsınız, sadəcə başa düşülməsi mühüm olan əsas məqamları, planlarımızı, görülmüş işləri və görülməsi planlaşdırılan işləri vurğulamaq istədim. Əminəm ki, iclas hər zaman olduğu kimi səmərəli, konstruktiv və nəticəyönümlü olacaq.

Təşəkkür edirəm.

***

**Pərviz Şahbazov:** Zati-aliləri cənab Prezident, biz Sizə olduqca minnətdarıq. Siz hərtərəfli çıxış etdiniz. Əlbəttə ki, Məşvərət Şurası Sizin müdrik rəhbərliyinizlə təsis edilmişdir və artıq mühüm bir platformaya çevrilib. Siz də çıxışınızda qeyd etdiniz ki, şaxələndirmə, sərmayələrin proqnozlaşdırılması və tərəfdaşların fəaliyyəti bağlantılar üçün çox vacibdir. Biz Sizin davamlı dəstəyinizi yüksək dəyərləndiririk və Sizə minnətdarlığımızı bildiririk.

İndi Sizin icazənizlə, mən sözü Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenə verəcəyəm. Azərbaycanın əsas enerji layihələri Avropaya yönəlib və onlar Azərbaycanla Avropa İttifaqının enerji üzrə strateji tərəfdaşlığının şərtləndirir.

Cənab Yorgensen, söz sizindir.

***

## Komissar Dan Yorgensenin çıxışı

– Sağ olun, cənab nazir.

Cənab Prezident, Zati-aliləri, xanımlar və cənablar.

Mən bu gün burada olmaqdan çox məmnunam. Burada - Bakıda səmimi qəbula görə dərin təşəkkürümü bildirirəm. Bu gün dəvətimizi qəbul etdiyinizə görə hamınıza minnətdaram.

Belə bir kəlam var: "Atalar üçdən deyib". Bu gün üçüncü ayın üçüncü günüdür. Ona görə düzgün olardı, elə mən də müzakirəmizi üç əsas hissəyə bölüm.

Əvvəlcə Avropa İttifaqının enerji təhlükəsizliyi haqqında danışaq. 2020-ci ildə Azərbaycan qazı Cənub Qaz Dəhlizi ilə Avropaya getdi. 2022-ci ildə bu dəhlizin strateji əhəmiyyəti tam aydın şəkildə üzə çıxdı. Rusiya təcavüzkar müharibəsinə başladı, enerjini silaha çevirdi və Avropa İttifaqı öz enerji təchizatını şaxələndirmək qərarına gəldi. Rusiyadan gələn enerjini əvəz etmək üçün biz ən etibarlı və inanılan tərəfdaşlarımıza üz tutduq və Azərbaycan onların arasında əsas götürüldü. Həmin vaxtdan etibarən biz Cənub Qaz Dəhlizi vasitəsilə təbii qazın təchizatını xeyli artırdıq. 2020-ci ilin sonundan Xəzərdə hasil edilən qazın 50 milyard kubmetrdən çox həcmi Trans-Adriatik boru kəməri ilə artıq Avropaya çatdırıldı. Xəzər qazının köməyi ilə Avropa İttifaqının Rusiya qazından asılılığı 2022-ci ildəki ümumi idxalda 45 faizdən 2025-ci ildə 12 faizə düşdü. Həmin rəqəmlər azalmaqda davam edir. İki ildən az müddətdə hər il hələ də idxal etdiyimiz rus qazının qalan 35 milyard kubmetri bazarımızdan çıxarılacaqdır. Həmin qaza görə Avropa İttifaqı hər il sərf etdiyi 10 milyard avro və Rusiyanı, nə də ki, onun Ukraynaya qarşı təcavüzünü artıq maliyyələşdirməyəcək.

Rusiya qazından asılılığımızı davamlı şəkildə azaltdığımız dövrdə Azərbaycanla tərəfdaşlığımızın vacibliyi yalnız artacaq, Avropanın enerji təhlükəsizliyinə və Azərbaycan iqtisadiyyatına fayda verəcək. Trans-Adriatik Boru Kəməri ilə kommersiya daşımaları başladığı dövrdə Azərbaycan 2024-cü ildə Avropa İttifaqının alıcılarından təbii qazın ixracına görə təxminən 24 milyard avro qazanıb. Bugünkü səfərin mövqeyi açıq bəyan etmək fürsətidir: Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq.

Öz növbəsində, Avropa İttifaqı yaxın gələcəkdə Azərbaycan qazının etibarlı müştərisi olaraq qalacaq və Azərbaycan iqtisadiyyatında struktur transformasiyaya təkan verəcək.

İndi isə icazə verin, ikinci hissəyə keçim. Enerji təhlükəsizliyinin gələcəyi təmiz keçid və elektrikləşmədədir. Avropa İttifaqında biz rekord templərlə bərpaolunan enerji imkanlarını inkişaf etdiririk. Məsələn, 2025-ci ildə biz elektrik enerjisinin 45 faizini bərpaolunan mənbələrdən almışıq və Avropa İttifaqında elektrik enerjisinin satış qiyməti əvvəlki ilə müqayisədə sabit qalıb.

*(ardı 3-cü səhifədə)*

# Bakıda Cənub Qaz Dəhlizi və Yaşıl Enerji məşvərət şuraları çərçivəsində nazirlərin iclasları

*(əvvəli 2-ci səhifədə)*

Bilirəm ki, Azərbaycan yerli bazarda ənənəvi yanacağın istehlakını azaltmaq üçün həmçinin elektrikləşməni nəzərdə tutur və beləliklə, öz gəlirlərini artırmaq istəyir. Bundan əlavə bilirəm ki, məhz bu elektrikləşdirmə potensialı bütün regionda böyükdür, bu, xüsusən də yerli səviyyədə və sənayedə hiss olunur.

Türkiyədə COP31 tədbirinin keçirilməsinə gəldikdə, icazə verin, bir daha qeyd edim ki, elektrikləşmənin gündəlikdə mühüm məsələ olduğu və konkret sahələrin müəyyənləşdirilməsi vacib hesab ediləcəkdir. İcazə verin, Avropa İttifaqının məhz həmin bu sənaye üzrə mövqeyini bildirim. Avropa İttifaqı bu gün məhz təmiz ekosistemin yaradılmasına çalışır. Məhz texnologiyaları tətbiq edir, hidrogen və bərpaolunan enerjiyə üz tutur. Burada rəqəmsal və kibertəhlükəsizlik həll variantları da var. Əlbəttə ki, biz bu sahədə potensialdan istifadə etmək, o cümlədən özəl sektorun kapitalını geniş şəkildə cəlb etmək üçün məhz şəffaf və rəqabətli təminat sxemlərindən istifadə etməli, eyni zamanda, daha çox tənzimləmə və proqnozlaşdırmanı təmin etməliyik. Beləliklə, Avropa İttifaqının şirkətləri bundan sonra da məhz maliyyə imkanlarını, texnologiyalarını, həmçinin kibertəhlükəsizlik və sistemin etibarlığı sahəsində yüksək standartlarını tətbiq etməyə hazırdır.

Beləliklə, icazə verin, indi regional bağlantılara keçim. Bu gün məhz düşünürük ki, bununla bağlı gündəlik çox böyükdür və biz Qara dəniz regionunda, Türkiyədə və Cənubi Qafqazda əlavə addımlar atmaq istəyirik. Əlbəttə ki, burada üç əsas məsələ nəzərdə tutulur. Birincisi, biz ümumi strateji çərçivəni formalaşdırırıq, ikincisi, islahatları prioritetləşdiririk və üçüncüsü, sərmayə siyasətini formalaşdırırıq. Burada həmin gündəliyin həyata keçirilməsində qarşılıqlı maraq var. Regional elektrik baxımından bağlantılar enerji sistemindəki xərclərin azaldılmasına, bərpaolunan enerji üçün inteqrasiya imkanlarının yaradılmasına və ikitərəfli qaydada elektrik enerjisinin nəqlinə imkan yaradır. Beləliklə, biz regional qaydada həmin elektrik enerjisinin ticarətini təmin edəcəyik və elə edəcəyik ki, regional səviyyədə elektrik enerji mənbələri tarazlı şəkildə planlansın.

Bağlantılara gəldikdə, bunlar olduqca vacibdir. Çünki burada infrastruktur və bağlantılar strukturu lazımdır. Bu baxımdan inteqrasiya və düzgün idarəçilik çərçivəsi də vacibdir. Avropa İttifaqı bundan sonra da əlavə imkanları araşdırmağa hazırdır ki, enerji bağlantıları güclənsin və regionda enerji keçidi baş versin, beləliklə, zəmanətlər və maliyyə alətləri təmin edilsin. Əlbəttə ki, özəl sektorun fəal iştirakı çox vacib olacaq. Avropa İttifaqının şirkətləri bundan sonra həm ekspert bacarıqları ilə, həm də innovasiyaları və standartları ilə yardım etməyə hazırdır. Avropa İttifaqı, eyni zamanda, tərəfdaş ölkələrinə regionda kömək edəcək ki, enerji tənzimləmələri daha da güclənsin. Bu baxımdan onlar bu yaxınlarda Avropa İttifaqının məhz enerji proqramının üçüncü fazasına başlayıblar ki, bununla fəaliyyət öz texniki dəstəyini həm ikitərəfli, həm də regional səviyyədə almışdır.

Çox yaxşı haldır ki, məhz transsərhəd elektrik interkonnektorları ilə bağlı planlar artıq formalaşıb, son illər ərzində həyata keçirilir və bir sıra təşəbbüslər var. Həmin təşəbbüslər üzrə layihələr məhz iqtisadi və sistem inteqrasiyası təhlili əsasında həyata keçirilə bilər. Mən səmimiyyətlə arzu edirəm ki, texniki əsaslandırma işləri tezliklə başa çatdırılsın.

Hörmətli qonaqlar, əziz dostlar, yekun olaraq bildirmək istəyirəm, icazə verin, bir daha bu gün bizi burada qəbul etdiyinə görə Zati-aliləri Prezident İlham Əliyevə təşəkkürümü bildirim. Təşəkkür edirəm ki, Siz bu müzakirələrin dərinləşdirilməsi və münasibətlərimizin gücləndirilməsi üçün fürsət yaradırsınız. Belə bir çətin dövrdə münasibətlər heç vaxt olmadığı qədər vacibdir. Cənab Prezident, biz bu baxımdan ötən illə müqayisədə indi daha çətin dövrdəyik. Əlbəttə ki, bu məqsədləri nəzərə aldıqda mən Sizə diqqətinizə görə təşəkkürümü bildirirəm və tədbirə məhsuldar müzakirələr arzulayıram.

***

**Pərviz Şahbazov:** Komissar Yorgensen, təhlil xarakterli çıxışınıza görə minnətdarıq. Əlbəttə, Azərbaycan ilə Avropa İttifaqı arasında enerji dialoqu bundan sonra da davam edəcək və hərtərəfli nəticələrini verəcək.

Bununla da ilk sessiyamız başa çatır.

Cənab Prezident, çox sağ olun ki, bu gün Siz burada bizimləsiniz.

***

Qeyd edək ki, toplantıya Azərbaycan və Avropa daxil olmaqla 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və təşkilat, həmçinin 49 enerji şirkəti qatılıb. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak edirlər.

Açılış sessiyasından sonra toplantı Nazirlər sessiyası, "Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizində davamlı uğur və yeni inkişaf mərhələsi" və "Yaşıl enerji layihələri" üzrə plenar sessiyalarla davam edir.

Məşvərət Şurası çərçivəsində Azərbaycan-Avropa İttifaqı Yaşıl Bağlantı üzrə İnvestisiya dəyirmi masası keçiriləcək.

Tədbirin sonunda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının yekunlarına dair mətbuat konfransı təşkil olunacaq.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından keçirilir.

# Prezident İlham Əliyev Avropa Komissiyası komissarını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında iştirak edən Avropa Komissiyasının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dan Yorgensen dövlətimizin başçısının Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının açılışındakı çıxışının onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Dan Yorgensen tədbirin çox mühüm əhəmiyyət daşıdığını qeyd edərək, ölkəmizlə tərəfdaşlığın onlar üçün önəm kəsb etdiyini bildirdi və onu genişləndirməkdə maraqlı olduqlarını vurğuladı. O, həyata keçirilən əməkdaşlığa görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın və Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosun ötən il ölkəmizə səfərlərinə toxunaraq, heyətlərimizin fəal işləməsini enerji və bağlılıq məsələlərində əməkdaşlığı dərinləşdirmək üçün hər iki tərəfdə olan iradənin göstəricisi kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanın, xüsusən hazırkı dövrdə Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə toxunuldu, enerji sahəsində ölkəmizin Avropa bazarında ixrac coğrafiyasının genişləndirilməsi və təbii qaz, yaşıl enerji ilə bağlı əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

***AZƏRTAC***

## Bolqarıstan Respublikasının Prezidenti Zati-aliləri xanım İliyana Yotovaya

**Hörmətli xanım Prezident!**

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Bolqarıstan arasında ənənəvi dostluq və strateji tərəfdaşlıq münasibətlərinin bugünkü səviyyəsi bizi sevindirir. İkitərəfli münasibətlərimiz qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edir, müxtəlif sahələri əhatə edən əməkdaşlığımız gündən-günə genişlənir və yeni məzmunla zənginləşir.

Yüksək səviyyəli siyasi əlaqələrimiz iqtisadi-ticari, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığımız üçün yaxşı zəmin yaradır. Əməkdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda nümayiş etdirdiyimiz fəal işbirliyi təqdirəlayiqdir.

Bu yaxınlarda Münxendə Sizinlə görüşümüzü və Azərbaycan-Bolqarıstan əlaqələrinin inkişaf perspektivlərinə dair apardığımız fikir mübadiləsini ən xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, mövcud imkanlardan yararlanaraq dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bolqarıstan xalqına daim rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 fevral 2026-cı il**

# Rusiya Hökumətinin sədri göstərilən yardıma görə Azərbaycana təşəkkür edib



**Martın 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin arasında telefon danışığı olub.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən bildirilib ki, telefon danışığı zamanı Azərbaycan-Rusiya ticari-iqtisadi əməkdaşlığının aktual məsələləri müzakirə edilib. Ticarət dövriyyəsinin artımında müsbət dinamika qeyd olunub. Qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə birgə layihələrin həyata keçirilməsi məsələlərinə baxılıb.

Söhbət əsnasında Rusiya tərəfi mürəkkəb regional vəziyyət şəraitində Rusiya Federasiyası vətəndaşlarının İran İslam Respublikasından operativ şəkildə təxliyə edilməsinə göstərdiyi yardıma görə Azərbaycan rəhbərliyinə minnətdarlığını bildirib.

Hökumət başçıları Rusiya Hökuməti sədrinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətinin dünən Bakıya etdiyi səfərin vacibliyini vurğulayıb, bu ilin aprel ayında Azərbaycanda İqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi barədə əldə olunmuş razılaşmanı alqışlayıblar.

Fürsətdən istifadə edərək Ə.Əsədov M.Mişustini 60 illik yubileyi münasibətilə təbrik edib, ona gələcək dövlət fəaliyyətində uğurlar arzulayıb.

***XQ***

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi**
Rəhimova Aybəniz Məhəmməd qızı

**inzibati məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi**
Bayramova Cahan Gəray qızı

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Kəngərli Rayon Məhkəməsi**
Rzazadə Türkan Əvəz qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Nəsibov Elçin Aftandil oğlu
**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Salmanova Gülnaz Elçin qızı
**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Dünyamalılı İradə Şəms qızı
Qasımov Rüstəm Sabir oğlu
**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**
Göyüşova Günay Vidadi qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Türkmənli Lamiyə Elman qızı
**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Maqsudov İsa Sabir oğlu
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Qocayev Orxan Ələddin oğlu
**Bakı şəhəri Səbail Rayon Məhkəməsi**
Vəliyeva Günay Rahim qızı
**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Camalov Əli Elmar oğlu

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Qəniyev Sabir Ramazan oğlu
**Ağdaş Rayon Məhkəməsi**
Vəliyeva Səkinə Nail qızı
**Astara Rayon Məhkəməsi**
Quliyev Emin Əliağa oğlu
**Bərdə Rayon Məhkəməsi**
Məmişov Yasin Əhməd oğlu
**Cəlilabad Rayon Məhkəməsi**
Əliyev Səməd Eyyub oğlu
**Gəncə Şəhər Məhkəməsi**
Abbasov Hüseyn Eldar oğlu
**Goranboy Rayon Məhkəməsi**
Yusifov Elnur Gündüz oğlu
**Göygöl Rayon Məhkəməsi**
Səfərova Aynur Elman qızı
**Xaçmaz Rayon Məhkəməsi**
Qayıbov Aqşin Mehman oğlu
**İmişli Rayon Məhkəməsi**
Salmanov Elnur Nizami oğlu
**Lənkəran Rayon Məhkəməsi**
Mehdiyeva Aysel İntiqam qızı
**Masallı Rayon Məhkəməsi**
Səmədzadə Firuzə Siyasət qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
Raxtari Kamilə Səftər qızı
**Şabran Rayon Məhkəməsi**
Əhmədova Əfsanə Əlövsət qızı
**Şamaxı Rayon Məhkəməsi**
Əliyev Samir Sahib oğlu
**Şəki Rayon Məhkəməsi**
Məmmədli Hacı Əliheydər oğlu
**Şirvan Şəhər Məhkəməsi**
Abbaslı Əsgər Əbülfət oğlu
**Tərtər Rayon Məhkəməsi**
Təhməzli Nigar Natiq qızı
**Tovuz Rayon Məhkəməsi**
Aydəmirov Elməddin Şabəddin oğlu
**Ucar Rayon Məhkəməsi**
Babayeva Nərgiz Səftər qızı
**Yardımlı Rayon Məhkəməsi**
Məmmədova Aygün Fəhrad qızı.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 mart 2026-cı il**

# Kəmaləddin Heydərov BMMT İcraiyyə Şurasının sessiyasında



**Martın 3-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının İcraiyyə Şurasının növbədənkənar sessiyası keçirilib. Onlayn formatda təşkil olunan tədbirdə fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, BMMT-nin Baş katibi Ərgüc Kələntərli, İcraiyyə Şurasının üzv dövlətlərinin nümayəndələri iştirak ediblər.**

Növbədənkənar sessiyanın açılışında çıxış edən Baş katib Ə.Kələntərli BMMT-nin cari fəaliyyəti, institusional sabitliyin təmin edilməsi və inzibati proseslərin bərpası istiqamətində görülmüş işlər barədə geniş hesabat təqdim edib.

Sessiyada təşkilatın kadr potensialının gücləndirilməsi, mandatının tam əhatəli icrası üçün kompleks reaksiya yanaşmasının tətbiqi, üzv dövlətlərdə həyata keçirilən humanitar layihələrin cari vəziyyəti, büdcə dayanıqlığının təmin edilməsi məqsədilə hazırlanan adaptiv büdcə modeli və üzvlük haqlarının yenilənmiş cədvəli müzakirə olunub.

Sessiya çərçivəsində yaxın gələcək üçün nəzərdə tutulan mühüm tədbirlər, o cümlədən 2026-cı ildə keçiriləcək BMMT Baş Assambleyasının 27-ci və İcraiyyə Şurasının 59-cu sessiyalarının təşkili, 2027-ci ildə BMMT-nin himayəsi altında keçirilməsi planlaşdırılan ilk genişmiqyaslı beynəlxalq sahə təlimləri barədə ətraflı məlumat verilib.

Növbədənkənar sessiyanın sonunda İcraiyyə Şurası tərəfindən 2026-cı ilin büdcəsi, Daimi Katibliyin yeni strukturu və Təşkilatın maraqlarının hüquqi müstəvidə qorunmasına yönəlmiş qərarlar qəbul edilib və sessiya işini şəffaflıq prinsiplərinə sadiqlik bəyanatı ilə yekunlaşdırıb.

***XQ***

# Rəqəmsal inqilabın bayraqdarı



**Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda yeni bir qurum yaradıldı. Bu qurumlarüstü bir təsisat olan Rəqəmsal İnkişaf Şurasıdır.**

Ölkədə İqtisadi Şura da var. Bu quruma Baş nazir sədrlik edir. Yeni şuranın statusu daha yüksəkdir. Bu qurumlarüstü quruma dövlətin ikinci ali rəhbəri olan Birinci vitse-prezident Mehriban Əliyeva sədrlik edir. RİŞ-ya Birinci vitse-prezidentin sədr təyin edilməsi ölkədə rəqəmsal keçidin ən önəmli hədəf sayılması deməkdir.

Deməli, Birinci vitse-prezident Mehriban Əliyevanın RİŞ-ya rəhbərlik etməsi bu qurumun ali statusu, rəqəmsal keçidin prioritet sıralamada öncüllüyü ilə yanaşı, həm də qarşıya qoyulmuş məqsədin sürətli və qüsursuz icra olunacağına əminlik deməkdir.

Strateji hədəflərin gerçəkləşməsində təkcə bilik bəs etmir, təşəbbüskarlıq da kifayət deyil, ayrılıqda innovativ yanaşma da yetərli olmaya bilər. Ən əsas meyarlardan biri də uğur təcrübəsidir. Yəni indiyədək qazanılmış uğurlarla zənginləşdirilmiş şəxsi-rəsmi portfolio olduqca önəmlidir.

Birinci xanım Mehriban Əliyeva indiyə qədər bir sıra mötəbər beynəlxalq tədbirlərin təşkilatçısı, çox yüksək rəsmi və ictimai qurumların rəhbəri, bir sıra humanitar hərəkatların təşkilatçısı və rəhbəri olub. Bunların da hamısında istisnasız olaraq uğur qazanıb.

Azərbaycanda "Avroviziya" mahnı müsabiqəsi keçirilib. Bu, həmin yarışmanın tarixindəki ən uğurlu təşkilatçılıq örnəyi idi. I Avropa Oyunlarının yüksək səviyyədə keçirilməsi isə təkrarlanması mümkün olmayan bir nailiyyət idi. IV İslam Həmrəyliyi Oyunları da bunlar kimi.

Bəzi ümummilli önəmli işlər o qədər yaxşı görülür ki, sonra bir başqası onu daha yüksək səviyyədə görə bilməyəcək. Elə rekordlar var, onu müəllifin özündən başqa, təzələyən olmur. Bəzi sənət əsərləri var ki, onlardan daha yaxşısını yaratmaq, ümumiyyətlə, mümkün görünmür. Məsələn, ikinci "Cakonda"nı yaradacaq başqa bir Leonardo da Vinçi yoxdur. Rəssamın dövründən 5 əsr keçib, lakin daha bir "Mona Liza" yaradılmayıb. Bəlkə, 5 əsr sonra və heç vaxt olmayacaq. Azərbaycanın Birinci vitse-prezidentin portfoliosu bu cür əməllərlə zəngindir.

İndiki dövr isə yeni bir eraya keçiddir – rəqəmsallaşma, sünü zəka erasına. Kim uğurla keçid edə bilsə, o, prosesin önündə gedəcək. Kim geri qalsa, modern texnofeodalizmin vassalına, qlobal trendin autsayderinə çevriləcək. Bax bu səbəbdən Azərbaycanda rəqəmsal keçid, Aİ əsaslı cəmiyyət quruculuğuna rəhbərlik Mehriban Əliyevaya həvalə olunub. RİŞ və bu quruma rəhbərlik bariz nümunədir.

Bəli, Mehriban Əliyeva hələ hakimiyyətdə konstitusiya vəzifəsi tutana qədər də öz təbii - emosional və intellekt səviyyəsini, nadir təşkilatçılıq istedadını, konitiv imkanlarını göstərə bilmişdi. İstər ölkə içində, istərsə də beynəlxalq miqyasda yüksək ictimai-mədəni platformalarda öz potensialını nümayiş etdirmişdi. Ancaq RİŞ bir başqa bilik, üstəgəl əməl meydanıdır. Hədəf kifayət qədər aydın, məqsəd isə fövqəladə dərəcədə aktualdır.

Rəqəmsal keçid faktik olaraq dövləti yenidən qurmaq kimi bir hədəfdir. Bu, keyfiyyətcə yeni və miqyasca nəhəng quruculuq mərhələsinin ön sırasında - işin başında, əlbəttə, ölkənin birinci şəxsi durur. Rəqəmsal keçidin – fərqli tarixi-texnoloji formasiyanın ideya müəllifi, ideoloqu, təşəbbüsçüsü, ilham qaynağı, əlbəttə, Prezidentin özüdür. Dövlət başçısı özü də, yeni çağın qlobal çağırışlarından az-çox xəbəri olan hər kəs də bilir ki, bu işin yarıtmaz icra ehtimalı, yetərsizliyi, yanlış yönləndirilməsi ola bilməz. Ona görə də Prezident bir başqasını deyil, məhz Birinci vitse-prezident Mehriban Əliyevanı ölkədə rəqəmsal inkişafın lokomotivi olaraq görür.

Buna, əslində, "rəqəmsal inqilab" da demək olar. Belə bir innovariv keçid, yenilənmə – yaradıcı inqilab Azərbaycanda ən layiqli bayraqdarını tapıb.

***Bahəddin HƏZİ***

# Uşaq hüquqları həm də gələcəyimizi qoruyur

## Boşanmaların artması isə ciddi narahatlıq doğurur




**Dünən Milli Məclisin növbəti plenar iclasında İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın) 2025-ci ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi təqdim edildi. Bununla yanaşı, bəzi qanunlara dəyişikliklər edildi və deputatların çıxışları dinlənildi.**

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın 2025-ci ildəki fəaliyyəti ilə əlaqədar məruzəsində ombudsmanın ötən il üzrə fəaliyyəti, vətəndaş müraciətləri və gələcək prioritetlər öz əksini tapmışdı. Müvəkkil Səbinə Əliyeva bildirdi ki, məruzədə insan hüquqlarının müdafiəsi ilə bağlı 94 tövsiyə irəli sürülüb. Bu təkliflər uşaqlar, qadınlar, müharibə iştirakçıları və digər həssas qrupların hüquqlarının səmərəli qorunmasına yönəlib. Onun sözlərinə görə, ötən il daxil olan 42 mindən çox müraciət qanunvericiliyə uyğun araşdırılaraq cavablandırılıb.

Məruzə ətrafında ilk çıxış edən deputat Qüdrət Həsənquliyev Azərbaycanda vətəndaşların əsas narazılığının məhkəmə sistemi ilə bağlı olduğunu diqqətə çatdırdı. Q.Həsənquliyevin sözlərinə görə, insanlar məhkəmələrin qərarlarını ədalətsiz hesab edir və hüquqlarını bərpa edə bilmirlər: "Bu problem mütləq həllini tapmalıdır. Güclü və müstəqil məhkəmə sistemi olmadan ölkədə sosial ədalətin təmin olunması mümkün deyil. Heç bir ombudsman bu funksiyanı məhkəmələrin əvəzinə yerinə yetirə bilməz".

Q.Həsənquliyev fevralın 28-da keçirilən İqtisadi Şuranın iclasında protokol qaydalarının pozulması halına diqqəti çəkdi. Onun sözlərinə görə, Ali Məhkəmənin sədri İnam Kərimov iclasda məhkəmə hakimiyyətinin statusuna uyğun sayılan yerdə – nazirlərlə bir sırada deyil – Baş nazirin yanında əyləşməli idi: "Məhkəmə sisteminin rəhbəri olan şəxs protokol baxımından daha uyğun mövqedə təmsil olunmalı idi. Baş nazirin yanında oturmalı olduğu halda, nazirlərlə bərabər oturmuşdu. Bu, yaxşı təəssürat yaratmır".

Məhkəmələrdə illərdir davam edən süründürməçilik hallarına diqqət çəkən millət vəkili, xüsusilə sahibkarların öz hüquqlarını effektiv müdafiə edə bilməməsindən narahatlığını bildirdi. O, həmçinin daşınmaz əmlak sahəsindəki "vicdanlı alıcı" problemini kəskin tənqid atəşinə tutdu. Deputatın fikrincə, saxta sənədlər əsasında əmlakların üçüncü şəxslərə satılması nəticəsində həqiqi mülkiyyətçilər qanuni hüquqlarından məhrum olurlar. Sonda o, ombudsmanı məhz bu kimi sistemli problemlərə və məhkəmə ədalətinin bərpasına xüsusi diqqət yetirməyə çağırdı.

Komitə sədri Fazil Mustafa ölkədəki nikah və boşanma statistikasının narahatedici məqamlarına toxundu. Deputat son doqquz ayın göstəricilərinə əsaslanaraq bildirdi ki, qeydə alınan 40 min nikahdan 17 mini boşanma ilə nəticələnib. Xüsusilə Bakı şəhərində vəziyyətin daha acınacaqlı olduğunu vurğulayan deputat paytaxtda nikahların təxminən 56 faizinin dağılmasını ciddi sosial problem kimi qiymətləndirdi. Boşanma proseslərindəki aliment öhdəliklərinə də toxunan F.Mustafa bu məsələdə ədalət prinsipinin qorunmasının vacibliyini qeyd etdi: "Bir çox hallarda məsuliyyət əsasən kişinin üzərinə qoyulur və aliment öhdəliyi müəyyən edilir. Eyni zamanda, iddialar var ki, bəzi hallarda ailə qurulduqdan və övlad dünyaya gəldikdən sonra qadınlar tərəfindən məqsədli şəkildə boşanma təşəbbüsü irəli sürülür və aliment əldə etmək əsas motivə çevrilir".

Beləliklə, müvafiq komitələrin rəyləri və aparılan müzakirələrdən sonra ombudsmanın illik hesabatı səsverməyə qoyularaq qəbul edildi. Daha sonra gündəlikdə duran növbəti məsələlərə keçid edildi. İlk olaraq, "Uşaq hüquqları haqqında" yeni hazırlanmış qanun layihəsi və sözügedən layihədən irəli gələrək digər məcəllə və qanunlarda dəyişikliklər müzakirəyə çıxarıldı. Bununla bağlı Mülki Prosessual, Ailə, Cinayət-Prosessual məcəllələrinə, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlara dəyişiklik layihəsi müzakirəyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi.

Parlament bir sıra digər mühüm qanunvericilik dəyişikliklərini də üçüncü oxunuşda qəbul etdi. Cinayət və Cinayət-Prosessual məcəllələrinə edilən dəyişikliklər Birləşmiş Millətlər Təşkilatının (BMT) Kibercinayətkarlığa qarşı Konvensiyasının ratifikasiyası ilə əlaqədar idi. Bundan başqa, İnzibati Xətalar Məcəlləsində elektron siqaretlərlə bağlı yeni cərimələr müəyyən edildi. Yeni qaydalar bu məhsulların istifadəsi, idxalı və ixracı ilə bağlı tələbləri sərtləşdirdi. Eyni zamanda, elektron siqaretlərin istehsalı, topdan və pərakəndə satışı, habelə satış məqsədilə saxlanılmasına görə məsuliyyət artırıldı. Deputatlar "Avtomobil nəqliyyatı haqqında" qanuna edilən dəyişiklikləri də təsdiq etdilər. Yeniliyə əsasən, ölkədaxili sifarişli sərnişin və yük daşımaları üçün icazə almaq istəyən sürücülərdən tələb olunan sənədlərin siyahısı genişləndirildi.

Qanunvericiliyin mövcud idarəetmə strukturuna uyğunlaşdırılması məqsədilə bir sıra qanun və məcəllələrə dəyişiklik layihəsi müzakirə edildi. MM-in Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyevin təqdim etdiyi sənədə əsasən, Nazirlər Kabinetinin silah və strateji materialların ixracı üzərində nəzarəti təşkil etmək səlahiyyəti ləğv olundu. Dəyişikliklərin əsas səbəbi 2012-ci ildə Müdafiə Nazirliyinin tabeliyindəki hərbi komissarlıqların ləğv edilərək, onların bazasında müstəqil mərkəzi icra hakimiyyəti orqanı olan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılması göstərildi. Sözügedən Xidmətin fəaliyyəti və təchizat qaydaları birbaşa Prezident fərmanları və müvafiq Əsasnamə ilə tənzimləndiyi üçün "Müdafiə haqqında" qanunun 6-cı maddəsindən bu səlahiyyətlərin hökumətə aid olmasını nəzərdə tutan bənd çıxarıldı. Eyni zamanda, Əmək, Cəzaların İcrası məcəllələrindən və digər aidiyyəti qanunlardan artıq fəaliyyət göstərməyən "hərbi komissarlıq" ifadələri kənarlaşdırıldı. Qanun layihəsi müzakirələrdən sonra səsverməyə qoyularaq ilk oxunuşda təsdiq edildi.

Bununla da parlamentin plenar iclası öz işini yekunlaşdırdı.

***Tacir SADIQOV***
***XQ***

*Replika*

# Hayastanda gizli heç nə qalmayıb

**...Siyasi rəqiblərə qarşı çirkin kompromatların təşkili, keçmişindəki qara ləkələri başqalarını çirkaba bulamaqla təmizləmək və bu yolla özünü təmizə çıxarmaq cəhdləri, dünənki müttəfiqlərə arxa çevirmələr, kənardakı siyasi sponsorlara quyruq bulamaları, hay cəmiyyətinin gözündən düşənlərin başına və yaşına yaraşmayan davranışları. Sadaladıqlarımız və hələ xəbər tutmadığımız hərəkətləri Ermənistanda parlament seçkiləri öncəsi atmosfer təzyiqi xeyli yüksəlmiş "siyasi qızdırmanın" əlamətləri kimi də yozmaq olar. Parlamentdə çoxluğu qazanmağa iddialıların seçkiqabağı ilkin təsnifatımızdakı sonuncu kontingentin üzərində ayrıca dayanacağıq.**



"Bəzən mənə elə gəlir ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın bəyanatlarını cəmi 3 nəfər oxuyur, – onlardan biri də mənəm". Vitse-spiker Ruben Rubinyan bu sözləri dünən Milli Assambleyanın dinləmələrində fasilə zamanı jurnalistlərlə söhbətində "Taşir" şirkətlər qrupunun sahibi, rusiyalı iş adamı Samvel Karapetyanı dəstəkləyən sabiq prezident Levon Ter-Petrosyanın son açıqlamasını şərh edərkən deyib.

Elektoratdan səs uman sonuncu kontingent deyəndə məhz Levon Ter-Petrosyanı nəzərdə tuturduq. Suriya ermənisi, iki ay əvvəl 81 yaşını adlamış Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan özünü əməlli-başlı biabır edib. O, özünün buqələmun siyasi mövqeyi və çıxışları ilə onsuz da gözdən düşmüşdü. İndi bu siyasi meyitin barəsində cinayət işi qaldırılaraq həbsxanaya salınmış, şübhəli biznesə sahib rusiyalı milyarder Samvel Karapetyanın qəfildən müdafiəsinə qalxmasının səbəbi "iki vur iki" qədər sadədir. Parlament seçkilərinə 3 ay qalmış şimaldan aldığı təlimata uyğun hərəkət etməyə başlayan Levonun bu yaşında pula hərisliyi vaxtilə hayların öyündüyü siyasi praqmatizminə qalib gəlib. Bütün cəbhələrdən Paşinyan komandasına qarşı hücuma keçən satqın və muzdlu müxalifətin məhz kənar qüvvələrin ssenarisi əsasında anti-Ermənistan fəaliyyətlərinə start verdikləri aşkar görünməkdədir. Ermənistan və onun siyasi cameəsi nə boydadır ki, kimin haraya bağlı olduğunu, kimin hansı qapıdan keçdiyini gizli saxlamaq mümkün olsun? Bu "xor kapellasına" qocaman Levon da qoşulub. Erməni xislətinin üzə çıxmasından ötrü yaşın fərqi yoxdur.

Ermənistanın sabiq birinci prezidentini layiq olduğu aşağılayıcı "təşbehlərə" qonaq edənin kimliyi az əhəmiyyət kəsb etmir. Bu ironiyalı siyasi replika Ermənistan parlamentində hakim "Mülki müqavilə" partiyasına məxsus fraksiyanın rəhbəri, spikerin müavini, üç gündən sonra cəmi 36 yaşlı tamam olacaq Ruben Rubinyanın dilindən səslənir. Türkiyə ilə ikitərəfli danışıqlarda baş nazirin xüsusi nümayəndəsi kimi iştirak edən Ruben "biri də mən" deyəndə çox güman ki, hayların eks-prezidentinin bəyanatlarını oxuyan daha 2 nəfərdən birinin müəllifin özünü – yəni Levon Ter-Petrosyanı, 3-cü qismində yəqin statusuna görsə ona hökumətin ayırdığı dövlət avtomobilinin sürücüsünü nəzərdə tuturmuş. Sinninin bu çağında Ter-Petrosyanın olduqca ağrılı və biabırçı bir siyasi süqutla üzləşməsi heç xoşagələn hal deyil. Biz heç kimin siyasi karyerasının sonunda reputasiyası bulaşıq hansısa oliqarxın ayağına düşməsini arzulamırıq. Əslində, diqqətinizə ərz etdiyimiz hekayətin ən kədərli tərəfi məhz bundan ibarətdir.

İntəhası, məsələnin gülməli tərəfi də var. Bu da odur ki, müxalifətin baş nazirliyə namizədliyini irəli sürdüyü Levon Zurabyan, deməli, mahiyyətcə o qədər dəyərsiz birisidir ki, bunun təşəbbüskarı indi başqasını dəstəkləməyə üstünlük verib. Bunu isə Ruben Rubinyan deyib. Üstəlik, sözlərinə onu da əlavə edib ki, qanunla sonuncu baş nazir postuna namizəd ola bilməz.

İndi gəl hay kələfinin ucunu axtar. Ay tapdın ha...

***İ.HƏSƏNQALA***
***XQ***

# Overçukun Bakı səfəri və "AZAL"ın təyyarəsi ilə bağlı məsələ

*Nikbinliyimiz gözləntimizi qarşılayacaqmı?*

**Prezident İlham Əliyevin martın 2-də Rusiya Baş nazirinin müavini Aleksey Overçuku qəbulu zamanı səslənmiş fikirlər Bakı–Moskva münasibətlərinin son zamanlardakı soyuqluq ahəngində müəyyən dəyişiklik yaradıb. Daha doğrusu, Şimal qonşumuzun hökumət rəsmisinin respublikamıza səfəri nikbin düşünmək üçün əsasdır. Yayılmış rəsmi məlumatda görüşün Azərbaycan–Rusiya dövlətlərarası dialoqa xas ənənəvi dostluq və konstruktiv şəraitdə keçmiş təmas kimi qiymətləndirilməsi pozitiv əhvali-ruhiyyəmizi artırır.**

A.Overçuk mürəkkəb və gərgin şərait fonunda Rusiya vətəndaşlarının İrandan təxliyəsində operativ köməyə görə Azərbaycan rəhbərliyinə Kremlin səmimi təşəkkür mesajını çatdırıb. Məlum olduğu kimi, görüşdə, eyni zamanda, Bakı–Moskva münasibətlərinin gündəliyinə dair ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı faydalı iqtisadi-ticari, investisiya, sənaye və nəqliyyat-logistika əməkdaşlığının dərinləşdirilməsinə yönələn ortaq niyyət açıqlanıb.

Şübhəsiz, söhbət zamanı üzərində dayanılmış mühüm mövzu 2024-cü il dekabrın 25-də "AZAL" təyyarəsinin qəzaya uğraması nəticəsində yaranan problemlərin həlli istiqamətində kompleks praktik addımların atılması ilə bağlı olub. Yəni, bu addımların atılmasının zəruriliyi vurğulanıb. Nəzərə alaq ki, Bakı–Moskva münasibətlərində soyuqluq məhz qarşı tərəfin təyyarə olayına lazımi qiymət verməməsindən qaynaqlanıb. Halbuki, Azərbaycan və Rusiya liderlərinin 2025-ci il oktyabrın 9-da Düşənbədə keçirilən görüşündə əldə etdikləri razılaşmaların ruhu tamam fərqli, yəni müsbət ovqat formalaşdırsa da, sonra yaşananların bu ovqatla tamamilə tərs mütənasibliyini gördük.

*

Qeyd edək ki, Prezident Putin bu ilin oktyabrında Tacikistanın paytaxtı Düşənbədə Prezident İlham Əliyevlə görüşündə məlum təyyarə olayına toxunaraq, faciənin rəhbərlik etdiyi ölkənin səmasında baş verdiyinə görə əvvəlki üzrxahlığını xatırlatmışdı. "Görüşümüzü ən həssas mövzudan – bizim səmamızda baş verən aviasiya faciəsindən başlamaq istərdim. O vaxt bu faciənin məhz Rusiya səmasında baş verməsinə görə üzr istədim, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verdim", – deyən Kreml rəhbəri əlavə etmişdi ki, Moskva təyyarənin qəzaya uğraması ilə bağlı istintaqa dəstəyini göstərir. Putinin sözlərinə görə, olaya səbəb Ukraynaya məxsus 3 PUA-nın səmada olması və Rusiya sərhədini keçməsidir. "Rusiyanın hava hücumundan müdafiə sistemi tərəfindən



atılan iki raket "AZAL"ın təyyarəsinə birbaşa dəyməyib, bir neçə metr aralıda partlayıb. Təyyarə, çox güman ki, raketin elementləri ilə deyil, qırıntıları ilə vurulub", - deyən Rusiya Prezidenti İlham Əliyevlə görüşdə onu da bildirmişdi ki, ölkəsi təzminat ödənilməsinə dair tələb olunan hər şeyi edəcək. Amma...

Əslində, "əmmalar" az deyil. Xatırladaq ki, Rusiya Xarici İşlər Nazirliyi ötən ilin sentyabrında məlumat yayaraq, təyyarə olayı ilə bağlı sığorta ödənişlərinin həyata keçirildiyini iddia etmişdi. Azərbaycan XİN-in buna cavabı son dərəcə dəqiq və məntiqli idi. Ölkəmizin baş diplomatiya idarəsi bildirmişdi ki, "AZAL"a və sərnişinlərə Rusiyada qeydiyyatda olan sığorta şirkəti tərəfindən sığorta ödənişlərinin həyata keçirilməsi və təyyarənin vurulması ilə bağlı ölkəmizin Rusiya Hökumətindən kompensasiya tələb etməsi məsələləri tamamilə fərqli mövzulardır: "Sözügedən şirkət tərəfindən qeyd edilən sığorta ödənişlərinin həyata keçirilməsi prosesi artıq 6 aydır həyata keçirilir. Ümumilikdə, bu ödənişlər məhz AZAL-ın sığorta müqaviləsi çərçivəsində, şirkətin təyyarəsini və sərnişinləri sığorta etməsi nəticəsində öhdəliklərə uyğun olaraq təmin edilir". XİN-in cavabı "...Beləliklə, sığorta ödənişlərinin Azərbaycanın Rusiya hökumətindən tələb etdiyi kompensasiya ilə eyniləşdirilməsi cəhdləri düzgün deyil" sözləri ilə bitir.

O da məlumdur ki, ötən il fevralın 4-də Beynəlxalq Mülki Aviasiya Təşkilatı 1944-cü il Beynəlxalq Mülki Aviasiya haqqında Çikaqo Konvensiyasının 13 saylı Əlavəsinin tələblərinə uyğun aparılmış "AZAL"ın təyyarəsi ilə bağlı araşdırmanın ilkin hesabatını dərc etmişdi. Qurum Rusiya tərəfinin iddiasının əksinə olaraq, oksigen balonunun partlaması ilə bağlı faktın qeydə alınmadığını, hava gəmisinin quşlarla toqquşmadığını, füzelyajda çoxsaylı dəlib keçən və kor zədələrin olduğunu, həmçinin Rusiya hava məkanında, o cümlədən Qroznı hava limanı üzərində GPS siqnallarının itdiyini vurğulamışdı...

2025-ci ilin martında isə Moskva məhkəməsi təyyarə qəzası ilə bağlı aparılan istintaqa dair sənədlərin müsadirəsinə icazə vermişdi. Buna dair qərar müstəntiqin prokuror tərəfindən dəstəklənən və həmin ilin yanvarında verilmiş vəsatətinə baxılaraq qəbul edilmişdi. Məhkəmə sənədləri göstərmişdi ki, cinayət işi Rusiya İstintaq Komitəsinin Baş İstintaq İdarəsi tərəfindən aparılır.

Yeri gəlmişkən, APA agentliyi may ayında Rusiyanın aparılan istintaq barədə konkret heç bir məlumat açıqlamadığını vurğulayan informasiya yaymışdı. Agentlik mötəbər mənbəyə istinadən bildirmişdi ki, Azərbaycan tərəfi hər ay bu məsələ ilə bağlı müraciət etsə də, qarşı tərəf müxtəlif bəhanələrlə istintaqı uzadır, müraciətləri cavabsız qoyur: "Bu 5 ay ərzində Rusiya tərəfindən heç bir istintaq hərəkətləri aparılmır. Qəzanın baş verməsində günahı və məsuliyyəti olan şəxslərdən heç kim barəsində həbs qətimkan tədbiri seçilməyib".

*

Bununla yanaşı, daha böyük "əmma" da var. Söhbət Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkinin Azərbaycanın Baş Prokurorluğuna "AZAL"ın təyyarəsi ilə bağlı məktubundan gedir. Ötən ilin dekabrında ünvanlanmış həmin məktubda "AZAL"ın təyyarəsi ilə bağlı cinayət işinə xitam verildiyi açıqlanmışdı. Nə qədər qəribə olsa da, sənədin "BT News" "Telegram" kanalında yayımlanmış məzmunundan əldə edilən nəticə bunu deməyə əsas vermişdi ki, Prezident Putinin Düşənbədə dedikləri mənasızdır. Məzmun isə təxminən belə idi: "AZAL"a məxsus təyyarə duman səbəbindən Rusiya ərazisində yerə eniş edə bilməyib və Qazaxıstana üz tutaraq orada qəzaya uğrayıb. Loru dildə desək, bizlik heç nə yoxdur.

Amma Azərbaycan tərəfinin yanaşması Bastrıkinin məktubunun heçə sayılması xüsusunda idi. Bu baxımdan Ceyhun Bayramovun açıqladığı prinsipial mövqe vurğulanmalıdır: "Məktubda diqqətçəkən məqamlardan biri ondan ibarədir ki, cənab Bastrıkin bu cinayət işinə xitam verilməsi barədə məlumatı bölüşüb. Bu, ciddi suallar yaradır və təəccüb doğurur. Həmin məktuba Azərbaycanın müvafiq qurumu tərəfindən təfsilatlı mövqe ortaya qoyulub və Rusiya tərəfinə çatdırılıb. Güman edirəm ki, bu məsələyə aydınlıq gətiriləcək. Ən azından bizim gözləntimiz iki ölkə lideri arasında aparılan danışıqlara uyğun olaraq bu məsələ ilə bağlı araşdırmanın başa çatdırılması, hüquqi qiymətin verilməsi, kompensasiyaların ödənməsidir".

Xatırladaq ki, ötən il dekabrın 30-da Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinlə görüşündə prezidentlərin Düşənbə təmasının prinsipial mahiyyəti üzərində dayanmışdı. Səfir heç bir prosedur qərarın Rusiya dövlət başçısının bəyanatında yer alan təlimatların həyata keçirilməsi zərurətini əvəz və ya ləğv edə bilməyəcəyini bildirmiş və bu mövqe müsbət qarşılanmışdı. Hərçənd, yanvarın əvvəlində "AZAL"ın təyyarəsini vurmaq əmrini verən general-mayor Aleksandr Vasilyeviç Tolopiloya qarşı bütün ittihamların aradan qaldırıldığına dair məlumatın yayıldığını da gördük.

*

Sonda belə nəticəyə gəlmək mümkündür ki, Prezident İlham Əliyevin martın 2-də Rusiya Baş nazirinin müavini Aleksey Overçukla görüşündə "AZAL"ın təyyarəsi ilə bağlı məsələyə qayıdılması Rusiya İstintaq Komitəsinin rəhbəri A.Bastrıkinin məktubunda ifadəsini tapan xoşagəlməz motivi heçə endirir. Overçukun respublikamıza səfərinin nikbinlik baxımından verdiyi ən böyük əsas da elə budur. Ümid edək ki, bu düşüncəmizin davamı üçün daha pozitiv cəhətlər meydana çıxacaq və münasibətlərdəki soyuqluq aradan qalxacaq. Hər halda, rəsmi Bakı bütün qonşu ölkələrlə, o cümlədən Rusiya ilə mehribanlığın, bərabərtərəfli, qarşılıqlı etimada və faydaya əsaslanmış əlaqələrin qorunmasında maraqlıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qırmızı dənizdən Xəzərə uzanan xoş məram

*Azərbaycan və İordaniya qlobal sülh naminə həmrəylik nümayiş etdirir*

**Azərbaycanın regionda, habelə qlobal miqyasda yürütdüyü xarici siyasət kursu konstruktiv tərəfdaşlıq fəlsəfəsinə söykənir. İki gün əvvəl Xarici işlər naziri Ceyhun Bayramovla İordaniya Haşimilər Krallığının Baş nazirinin müavini, xarici işlər naziri Ayman Əl-Səfadi arasında aparılan telefon danışığı məhz belə təmkinli, gələcəyə hesablanmış, mütərəqqi addımların sırasına daxildir. Telefon danışığı zamanı Yaxın Şərq regionunda mövcud hərbi-siyasi vəziyyət, həmçinin artan gərginlik əsas müzakirə mövzusu olsa da, tərəflərin çıxış etdiyi prizma müstəsna olaraq pozitiv inkişaf ssenarilərini hədəfləyib. Rəsmi müzakirələrdə ifadə olunan xüsusi yanaşma tamamilə aydın mənzərə yaradır. Bəli, Bakının prioritetləri dəyişməzdir.**

Azərbaycan ilə İordaniya arasında diplomatik münasibətlər 1993-cü ildə qurulub və ötən müddət ərzində qarşılıqlı etimada söykənən siyasi dialoq formalaşıb. Bu münasibətlər yalnız formal diplomatik çərçivə ilə məhdudlaşmır, eyni zamanda, parlamentlərarası əlaqələr, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək, humanitar və mədəni mübadilələrlə zənginləşir. Hər iki dövlət beynəlxalq hüququn norma və prinsiplərinə hörmət, suverenlik və ərazi bütövlüyünün toxunulmazlığı kimi fundamental dəyərləri ardıcıl şəkildə müdafiə edir.

Regionda baş verən xoşagəlməz hadisələrin qarşısının alınması üçün diplomatik rıçaqların işə salınması müasir dövrün tələbidir. Xarici işlər nazirləri qeyd olunan təmas əsnasında regional təhlükəsizlik mühitinin daha da pisləşməsinin qətiyyən yolverilməz olduğunu xüsusi vurğulayaraq, fikir ayrılıqlarının məhz beynəlxalq hüququn norma, prinsiplərinə tam uyğun şəkildə aradan qaldırılmasının mütləq vacibliyini bəyan ediblər.

Yaxın Şərq bölgəsi coğrafi baxımdan olduqca həssas zonadır. Oradakı hərbi-siyasi iqlimin sabitliyi bütün sivilizasiyanın tərəqqisi naminə vacib şərtlərdən sayılır. Azərbaycan diplomatiyası hadisələrə sülh məfkurəsindən yanaşaraq fəlakətlərin, kataklizmlərin müzakirəsindən dərhal kənarlaşmağı, diqqəti qarşılıqlı anlaşmanın, dərin tərəfdaşlığın inkişafına yönəltməyi təşviq edir. Zorakılıq, gərginliyin artırılması, radikal qarşıdurmaların genişləndirilməsi indiyə qədər cəmiyyətlərə fayda verməyib, heç vaxt da verməyəcək. Bəşəriyyətin qarşısında duran əsas vəzifə qan



tökülməsinin, insanların əziyyət çəkməsinin qarşısını əvvəlcədən almaq, region xalqlarına dinc yaşayış mühiti bəxş etməkdir.

Müasir siyasətin aliliyini şərtləndirən başlıca məqam sırf insan amilidir. İki diplomat mülki əhalinin təhlükəsizliyinin təmin olunmasının, humanitar vəziyyətin ağırlaşmasının qarşısının alınmasının prioritet əhəmiyyət daşıdığını xüsusi bildirərək, sabitliyin, təhlükəsizliyin bərqərar olunması istiqamətində beynəlxalq səylərin gücləndirilməsinin zəruriliyini dünya ictimaiyyətinin diqqətinə çatdırıblar. Rəsmi Bakının xarici siyasət doktrinası regionlarda təmiz sülhün mütləq hökmranlığını dəstəkləməkdir. Gərginləşdirici ritorika yerini müştərək əməkdaşlıq fəlsəfəsinə, inkişaf layihələrinə təhvil verməlidir. Diplomatik kanallardan yayılan mütərəqqi ismarışlar hər zaman sabitliyin fəal zamini rolunda çıxış edərək, işıqlı gələcəyə yönəlmiş pozitiv inkişaf dinamikasını əks etdirir. Müxtəlif dövlətlərlə konstruktiv müzakirələrin mütəmadi aparılması beynəlxalq münasibətlər sisteminin ən sağlam, ən təmiz elementidir. İordaniya ilə qurulan müntəzəm siyasi kommunikasiya mütərəqqi xəttin məntiqi davamıdır. Ölkələr arasındakı qardaşlıq, yüksək səviyyəli qarşılıqlı hörmət münasibətləri qlobal arenada vahid cəbhənin formalaşmasına nəhəng təkan verir. Dövlətlərin qarşılıqlı fəaliyyəti, ortaq maraqların tərənnümü, beynəlxalq institutlar çərçivəsində müştərək addımların fəal atılması Yaxın Şərqdəki təlatümlərin səngiməsinə münbit zəmin yaradır.

Azərbaycan dövləti beynəlxalq arxitekturada güclü vasitəçi, etibarlı tərəfdaş, sözünə sadiq dost imici qazanıb. Dövlətlərin tam suverenliyinə, ərazi bütövlüyünə ehtiram nümayiş etdirmək amili strateji qlobal fəaliyyətin mühüm hissəsidir. Müstəqil xarici siyasət reallıqları tərəfdaşlarla həmişə ortaq məxrəcin fəal tapılmasına, təhlükəsizlik mühitinin durmadan genişləndirilməsinə xidmət edir. İordaniya ilə həyata keçirilən təmaslar sarsılmaz möhkəm məntiqin nümayişidir. Hər iki sülhpərvər ölkə mədəni, mənəvi baxımdan oxşar bağlara malikdir. Yaxın Şərqin böyük tarixi irsini daxilində qoruyan İordaniya daim müdriklik, təmkin, sülhsevərlik nümunəsi sərgiləyib. Hər iki ölkənin vahid mövqedən çıxış etməsi təsadüf sayıla bilməz. Məhz həmin gedişat tamamilə planlı, hərtərəfli uzaqgörən ortaq fəaliyyətin əvəzsiz nəticəsidir.

İqlim dəyişmələri, mürəkkəb iqtisadi böhranlar, enerji təhlükəsizliyi qayğılarının dünyanı bürüdüyü mövcud mərhələdə diqqətin maliyyə resurslarının fəlakətlərə, dağıntılara yönəldilməsi bəşəriyyətin gələcəyini təhlükə ilə üz-üzə qoymaq mənasına gəlir. Rəsmi Əmman bölgədə baş qaldıran hər hansı təlatüm zamanı dərhal sülh kanallarını aktivləşdirərək qlobal əmin-amanlığa qiymətli töhfələr bəxş edir. Müvafiq qaydada Azərbaycan dövləti Cənubi Qafqaz mühitində qlobal miqyaslı təhlükəsizlik layihələrinin müəllifi statusunda həmin ortaq sülhpərvər xətti şərəflə davam etdirir. Regionların coğrafi məsafəsinə rəğmən, mütərəqqi prinsiplər, vahid hədəflər süni sərhədləri aşaraq möhtəşəm bəşəri vəhdət yaradır.

*

İqtisadi rifahın yüksəlməsi ictimai-siyasi sabitliyin ən böyük qarantıdır. Ölkələrarası geniş ticari-iqtisadi mexanizmlərin inkişafı region xalqlarının yaşayış səviyyəsini xeyli dərəcədə yüksəldir. Böhran zonalarından uzaqlaşaraq təmiz yatırımların, tərəqqi layihələrinin müzakirə masasına qoyulması insanlığa ümid, sevinc verir. İordaniya rəhbərliyi, habelə Azərbaycan diplomatiyası gələcəyin fərqli arxitekturasında məhz müasir təhsilin, elmin, lazımlı innovasiyaların, təhlükəsiz ticari koridorların hakim olmasını dərindən arzulayır. Mülkiyyətin toxunulmazlığı, beynəlxalq tranzit xətlərinin qüsursuz mühafizəsi, sərbəst ticarət əlaqələrinin dərinləşdirilməsi sülhün bariz təzahürləridir.

Hər iki dövlət xadiminin müdrikliklə ifadə etdiyi prinsiplər, ölkələrin strateji baxışlarının və gələcək inkişaf prioritetlərinin bir-biri ilə səsləşdiyini aydın şəkildə nümayiş etdirir. Azərbaycan, eyni zamanda, İordaniya ali rəhbərliklərinin humanitar təhlükəsizlik uğrunda, mülki insanların rahatlığı yolunda yorulmaz peşəkar fəaliyyəti dünya siyasətinin mənəvi xilasıdır. Hər cür maneələri fədakarcasına tam dəf edən tərəfdaşlıq mexanizmləri planetimizdə mütləq daimi xarakter daşıyır. Ortaq təşəbbüslər və mütərəqqi strateji planlar xalqlarımızın dinc, təhlükəsiz və etibarlı əməkdaşlıq mühitində gələcəyə inamla irəliləməsini təmin edən əsas dayaqlardır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Regionun enerji paytaxtı

## Bakı yeni geosiyasi mərhələnin mərkəzində



**Bakı Konqres Mərkəzində keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası geniş geosiyasi və geoiqtisadi məzmun daşıyan strateji hadisədir. Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi toplantıya 27 ölkə, 11 beynəlxalq maliyyə institutu və 49 enerji şirkətinin qatılması Bakının qlobal enerji diplomatiyası platformasına çevrildiyini göstərir.**

Cənub Qaz Dəhlizi Avropanın geosiyasi təhlükəsizlik arxitekturasının tərkib hissəsinə çevrilib. Onun mahiyyəti enerji mənbələrinin və marşrutların şaxələndirilməsi vasitəsilə strateji asılılıqların azaldılmasından ibarətdir. Son illər Avropanın enerji bazarlarında baş verən qiymət şokları, təchizat riskləri və siyasi gərginliklər göstərdi ki, enerji təhlükəsizliyi milli təhlükəsizlik məsələsidir. Məhz bu reallıq fonunda Azərbaycan qazı alternativ və etibarlı mənbə kimi ön plana çıxdı. Avropa İttifaqının (Aİ) enerji siyasətində son dövrlər qəbul etdiyi qərarlar və Azərbaycanla imzalanmış strateji sənədlər göstərir ki, Bakı Avropanın enerji xəritəsində struktur əhəmiyyətli tərəfdaşdır.

Prezident İlham Əliyevin Məşvərət Şurasındakı çıxışında ABŞ ilə imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasına xüsusi yer ayırması iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Əgər əvvəlki dövrlərdə əməkdaşlığın əsas lokomotivi enerji sektoru idisə, hazırkı mərhələdə tərəfdaşlıq daha geniş – texnoloji, nəqliyyat-logistika, rəqəmsal transformasiya və təhlükəsizlik komponentlərini əhatə edən kompleks çərçivəyə malikdir. Süni intellekt, enerji və bağlılıq kimi istiqamətlərin bir sənəddə birləşdirilməsi müasir geosiyasətin prioritetlərini əks etdirir.

ABŞ ilə strateji tərəfdaşlıq, ilk növbədə, siyasi çəkidə artım deməkdir. Qlobal güc mərkəzi ilə institusional səviyyədə təsbit olunmuş əməkdaşlıq Azərbaycanın beynəlxalq manevr imkanlarını genişləndirir. ABŞ şirkətlərinin və maliyyə institutlarının iştirakı layihələrin risk profilini aşağı salır və onların uzunmüddətli dayanıqlığını artırır.

Eyni zamanda, bu tərəfdaşlıq təhlükəsizlik aspektinə də malikdir. Enerji infrastrukturu, rəqəmsal sistemlər və nəqliyyat marşrutları müasir dövrdə hibrid təhdidlərə açıq sahələrdir. Qeyd edilməlidir ki, ABŞ ilə əməkdaşlıq bu sahələrdə standartların yüksəldilməsi və texnoloji qoruma mexanizmlərinin gücləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycan bu prosesi balanslaşdırılmış xarici siyasət kursu çərçivəsində aparır. ABŞ ilə strateji əməkdaşlığın dərinləşdirilməsi digər tərəfdaşlarla münasibətlərin zəiflədilməsi anlamına gəlmir. Azərbaycan müxtəlif güc mərkəzləri ilə qarşılıqlı maraqlar əsasında əməkdaşlıq quraraq öz suveren qərarvermə imkanlarını qoruyur.

* * *

Dövlətimizin başçısının çıxışında işğaldan azad edilmiş ərazilərdə hidroelektrik stansiyalara yatırılan sərmayələrin xüsusi vurğulaması strateji məntiqə əsaslanır. İqtisadi aspektdən yanaşdıqda, Qarabağ və Şərqi Zəngəzur zəngin su və alternativ enerji potensialına malikdir. Kiçik və orta güclü hidroelektrik stansiyaların qurulması regionun enerji təminatını yerli mənbələr hesabına formalaşdırmağa imkan verir. Bütün bunlar isə iki strateji nəticə yaradır: birincisi, daxili enerji balansında optimallaşma; ikincisi isə ölkə üzrə ümumi ixrac imkanlarının genişlənməsi. Başqa sözlə, azad edilmiş ərazilərdə istehsal olunan "yaşıl enerji" digər bölgələrdə qaz sərfiyyatını azaldaraq ixraca əlavə resurs yaradır.

Digər tərəfdən, siyasi aspekt daha dərin məzmun daşıyır. Enerji infrastrukturu dövlət suverenliyinin praktik alətidir. Elektrik şəbəkələrinin qurulması, istehsal və paylama sistemlərinin mərkəzi idarəetməyə inteqrasiyası ərazilərdə real və davamlı dövlət mövcudluğunu möhkəmləndirir. İnfrastruktur qurulması, faktiki olaraq, siyasi nəzarətin institusional əsasını formalaşdırır. Eyni zamanda, yaşıl enerji layihələri beynəlxalq investorlar üçün mühüm siqnaldır. Postmünaqişə zonasında risklərin minimuma endirilməsi, müasir standartlara uyğun layihələrin icrası və beynəlxalq tərəfdaşların cəlb olunması göstərir ki, Azərbaycan bu əraziləri uzunmüddətli iqtisadi dövriyyəyə daxil etmək niyyətindədir. İnvestor üçün əsas meyar, təbii ki, proqnozlaşdırıla bilənlik və institusional sabitlikdir.

Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatlarının uzun illər üçün kifayət etməsinə baxmayaraq, milyardlarla dolların "yaşıl enerji"yə yatırılması strateji uzaqgörənliyin göstəricisidir. Gələcəkdə Avropa bazarında "yaşıl enerji" və "yaşıl hidrogen" tələbatının artacağı nəzərə alınarsa, indidən yaradılan infrastruktur Azərbaycanın rəqabət qabiliyyətini qoruyacaq. Digər mühüm aspekt daxili istehlakın optimallaşdırılmasıdır. Əgər ölkə daxilində elektrik enerjisinin istehsalında bərpaolunan mənbələrin payı artırsa, təbii qazın böyük hissəsi ixraca yönəldilə bilər.

Qlobal iqlim gündəliyinə konstruktiv inteqrasiya məsələsi də diqqətəlayiqdir. Azərbaycan beynəlxalq iqlim mexanizmlərində iştirak etməklə və konkret layihələr reallaşdırmaqla məsuliyyətli enerji istehsalçısı imicini möhkəmləndirir.

Prezidentin Xəzər dənizinin səviyyəsinin azalmasına diqqət çəkməsi enerji siyasətinin ekoloji reallıqlarla uzlaşdırıldığını göstərir. İqlim dəyişiklikləri konkret regional təsirlərlə müşahidə olunan prosesdir. Həmçinin qeyd etməliyik ki, dəniz səviyyəsinin azalması liman infrastrukturuna, dəniz nəqliyyatına, xüsusilə Orta Dəhliz çərçivəsində artan yükdaşımalarına təsir göstərə bilər. Xəzər amili həm də regional əməkdaşlıq məsələsini gündəmə gətirir. Çünki dənizin səviyyəsinin dəyişməsi sahilyanı bütün dövlətləri əhatə edən ortaq çağırışdır.

Toplantı bir daha göstərdi ki, Azərbaycan enerji dialoqunun təşəbbüskarı, gündəmi formalaşdıran və müxtəlif maraqları uzlaşdıran aktora çevrilib. Əgər əvvəlki mərhələdə Azərbaycan enerji xəritəsində mühüm tranzit və təchizat ölkəsi kimi tanınırdısa, hazırkı mərhələdə enerji diplomatiyasının institusional platformasını yaradan mərkəz funksiyasını icra edir.

Ümumilikdə, Bakı platformasının strateji əhəmiyyəti bir neçə ölçüdə qiymətləndirilməlidir. Birincisi, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun möhkəmlənməsi məsələsidir. Avropa üçün etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş statusu siyasi sabitlik və öhdəliklərin icrası ilə ölçülür. Məhz bu kontekstdə Bakı platforması qarşılıqlı etimadın institusional təminatına çevrilir.

İkincisi, ABŞ və digər Qərb institutları ilə strateji əməkdaşlığın dərinləşməsi faktorudur. Enerji sahəsində dialoq artıq maliyyə institutlarını, texnoloji şirkətləri və beynəlxalq təşkilatları bir masa ətrafında toplayır. Bunlar isə Azərbaycanın enerji layihələrini qlobal iqtisadi sistemə daha sıx inteqrasiya edir və riskləri bölüşdürülmüş beynəlxalq mexanizmlərlə balanslaşdırır.

Üçüncüsü, yaşıl enerji və dayanıqlı inkişaf modelinə keçidin institusional əsaslarının formalaşmasıdır. Enerji transformasiyası normativ baza, maliyyə alətləri və texnoloji platformalar tələb edir. Bakı bu müzakirələr üçün platforma rolunu oynamaqla gələcək enerji arxitekturasının formalaşmasında iştirakını təmin edir.

Son olaraq qeyd edək ki, Bakı geniş Avrasiya məkanında enerji-strateji qovşaq kimi çıxış etmək iddiasını praktik addımlarla əsaslandırır. Enerji diplomatiyası Azərbaycanın xarici siyasətinin əsas dayaqlarından biridir və rəsmi Bakı bu reallığı ardıcıl şəkildə institusionallaşdırır.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Gerçəklik və xəyallar arasında

## Edmon Marukyan İranın vurulması fonunda siyasi oyunbazlığa qurşanıb

**"İşıqlı Ermənistan" partiyasının lideri Edmon Marukyan regionda baş verən proseslər və bunun Ermənistana mümkün təsirləri, habelə yaratdığı təhdidlərlə bağlı fikirlərini bölüşüb. O bildirib ki, bölgədə gərgin vəziyyət mövcuddur: qonşu İran müharibə vəziyyətindədir: "ABŞ və İsrailin hədəfləri sırasında İranda rejim dəyişikliyi də var, yəni ölkənin bütün siyasi elitasına sui-qəsd cəhdi olub. Əli Xamenei və digər yüksək vəzifəli şəxslər öldürülüb".**

Marukyan deyib ki, dünyada suveren dövlətlərin rəhbərlərinin hədəfə çevrildiyi təhlükəli presedentlər yaranır: "Venesuela Prezidentinin oğurlanması, həbs edilməsi və Nyu-Yorkda mühakimə olunması kimi hallar baş verir. Hazırda İranda yeni ali rəhbər seçiləcək və çox güman ki, o da yenidən hədəfə çevriləcək. Donald Trampın bəyanatlarına əsasən ehtimal etmək olar ki, yaxın günlərdə İranda rejim dəyişikliyinə və regiondakı vəziyyətin sabitləşdirilməsinə cəhd göstəriləcək. Əgər müharibə davam edərsə, ticarət, biznes, neft və qaz bazarlarında son dərəcə ağır vəziyyət yarana bilər".

Partiya lideri daha sonra diqqəti ölkəsinə yönəldib: "Bəs Ermənistanda nə baş verir? Cümə günü (fevralın 27-də) Nikol Paşinyan Təhlükəsizlik Şurasının iclasını çağırdı. Əslində, region ölkələrinin hamısı zərbələr barədə məlumatlandırılmışlar. Ermənistan Respublikası da məlumatlandırılmış ola bilər və bunun ardınca Təhlükəsizlik Şurasının iclası keçirildi. Orada nələrin müzakirə edildiyi bizə məlum deyil. Martın 1-də yenidən Təhlükəsizlik Şurasının iclası çağırılıb və regiondakı gərgin vəziyyət bir daha müzakirə olunub. Ermənistan indiyədək İranın bütün rəhbərliyi ilə dostluq münasibətlərini qoruyub saxlayıb. Bir neçə gün əvvəl müdafiə nazirimiz fevralın 28-də səhər öldürülən və müharibənin gedişi zamanı həlak edilən digər şəxslərlə görüşlər keçirmişdi. Burada çox mühüm sual yaranır: Ermənistan hakimiyyəti nə etməlidir? Ali liderin vəfatı ilə bağlı başsağlığı verməlidirmi, yoxsa yox? İranın İrəvandakı səfirliyində başsağlığı kitabı açılacaq. Hamı həmin kitaba başsağlığı yazmalıdırmı, yoxsa yox? Nə baş verəcək? Bütün bu məsələlər, təbii ki, Ermənistan hakimiyyətinin masası üzərindədir. Çünki hakimiyyət dəyişməzsə və mövcud quruluş qalarsa, Ermənistan bu hakimiyyətlə münasibətləri davam etdirməli olacaq. Lakin əgər daxildən hakimiyyət dəyişikliyi baş verərsə və 92 milyonluq ölkədə yeni rejim qurularsa, kim zəmanət verə bilər ki, bu dövlət indiki formada qalacaq? Ölkənin hissələrə parçalanması baş verə bilərmi? Azərbaycan bu imkandan istifadə edərmi? Nə baş verəcək? Bunlar qonşu ölkəyə hücum zamanı "pirojki" yeməklə yanaşı, məşğul olunmalı vacib çağırışlardır. Bizim hakimiyyətin adekvat davranacağına ümid varmı? Mən onları şəxsən tanıyıram və hesab edirəm ki, yoxdur".

E.Marukyan qeyd edib ki, bu baxımdan bütün bu çağırışlar qarşımızdadır və onlarla ciddi məşğul olmaq lazımdır: "Bütün dövlət qurumlarımız, təhlükəsizlik orqanlarımız öz yerlərində çox möhkəm şəkildə dayanmalı və baş verən proseslər diqqətlə izlənilməlidir. Bütün mümkün ssenarilər Baş nazirin masasının üzərində olmalı, hər bir varianta uyğun fəaliyyət planı hazırlanmalıdır".

* * *

Qeyd edək ki, E.Marukyan Ermənistan Milli Assambleyasının beşinci, altıncı və yeddinci çağırış deputatı, yeddinci çağırış parlamentdə "Maarifləndirilmiş Ermənistan" fraksiyasının rəhbəri olub. O qanunverici orqana 2021-ci il iyunun 20-də keçirilən seçkilərdə mandat qazana bilməyib. Bundan sonra – 2022-ci ilin martında Baş nazir Nikol Paşinyan onu Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri təyin etmişdi. Həmin müddət ərzində Marukyan Azərbaycanla sülh sazişi üzərində işləyən əsas şəxslərdən biri idi. Ancaq o, 2024-cü il fevralın 29-da N.Paşinyanla fikir ayrılıqlarına görə vəzifəsindən istefa verdiyini açıqlamışdı. O, "Facebook" səhifəsində "Son vaxtlar bir sıra fundamental xarici siyasət məsələləri üzrə baxışlarımızdakı fərqlər mənim xarici siyasət cəbhəsində fəaliyyətimi davam etdirməyimi mümkünsüz edir", – yazaraq istefa verdiyini açıqlamışdı. Hamıya məlumdur ki, sonradan sülh sazişinin hazırlanması istiqamətində ciddi irəliləyiş əldə edildi və sənəd 2025-ci il avqustun 8-də Vaşinqtonda paraflandı. Bunu xatırlatmaqda məqsədimiz odur ki, E.Marukyan Azərbaycana qarşı radikal revanşist baxışları ilə seçilən şəxsdir. Belə şəxslər sülhə yaxınlaşmaq yolunda hər zaman ciddi manеə olublar.

Onun son açıqlamaları da ilk baxışda regional təhlükəsizliklə bağlı narahatlıq təsiri bağışlasa da, mahiyyət etibarilə emosionaldır və faktoloji baxımından



mübahisəli tezislər üzərində qurulub. Marukyan İranda baş verən prosesləri Ermənistan üçün böyük təhdid, risk kimi təqdim edir, eyni zamanda, Azərbaycanın "mümkün davranışları" barədə əsassız ehtimallar irəli sürür. Bu yanaşma reallıqdan çox daxildə revanşistlərin dəstəyini qazanmaq istəyinə xidmət edir. İlk növbədə, Marukyanın Azərbaycanın amilini potensial təhlükə kimi qabartması onun ölkəmizə mənfi münasibətindən irəli gəlir. Halbuki, ona yaxşı məlumdur ki, rəsmi Bakı hər zaman regionda sabitliyin və beynəlxalq hüquqa əsaslanan münasibətlərin tərəfdarı kimi çıxış edib. Azərbaycan heç zaman İrana qarşı yönəlmiş hər hansı ssenaridə rol almayıb. Rəsmi Bakı öz ərazisinin üçüncü tərəflər tərəfindən İran əleyhinə istifadə olunmasına imkan verməyəcəyini dəfələrlə bəyan edib. Bu mövqe həm ikitərəfli təmaslarda, həm də beynəlxalq platformalarda açıq şəkildə ifadə olunub. Bakı–Tehran münasibətlərində zaman-zaman fikir ayrılıqları yaransa da, Azərbaycan qarşılıqlı hörmət və suverenliyə riayət prinsipini əsas götürdüyünü bildirib. Ölkəmiz üçün prioritet regionda sabitliyin qorunması və qonşu dövlətlərlə münasibətlərin qarşıdurma müstəvisinə keçməməsidir. Bu baxımdan, Azərbaycanın hansısa anti-İran planında yer alacağı iddiaları siyasi spekulyasiyadan başqa bir məna daşımır.

Digər tərəfdən, İranın daxili taleyi ilə bağlı ssenariləri şişirdərək bölgədə xaos təsviri yaratmaq da doğru yanaşma deyil. 92 milyonluq ölkənin dərhal parçalanacağı və bunun region dövlətləri tərəfindən fürsət kimi qiymətləndiriləcəyi iddiası daha çox qorxu ritorikasına əsaslanır. Region dövlətləri, o cümlədən Azərbaycan, sərhədlərin toxunulmazlığı prinsipini dəfələrlə vurğulayıb. Belə bir fonda Bakının hansısa addıma gedəcəyini iddia etmək siyasi reallığa qətiyyən uzlaşmır.

Marukyanın çıxışında diqqətçəkən başqa məqam Ermənistan hakimiyyətini qeyri-adekvatlıqda ittiham etməsidir. O, şəxsi münasibətlərə istinad edərək mövcud iqtidarın vəziyyəti düzgün idarə edə bilməyəcəyini bildirib. Lakin regional böhranlar fərdi simpatiya və antipatiya ilə deyil, dövlət maraqları və rasional hesablamalarla idarə olunur. Təhlükəsizlik Şurasının iclaslarının keçirilməsi isə əksinə, hökumətin prosesləri nəzarətdə saxlamağa çalışdığını göstərir.

Ən narahatedici məqam isə Azərbaycanın adının etimal olunan destabilizasiya kontekstində hallandırılmasıdır. Bu, Ermənistan cəmiyyətində kök salmış təhlükə sindromunu yenidən qızışdırmağa xidmət edir. Nəticə etibarilə, keçmiş diplomatın bəyanatı daha çox daxili auditoriyaya hesablanmış siyasi çıxış təsiri bağışlayır. O, regional prosesləri dramatik çalarlarla təqdim edir və Azərbaycanla bağlı ehtimalları əsaslandırmadan gündəmə gətirir. Halbuki Cənubi Qafqazda uzunmüddətli sabitlik yalnız əməkdaşlıq və qarşılıqlı etimad mühitində mümkündür. Ermənistanın maraqları da qonşularla qarşıdurma ssenarilərini düşünməkdə deyil, iqtisadi inteqrasiya və nəqliyyat əlaqələrinin bərpasındadır. Bu həqiqəti görməmək nə Ermənistanın təhlükəsizliyinə, nə də regionun gələcəyinə xidmət edir.

*Səxavət HƏMİD*
*XQ*

# MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurası Azərbaycanla əməkdaşlığa böyük önəm verir

**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev MDB Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Jdanovu qəbul edib.**



Görüşdə Baş prokuror MDB məkanında prokurorluq orqanları arasında əməkdaşlığın əlaqələndirilməsində Şuranın mühüm rol oynadığını vurğulayaraq, qurumun fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib. Səmimi qəbula görə təşəkkürünü bildirən Yuri Jdanov Azərbaycan ilə hüquqi əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiklərini vurğulayıb.

Görüş zamanı cari ilin sentyabr ayında Kazan şəhərində keçiriləcək MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 36-cı iclasına hazırlıq məsələləri, həmçinin cari ilin mart ayında Sankt-Peterburq şəhərində təşkil olunacaq görüşlə bağlı fikir mübadiləsi aparılıb. Yuri Jdanov Azərbaycan tərəfini sözügedən tədbirlərdə iştirak etməyə dəvət edib.

*XQ*

# Cənub Qaz Dəhlizi və Yaşıl Enerji məşvərət şuraları çərçivəsində nazirlərin iclasları

**Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərin 4-cü iclası “Nazirlər sessiyası”, “Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizində davamlı uğur və yeni inkişaf mərhələsi” və “Yaşıl enerji layihələri” üzrə 3 plenar sessiya ilə davam edib.**



“Nazirlər sessiyası”nda çıxış edən energetika naziri Pərviz Şahbazov bildirib ki, dünya sürətlə süni intellektin, data mərkəzlərinin və rəqəmsallaşma ilə şərtlənən “elektrik əsri”nə qədəm qoyur və artan enerji tələbatının etibarlı qarşılanmasında təbii qaz strateji rol oynayır. O, qazın onilliklər ərzində enerji təhlükəsizliyinin əsas sütunlarından biri olaraq qalacağını və vaxtında investisiyaların vacibliyini vurğulayıb. Azərbaycandan Avropaya təbii qaz tədarükünün 2021-ci illə müqayisədə 56 faiz, Trans-Adriatik Boru Kəmərinin ötürmə gücünün isə 1,2 milyard kubmetr artırılması, eləcə də qaz təchizatı şəbəkəsinin Cənub-Şərqi Avropadan Yaxın Şərq və Mərkəzi Avropaya qədər genişləndirilməsi müsbət məqamlar kimi qeyd olunub. Ötən il 25,2 milyard kubmetr qaz ixracının strukturunda Avropanın payının təxminən 51 faiz, Türkiyə, Gürcüstan və Suriyanın ümumilikdə payının isə 49 faiz təşkil etdiyi diqqətə çatdırılıb.

“Azərbaycan Avropa üçün etibarlı təchizatçıdır və qazımıza tələbat yüksək olaraq qalır. Lakin genişlənmə üçün tələbat tərəfdən institusional və maliyyə dəstəyi hələ də kifayət deyil. Hazırda dörd upstream layihəsinin 2026-2029-cu illərdə istismara verilməsi üzərində işləyirik. Bu il “Azəri-Çıraq-Günəşli”də sərbəst qazın işlənməsi layihəsi çərçivəsində ilk qazın hasilatını gözləyirik. Həmçinin quruda və dənizdə daha dörd kəşfiyyat layihəsi həyata keçirilir. Bütün bunlar, eləcə də BƏƏ-nin ADNOC (XRG) şirkətinin Cənub Qaz Dəhlizində səhmdara çevrilməsi kimi müsbət irəliləyişlərə baxmayaraq, Avropaya tədarük artımının əhəmiyyətli şəkildə təmin edilməsi üçün konkret maliyyə mexanizmləri ilə dəstəklənən aydın və uzunmüddətli siyasət çərçivəsi tələb olunur”, - deyə nazir əlavə edib.

Nazir daxili istehlak, ixrac və data mərkəzlərinin enerji təminatı məqsədilə ümumilikdə 8 QVt həcmində bərpaolunan enerji güclərinin və “Xəzər-Qara dəniz-Avropa”, Naxçıvandan birbaşa və Ermənistan üzərindən keçməklə “Azərbaycan-Türkiyə-Avropa”, “Trans-Xəzər” və “Şərq-Qərb” yaşıl enerji dəhlizləri və interkonnektor layihələrinin yaradılması ilə bağlı hazırkı vəziyyəti də diqqətə çatdırıb. Bu regionlararası enerji bağlantıları və elektrik enerjisi vasitəsilə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha gücləndirəcəyi vurğulanıb.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili bu fikirləri səsləndirib: “Gürcüstan Cənub Qaz Dəhlizi çərçivəsində etibarlı tranzit ölkə rolunu oynayır, regional və Avropa bazarları üçün enerji təchizatının şaxələndirilməsinə və təhlükəsizliyinə töhfə verir. Davamlı regional əməkdaşlıq və gücləndirilmiş bağlantılar təhlükəsiz və dayanıqlı enerji gələcəyinin əsas dayağı olaraq qalır. Gürcüstan 2036-cı ilədək elektrik enerjisi istehsalında özünü tam təmin etməyi hədəfləyir. Bu məqsədə bərpaolunan enerji və ötürücü infrastruktur sahələrinə, o cümlədən yeni sərhədlərarası bağlantıların inkişafına yönəldilmiş əhəmiyyətli investisiyalar hesabına nail olacaq”.

Bolqarıstanın energetika naziri Trayço Traykov bildirib: “Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektoru”nun istismarına verilməsi ilə Bolqarıstan faktiki olaraq “Cənub Qaz Dəhlizi”nin strateji infrastrukturunun ayrılmaz hissəsinə çevrilib. Bu dəhliz Avropa ölkələri üçün enerji təhlükəsizliyinin gücləndirilməsi, eləcə də mənbələrin və marşrutların şaxələndirilməsi baxımından mühüm rolunu artıq sübut edib. Bolqarıstan qaz infrastrukturunun inkişafı istiqamətində ardıcıl siyasət həyata keçirir. Bu xüsusda, Cənub Qaz Dəhlizi çərçivəsində tərəfdaşlığın daha da gücləndirilməsinə sadiqliyimizi bir daha təsdiqləyir. Enerji sektorunda mövcud çağırışlar Cənub Qaz Dəhlizi çərçivəsində formalaşmış etibarlı tərəfdaşlıqlar kimi möhkəm əməkdaşlıq mexanizmlərini tələb edir və bu əməkdaşlıq artıq yaşıl enerji dəhlizləri və zonaları təşəbbüslərinə də şamil olunmaqdadır. Bolqarıstan “Yaşıl Enerji Dəhlizi” layihəsini ilk vaxtdan dəstəkləyən ölkədir”.

Moldovanın energetika naziri Dorin Junqetu isə deyib: “Moldovanın strateji prioriteti qaz bazarının Avropa enerji infrastrukturuna ardıcıl inteqrasiyasının təmin edilməsidir. Bu yanaşma rəqabətədavamlı transsərhəd tədarükü və Xəzər regionundan tədarük olunan həcmlər də daxil olmaqla çoxsaylı təchizatçılara çıxışı təmin edəcək”.

ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Keyleb Or onlayn çıxışında bu fikirləri səsləndirib: “Cənub Qaz Dəhlizi bölgədəki uğurlu tərəfdaşlığımızın mərkəzində dayanır və enerji təhlükəsizliyinin milli təhlükəsizliklə sıx bağlı olduğuna dair ortaq mövqeyimizi əks etdirir. ABŞ Cənub Qaz Dəhlizini yaradıldığı ilk gündən dəstəkləyir və dəhlizin Qafqaz regionunu Avropa ilə birbaşa birləşdirmək baxımından strateji əhəmiyyətini yüksək qiymətləndirir. Biz “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun və daha geniş “Trans-Xəzər” marşrutunun tam potensialını reallaşdırmaq, regional iqtisadi inteqrasiyanı gücləndirmək, eləcə də enerji, strateji minerallar və digər məhsullar üçün ticarət yollarını genişləndirmək sahəsində birgə əməkdaşlıq üçün böyük imkanlar görürük”.

Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Con Alderdays isə onlayn çıxışında deyib: “Azərbaycan regional və Avropanın enerji təhlükəsizliyinin təminatçısı kimi öz rolunu yüksək peşəkarlıqla yerinə yetirir. Artıq otuz ildən çoxdur ki, Birləşmiş Krallıq ilə Azərbaycan arasında münasibətlərin təməlini enerji sahəsində əməkdaşlıq təşkil edir. Birləşmiş Krallıq yaşıl enerji dəhlizləri və təmiz enerji layihələri üzrə əməkdaşlıqda böyük potensial görür. Bu təşəbbüslər yalnız Azərbaycana deyil, həm də daha geniş regiona və Avropa bazarlarına mühüm töhfə verəcək”.

Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Zəfər Dəmircan çıxışında bunları qeyd edib: “Cənub Qaz Dəhlizinin uzunmüddətli enerji təchizatı təhlükəsizliyinin təmin edilməsində oynadığı strateji rol barədə ümumi ortaq anlayış mövcuddur. Bu qiymətli konsepsiya indi Qafqaz və Mərkəzi Asiya ölkələrini Avropa ilə birləşdirən “Yaşıl Enerji Dəhlizi” istiqamətində inkişaf etməkdədir. Türkiyə yalnız təbii qazın nəqli üçün deyil, həm də elektrik enerjisinin ötürülməsi üçün ən əlverişli marşrutdur. Əməkdaşlıq və tərəfdaşlıq enerji təchizatının təhlükəsizliyini gücləndirmək və xalqlarımızın rifahını, həmçinin sosial-iqtisadi inkişafını artırmaq üçün istifadə edə biləcəyimiz yeganə və effektiv alətlərdir”.

Qazaxıstanın energetika nazirinin müavini Sanjar Jarkeşov isə bildirib: “Qazaxıstan enerji sahəsində Azərbaycan ilə strateji tərəfdaşlığı yüksək qiymətləndirir və bu əməkdaşlıqda keyfiyyətcə yeni səviyyəyə yüksəltmək üçün böyük potensial görürük. Xüsusilə Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında yaşıl enerjinin istehsalı və ötürülməsi üzrə genişmiqyaslı layihə ilə bağlı əldə olunmuş razılaşmaları qeyd etmək istərdim. Dövlətlərimizin başçıları tərəfindən imzalanmış saziş yalnız milli enerji sistemlərinin dayanıqlığını gücləndirmir, eyni zamanda, yaşıl investisiyaların cəlb edilməsi vasitəsilə emissiyaların azaldılması üzrə ekoloji hədəflərimizin həyata keçirilməsinə birbaşa töhfə verir. Birgə səylər və yeni marşrutların yaradılması sayəsində biz regionun enerji müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün təməl formalaşdırırıq”.

Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyinin təhlükəsizlik siyasəti və enerji təhlükəsizliyi üzrə dövlət katibi Peter Sztaray qeyd edib ki, Macarıstan hökumətinin əsas məqsədi idxal mənbələri və marşrutlarının şaxələndirilməsini tələb edən sabit, rasional və iqlim baxımından neytral enerji təchizatını təmin etməkdir: “Macarıstan Cənub Qaz Dəhlizi layihəsinin ötürmə gücünün artırılmasını Avropanın təbii qaz təchizatı marşrutlarının şaxələndirilməsi baxımından əsas layihə hesab edir. Cənub Qaz Dəhlizi Məşvərət Şurasında iştirakımız Azərbaycanı enerji əməkdaşlığında strateji tərəfdaş kimi qəbul etdiyimizi göstərir və biz Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətinin artırılmasını fəal şəkildə dəstəkləyirik. “Yaşıl Enerji Dəhlizi” layihəsi isə təkcə regional deyil, həm də qlobal səviyyədə unikal təşəbbüsdür və regionlararası əməkdaşlıq sahəsində qabaqcıl nümunə olmaq potensialına malik olduğuna görə Avropa üçün əsas əhəmiyyət kəsb edir”.

Albaniyanın infrastruktur və energetika nazirinin müavini Erlind Sulo bildirib: “Albaniya TAP vasitəsilə təbii qaz tədarükünə çıxış imkanı qazanmaq baxımından əlverişli mövqedədir. Bu, ölkə daxilində enerji ehtiyaclarını təmin etməyə, elektrik enerjisindən tək enerji mənbəyi kimi asılılığı azaltmağa, həmçinin ev təsərrüfatları, biznes və sənaye üçün enerjini daha əlçatan və sərfəli etməyə imkan verir. Biz bu istiqamətdə iki paralel layihə üzrə işləmək qərarına gəlmişik. Birincisi, “Vlora” İstilik Elektrik Stansiyasının yenidən canlandırılması və onun TAP çıxış nöqtəsinə və LNG üzən terminalına birləşdirən boru kəməri ilə inteqrasiya olunmuş layihə kimi icra olunmasıdır. İkincisi, Albaniyanın əsas şəhərlərindən biri olan Korça şəhərinin qazlaşdırılmasıdır”.

Serbiyanın Mədənçilik və Energetika Nazirliyində neft və qaz üzrə nazir müavini vəzifəsini icra edən Saşa Kokoviç qeyd edib: “Serbiya ilə Bolqarıstan arasında qaz interkonnektorunun istifadəyə verilməsi ilə Serbiya ilk dəfə olaraq Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycanın qazı da daxil olmaqla digər mənbələrdən qaz tədarükü imkanına sahib olub. Cənub Qaz Dəhlizi sadəcə bir infrastruktur layihəsi deyil. O, Avropa üçün etibarlı tərəfdaşlıqlar və qarşılıqlı etimad əsasında formalaşan yeni enerji reallığını təmsil edir. Serbiyanın Azərbaycanla əməkdaşlığı xüsusi strateji əhəmiyyət daşıyır və əsasən prezidentlər Aleksandar Vuçiç və İlham Əliyev arasındakı dostluq münasibətlərinə əsaslanır. Bu günə qədər əldə edilmiş əməkdaşlıq nəticələri təbii qaz, bərpaolunan enerji mənbələri və yeni texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsini əhatə edən imzalanmış sazişlərlə təsdiqlənib. Fevralın 15-də Serbiyanın paytaxtı Belqrad şəhərində həmdövrəli buxar-qaz turbin tipli elektrik stansiyasının inkişafı, layihələndirilməsi, tikintisi və idarə olunması üzrə imzalanmış son saziş iki ölkə arasında enerji əməkdaşlığının dəqiq sübutu və əsasını təşkil edir”.

Yunanıstanın Ətraf Mühit və Energetika Nazirliyinin enerji və mineral resurslar üzrə Baş katibi Despina Paliaruta çıxışında deyib: “Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyi üçün strateji əhəmiyyətini nümayiş etdirməyə davam edir. Dərin geosiyasi sarsıntılarla səciyyələnən bir dövrdə bu dəhliz etibarlı şaxələndirmə marşrutu və daha geniş region üçün sabitləşdirici amil olduğunu sübut edib. Cənub Qaz Dəhlizi yalnız şaxələndirmə marşrutu kimi deyil, həm də dekarbonizasiya üçün potensial vasitə kimi qiymətləndirilməlidir”.

Ukraynanın energetika nazirinin birinci müavini Artem Nekrasov deyib: “Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəmərinin (TAP) ötürmə gücünün artırılması, eləcə də Xəzər regionunda yeni yataqların istismara verilməsi Avropaya qaz təchizatının əhəmiyyətli dərəcədə artırılması üçün zəmin yaradır. Bu sistem çərçivəsində Azərbaycan etibarlı resurs təchizatçısı kimi çıxış edir. Avropa İttifaqı əsas istehlakçı tərəfdaşdır və Ukrayna Avropada enerji axınlarının sabitliyini və çevikliyini təmin edən mühüm infrastruktur və logistika mərkəzi rolunu oynaya bilər. Təbii qaz sahəsində Avropa İttifaqı, Azərbaycan və Ukrayna arasında əməkdaşlıq potensial olaraq Avropada daha dayanıqlı və şaxələndirilmiş enerji arxitekturasının təmin edilməsinin əsas elementlərindən birinə çevrilə bilər”.

Xorvatiyanın İqtisadiyyat Nazirliyinin dövlət katibi Vedran Şpehar isə bildirib: “Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyi və təchizatın şaxələndirilməsi səylərində həlledici rolunu davam etdirir və bölgədə enerji sistemlərinin dayanıqlılığının gücləndirilməsinə əhəmiyyətli töhfə verir. Xorvatiya konstruktiv enerji tərəfdaşlıqlarına, o cümlədən Azərbaycanla əməkdaşlığına yüksək qiymət verir. Bu tərəfdaşlıqlar həm milli, həm də regional bazarlar üçün sabit və şaxələndirilmiş qaz təchizatının təmin olunmasına xidmət edir. Gələcəyə baxdıqda, Xorvatiya Cənub Qaz Dəhlizinin Avropanın dəyişən enerji mənzərəsində davam edən strateji əhəmiyyətini anlayır. Aşağı karbonlu gələcəyə keçid prosesi davam etdikcə təbii qaz enerji sistemlərinin təhlükəsiz, balanslı və sabit fəaliyyətinin təmin olunmasında həlledici rolunu qoruyacaqdır”.

Monteneqronun Energetika və Mədənçilik Nazirliyinin dövlət katibi Dino Tutuncic çıxışında bildirib: “Monteneqro hazırda inkişaf etmiş qaz infrastrukturu ilə təchiz olunmayıb. Yanaşmamız aydın və iki istiqamətlidir: qısa müddətdə - təchizatın təhlükəsizliyi və şaxələndirilməsi; uzun müddətdə - yaşıl hidrogenlə və Avropa İttifaqının iqlim siyasəti ilə uzlaşan müasir infrastrukturun yaradılması. Bu istiqamətdə prioritet layihə İon-Adriatik Boru Kəməri (IAP) layihəsidir. Monteneqro üçün IAP sadəcə qaz kəməri deyil. O, gələcək regional enerji dəhlizi və Avropa bazarına inteqrasiyanın açarıdır. Ən önəmlisi isə biz onu yaşıl hidrogenin daşınmasına tam uyğun şəkildə dizayn edirik”.

Avstriyanın İqtisadiyyat, Enerji və Turizm Federal Nazirliyinin Baş katibi Severin Qruber çıxışında deyib: “Son dövrün təcrübəsi göstərir ki, enerji sistemimizin dayanıqlılığının möhkəmləndirilməsi baxımından təchizatın şaxələndirilməsi xüsusi əhəmiyyətə malikdir. Biz Azərbaycanın etibarlı tərəfdaş kimi Avropa və Avstriya ilə əməkdaşlığını daha da gücləndirmək niyyətini alqışlayırıq. Avstriya vətəndaşlarının təhlükəsiz və münasib qiymətli enerji ilə təminatının dəstəklənməsi məqsədilə Azərbaycan ilə enerji sahəsində strateji tərəfdaşlığının daha da dərinləşdirilməsində maraqlıdır”.

İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançesko bildirib: “Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya qaz ixracını artırmaqda davam edir və bununla da region üzrə enerji təhlükəsizliyini gücləndirərək etibarlı və fasiləsiz enerji təchizatını təmin edir. Gələcəyə baxdıqda, təbii qaz enerji keçidinin dəstəklənməsində mühüm rol oynamaqda davam edəcək. Cənub Qaz Dəhlizi, xüsusilə də onun son seqmenti olan Trans-Adriatik Boru Kəməri gələcək illərdə ötürmə gücü artırılacaq strateji əhəmiyyətli infrastruktur layihəsidir. Bu kəmər Xəzər hövzəsi ilə Avropa bazarı arasında birbaşa bağlantı yaradaraq təhlükəsiz, çevik və şəffaf enerji axınlarını təmin edir”.

Sloveniyanın ölkəmizdəki səfiri Qorazd Rençeli isə bunları diqqətə çatdırıb: “Yaşıl enerji texnologiyalarına və müvafiq infrastrukturun inkişafına investisiya yatırmaqla biz təmiz enerji keçidini sürətləndirir, enerji təhlükəsizliyini gücləndirir və tərəfdaşlığımızı gələcəyə yönəlmiş, dayanıqlı çərçivə əsasında inkişaf etdiririk”.

Şimali Makedoniyanın Energetika, Mədənçilik və Mineral Resurslar Nazirliyində neft və qaz şöbəsinin rəhbəri Goran Nikolovski bunları bildirib: “Bu iclas bir daha nümayiş etdirir ki, sabit və şaxələndirilmiş enerji sisteminin formalaşdırılması regional əməkdaşlıq üçün zəruridir. Şimali Makedoniya üçün Cənub Qaz Dəhlizinə çıxış enerji təhlükəsizliyinin gücləndirilməsi və Avropa enerji arxitekturasına inteqrasiyanın dərinləşdirilməsi baxımından strateji imkan yaradır. Məqsədimiz aydındır - tərəfdaşlıq və bağlantıların genişləndirilməsi vasitəsilə daha təhlükəsiz və dayanıqlı enerji gələcəyi qururuq”.

“Cənub Qaz Dəhlizi sessiyası”nda isə SOCAR, bp, Azərbaycan Qaz Təchizatı Şirkəti, TANAP, TAP, ICGB, XRG, “TotalEnergies”, Asiya İnkişaf Bankı və “Boston Consulting Group” nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

“Yaşıl enerji layihələri” sessiyasında BOEMDA, “SOCAR Green”, “Masdar”, “ACWA Power”, bp, “Xlinks”, “Zhero”, CEER, IFC, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı və İƏT-in Təmiz Enerji Mərkəzinin (CECECO) nümayəndələrinin yaşıl enerji dəhlizləri və layihələri, yaşıl enerji interkonnektorları ilə bağlı təqdimatları dinlənilib.

***XQ***

# XİN başçılarının Yaxın Şərq müzakirələri




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Fransanın xarici işlər naziri Jan-Noel Baro arasında telefon danışığı baş tutub.**

Telefon danışığı zamanı tərəflər Yaxın Şərq regionunda mövcud gərgin təhlükəsizlik vəziyyətini və artan hərbi eskalasiyanı müzakirə ediblər.

Nazirlər bölgədə vəziyyətin daha da kəskinləşməsinin regional və beynəlxalq təhlükəsizlik üçün ciddi risklər yaratdığını qeyd edib, diplomatik səylərin və dialoqun bərpa olunmasının vacibliyini vurğulayıblar.

Fransa naziri yaranmış mürəkkəb şəraitdə Fransa vətəndaşlarının İran İslam Respublikasından təxliyəsi prosesində Azərbaycan tərəfindən göstərilən dəstəyə görə təşəkkür ifadə edib və bu istiqamətdə əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Tərəflər Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıblar. İki ölkə Prezidentinin Kopenhagen görüşü nəticəsində, qarşılıqlı maraq doğuran sahələrdə dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb.

***

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Latviya Respublikasının xarici işlər naziri Baiba Braje arasında telefon danışığı olub.**




Nazirlər arasında Yaxın Şərqdə mövcud hərbi eskalasiya və artan gərginlik müzakirə olunub. Vəziyyətin daha da kəskinləşməsinin geniş coğrafiyada təhlükəsizlik üçün risklər yaratdığı qeyd edilib. Münaqişələrin diplomatik vasitələrlə həllinin və dialoqun vacibliyi vurğulanıb.

Telefon danışığı zamanı Azərbaycan-Latviya ikitərəfli münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər siyasi dialoqun intensivləşdirilməsini, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi perspektivlərini məmnunluqla vurğulayıblar.

***

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar arasında telefon danışığı baş tutub.**




Nazirlər Yaxın Şərq regionunda müşahidə olunan hərbi eskalasiya və artan gərginliklə bağlı fikir mübadiləsi aparıblar.

Mövcud vəziyyətin regional və qlobal təhlükəsizliyə təsiri vurğulanaraq, humanitar hüquqa riayət edilməsinin, mülki əhalinin və obyektlərin qorunmasının, məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında, dialoq və diplomatik vasitələrlə həllinin vacibliyi qeyd edilib. Pakistan tərəfi, eyni zamanda, Pakistan-Əfqanıstan sərhədində baş vermiş toqquşmalarla bağlı mövcud vəziyyət barədə məlumat verib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan ilə Pakistan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyəti və gələcək inkişaf perspektivləri də müzakirə edilib.

***XQ***

# “Mütərəqqi Bolqarıstan” üçbucağı

## *Yeni siyasi ittifaq dövlətlərə nə vəd edir?*



**Cənub–Şərqi Avropada mühüm geostrateji mövqeyə malik olan Bolqarıstanda intensiv siyasi dinamika müşahidə olunur. Aprelin 19-na təyin edilmiş parlament seçkiləri ölkənin son yeddi ildə səkkizinci seçki təcrübəsi kimi diqqət çəkir və cəmiyyətin siyasi dalandan çıxış axtarışında olduğunu əks etdirir. Bu ərəfədə ölkənin sabiq prezidenti Rumen Radev “Mütərəqqi Bolqarıstan” adlı üçpartiyalı ittifaqın yaradıldığını açıqlayıb. İttifaq Bolqarıstanın siyasi sistemində yeni mərhələnin başlanğıcı kimi xarakterizə oluna bilər.**

Ümumən, Radevin prezidentlikdən istefası siyasi baxımdan daha geniş icraedici məsuliyyət iddiası kimi dəyərləndirilir. Proses postsosialist siyasi sistemlərdə fərdi siyasi kapitalın partiya institutlaşmasına transferinin tipik nümunəsi kimi də qiymətləndirilə bilər. 2021-ci ildən etibarən parlamentin parçalanmış tərkibi sabit hökumətin formalaşdırılmasını çətinləşdirib. Lakin bu vəziyyət, sadəcə, Bolqarıstana xas deyil. Proporsional seçki sistemi tətbiq edən Avropanın bir sıra ölkələrində də oxşar fraqmentasiya müşahidə olunur. Fərq ondadır ki, Bolqarıstanda yeni partiyaların sürətli yüksəlişi və seçici davranışının çevikliyi siyasi mənzərəni daha dinamik edir. Sözügedən dinamizm isə uzunmüddətli perspektivdə siyasi institutların daha inklüziv və rəqabətli formalaşmasına zəmin yaradır. Xatırladaq ki, sonuncu hökumətin istefası vergi siyasəti və korrupsiyaya qarşı mübarizə ilə bağlı ictimai narazılıq fonunda baş vermişdi. Həmin dövrdə baş verən küçə aksiyaları demokratik iştirakçılığın təzahürü olmaqla yanaşı, dövlət və cəmiyyət arasında dialoqun aktuallaşdığını göstərmişdi. Bu baxımdan, Radevin siyasi diskursundakı oliqarxik modelin transformasiyası ideyasının ön plana çıxarılması cəmiyyətin şəffaflıq və hesabatlılıq tələblərinə cavab vermək məqsədi daşıyır. “Mütərəqqi Bolqarıstan”ın solyönlü qüvvələri bir araya gətirməsi ideoloji baxımdan sosial ədalət və inklüziv inkişaf gündəmini gücləndirir. Bununla belə, Bolqarıstan seçicisinin prioritetləri klassik sağ-sol bölgüsündən daha çox idarəetmə effektivliyi, iqtisadi sabitlik və sosial təminat məsələləri ətrafında formalaşır. Ona görə də yeni koalisiyanın uğurunun idarəetmə bacarığından asılı olacağı ehtimal edilir.

Yanvarın 1-də ölkənin avrozonaya qoşulması iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından mühüm mərhələ kimi yadda qaldı. Avrozonaya üzvlük maliyyə intizamının və makroiqtisadi koordinasiyanın gücləndirilməsini tələb edir. Bu isə fiskal siyasətdə məsuliyyətli yanaşmanı şərtləndirir. Eyni zamanda, sosial siyasətin balanslaşdırılması hökumət üçün əsas çağırış olaraq qalacaq. Yeri gəlmişkən, Baltik ölkələri də avrozonaya keçid mərhələsində oxşar adaptasiya prosesindən keçmiş, zamanla iqtisadi dayanıqlılıqlarını artırmışdılar. Bolqarıstanın bu istiqamətdə institusional potensiala malik olduğu görünür. Əsas fərq ondadır ki, Aİ çərçivəsində ölkənin mövqeyi strateji baxımdan daha sabitdir. Radevin prezidentliyi dövründə milli maraqları ön plana çıxaran, Avropa inteqrasiyası kursunu dəstəkləyən xətt nümayiş etdirmişdi. Onun mümkün baş nazirliyi halında da Avropa strukturları ilə əməkdaşlığın davam etdirilməsi ehtimalı yüksək qiymətləndirilir. Çünki iqtisadi və maliyyə inteqrasiyası dərin olan dövlətlər üçün kəskin kurs dəyişiklikləri rasional seçim hesab edilmir.

Xarici siyasət müstəvisində yeni siyasi mərhələnin tərəfdaş ölkələrlə münasibətlərə təsiri diqqətlə izlənilməlidir. Enerji təhlükəsizliyi Bolqarıstan üçün prioritet istiqamətlərdəndir. Xüsusilə Cənub Qaz Dəhlizi çərçivəsində Azərbaycan qazının Bolqarıstan bazarına daxil olması enerji şaxələndirilməsi siyasətinin mühüm elementi kimi çıxış edir. Mövcud əməkdaşlıq həm də regional enerji təhlükəsizliyinə töhfədir. Azərbaycan ilə münasibətlər qarşılıqlı maraqlar üzərində qurulub. Enerji sahəsində tərəfdaşlıq nəqliyyat, logistika və Qara dəniz regionunda tranzit imkanlarının genişləndirilməsi ilə tamamlanır. Yeni hökumətin formalaşması bu əməkdaşlığın istiqamətini dəyişməkdən daha çox onu institusional baxımdan dərinləşdirmək imkanı yarada bilər. Çünki sosial-iqtisadi sabitlik və enerji təhlükəsizliyi bir-biri ilə sıx bağlıdır. Bununla yanaşı, siyasi dinamika xarici tərəfdaşlar üçün çevik diplomatik yanaşma tələb edir. Demokratik prosedurların davamlılığı tərəfdaş ölkələr üçün proqnozlaşdırıla bilən mühit yaradır. Azərbaycan üçün bu kontekstdə hökumətlərarası mexanizmlərin və iqtisadi komissiyaların rolu xüsusi əhəmiyyət daşıyır.

Sonda qeyd edək ki, uzunmüddətli perspektivdə əsas məsələ siyasi konsensusun formalaşdırılması və parlamentdə çoxluğun təmin edilməsidir. Bolqarıstanın son illərdəki təcrübəsi göstərir ki, demokratik sistemlərdə qeyri-sabitlik mərhələsi bəzən institusional yenilənmənin ilkin fazası olur. Seçki proseslərinin intensivliyi siyasi rəqabəti artırır və yeni ideyaların meydana çıxmasına şərait yaradır. Əgər bu dinamika effektiv idarəetmə ilə tamamlanarsa, nəticədə, daha sabit və funksional siyasi model formalaşa bilər. Belə olan halda, aprelin 19-da keçiriləcək seçkiləri Bolqarıstan üçün transformasiya mərhələsinin davamı kimi qiymətləndirmək mümkündür. “Mütərəqqi Bolqarıstan” təşəbbüsü cəmiyyətin dəyişiklik gözləntilərinə cavab vermək iddiasındadır. Prosesin uğuru ölkənin daxili siyasi sabitliyini möhkəmləndirməklə yanaşı, Aİ daxilində mövqelərini gücləndirə və Azərbaycan kimi strateji tərəfdaşlarla əməkdaşlığı daha sistemli müstəviyə keçirə bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**

Son dövrlər Bolqarıstanda daxili siyasi gərginlik artıb. Avropa İttifaqı və NATO kontekstində ölkənin fərqli mövqeləri parlamentdə və hökumətdə qarşıdurmalara səbəb olub. Nəticədə, ötən ilin dekabrında baş nazir, bu ilin yanvarında isə prezident Rumen Radev istefa verib. İlk dəfə qadın prezident seçilib. Radevin dövründə vitse-prezident olmuş İliyana Yotova hazırda dövlətin rəhbəridir və Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır.

Qarşıdakı parlament seçkiləri Bolqarıstan üçün kritik əhəmiyyət kəsb edir və Azərbaycan–Bolqarıstan münasibətlərinin inkişafı baxımından önəmli olacaq. Bakı–Sofiya əlaqələri yüksək səviyyədədir və son illər bu münasibətlər daha da inkişaf edib. 2023-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana səfəri zamanı Serbiya-Bolqarıstan qaz interkonnektorunun açılışı oldu. Həmin interkonnektor vasitəsilə Azərbaycan Avropaya qaz ixracında önəmli rol oynayır. 2024-cü ildə sabiq Prezident Rumen Radev 2 dəfə Azərbaycana səfər edib, bir dəfə də COP 29 tədbirində iştirak üçün Bakıda olub.

Azərbaycanın ərazi bütövlüyü və Qarabağın statusu ilə bağlı ədalətli mövqeyinin Avropada dəstəklənməsində Bolqarıstan önəmli ölkələrdən biridir. Bolqarıstan şirkətləri, həmçinin Qarabağ və Şərqi Zəngəzurun bərpa prosesində iştirak üçün təşəbbüs göstərib. Bütün bunlar Azərbaycanla Bolqarıstan arasında münasibətlərin yüksək səviyyədə olduğundan xəbər verir.

Şübhəsiz, elektorat Rumen Radevin Bolqarıstanın Avropada və beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsi baxımından atdığı addımları nəzərə alacaq. Sabiq prezidentin qələbəsi Azərbaycan–Bolqarıstan münasibətlərinin inkişafı baxımından önəmli hadisə ola bilər.

# Yaxın Şərqdə savaş qlobal təhlükəsizliyi sarsıdır

## *Dünya ABŞ və İsraili İrana hücumu dayandırmağa çağırır*

**Yaxın Şərqdə artan hərbi-siyasi gərginlik fonunda regionun enerji və nəqliyyat təhlükəsizliyi narahatlıq doğurur. Xüsusilə Hörmüz boğazının bağlanması qlobal ticarət marşrutlarına birbaşa təsir göstərərək beynəlxalq bazarlarda qeyri-müəyyənliyi artırır.**




Fransanın “France Inter” radiosunun yaydığı məlumata görə, boğazın bağlanmasından sonra Körfəzin şimal hissəsində azı 167 gəmi hərəkətsiz vəziyyətdədir. Onların 127-si neft və qaz daşıyan iri tankerlər, 60-ı isə konteyner gəmiləridir. Blokadada qalanlar arasında Fransa bayrağı altında üzən və ya fransız şirkətlərinə məxsus 60 gəmi, eləcə də İtaliya-İsveçrə mənşəli, qlobal daşımalar üzrə lider şirkət sayılan MSC-yə məxsus 20 gəmi var. Təhlükəsizlik səbəbilə bəzi kapitanların identifikasiya siqnallarını söndürməsi səbəbindən bölgədə real sayın daha çox ola biləcəyi ehtimal edilir.

Fransanın sözügedən 60 gəmisinin boğazı keçdikdən sonra ölkənin Hərbi Dəniz Qüvvələrinin göstərişi ilə sığınacaq mövqeyinə çəkildiyi bildirilir. Rəsmi mövqeyə görə, Fransa gəmiləri hazırkı mərhələdə prioritet hədəf hesab edilmir. Bununla belə, Fransanın nəqliyyat və dəniz daşımaları sektorunun nümayəndəsi Loran Martens mümkün iqtisadi nəticələrə diqqət çəkərək neftin qiymət artımının bir neçə həftə ərzində Avropada yanacağın bahalaşmasına səbəb ola biləcəyini bildirib.

Türkiyənin xarici işlər naziri Hakan Fidan “Yeni Şafak” qəzetinə açıqlamasında Hörmüz boğazının bağlanmasının qlobal maliyyə və enerji bazarlarında ciddi dalğalanmalara səbəb ola biləcəyini vurğulayıb. Onun sözlərinə görə, bu, böyük gücləri təcili addımlar atmağa məcbur edə bilər. H.Fidan vurğulayıb ki, ən mənfi ssenari münaqişənin daha da şiddətlənməsi və regionda uzunmüddətli qeyri-sabitliyin yaranmasıdır.

Bununla yanaşı, Ankara diplomatik kanalların bərpası üçün təşəbbüslər göstərildiyini vurğulayır. Hakan Fidan müharibə edən tərəflərin danışıqlar masasına qaytarılması üçün minimum şərtin hərbi əməliyyatların dayandırılması olduğunu, lakin bunun da müəyyən zaman və proses tələb etdiyini bildirib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AK Parti) rəsmiləri qarşısında çıxış edərkən bildirib ki, Ankara sülhə və sabitliyə yönəlmiş diplomatiyasını davam etdirir: “Danışıqlar masasında problemlərin ədalətli həllinə nail olmaq üçün qətiyyətli səylər göstəririk. Qan tökülməsinə son qoymağa və bölgənin qardaş ölkələri arasında düşmənçiliyin dərinləşməsinin qarşısını almağa çalışırıq”.

Regionda cərəyan edən hadisələrin enerji sektoruna da mənfi təsirləri müşahidə olunur. “Qatar Energy” regiondakı eskalasiya fonunda kimya, neft-kimya və emal sənayesi məhsullarının – polimerlər, metanol, alüminium, karbamid və digər məhsulların istehsalını müvəqqəti dayandırıb.

Regionda hərbi insidentlər də davam edir. Birləşmiş Ərəb Əmirliklərinin Əl-Fuceyra əmirliyində yerləşən neft hasilatı rayonunda dron hücumu nəticəsində yanğın baş verib. Rəsmi məlumatlara görə, yanğın nəzarət altına alınıb və xəsarət alan yoxdur. Eyni zamanda, Omanın şərqində yerləşən Dukm limanında yanacaq çənlərinə pilotsuz uçuş aparatları ilə hücum edildiyi bildirilib. Bundan başqa, ABŞ-ın Ər-Riyaddakı səfirliyinə iki dron hücumu həyata keçirilib, nəticədə, kiçikmiqyaslı yanğın baş verib və binaya maddi ziyan dəyib.

Bu arada “Gulfnevs” xəbər verir ki, İran Xarici İşlər Nazirliyinin nümayəndəsi İsmayıl Bəqai mətbuat konfransında bildirib ki, Avropa ölkələri ABŞ və İsrailin İrana qarşı əməliyyatına qoşulsalar, bu, “müharibə aktı” olacaq: “Bu, müharibə aktı olardı. İrana qarşı hər hansı belə bir hərəkət təcavüzkarlara kömək kimi qiymətləndiriləcək. Bu, İrana qarşı müharibə aktı kimi qiymətləndiriləcək”. Xatırladaq ki, bundan əvvəl Böyük Britaniya, Fransa və Almaniyanın liderləri Yaxın Şərqdəki müttəfiqlərinə zərbələr endirməyə davam edərsə, İranı silahlı qüvvələrdən istifadə etməklə hədələmişdilər.

Beləliklə, regionda paralel şəkildə hərbi toqquşmalar, enerji infrastrukturuna hücumlar, diplomatik bəyanatlar və iqtisadi məhdudiyyətlər müşahidə olunur. Hörmüz boğazı ətrafında yaranmış vəziyyət isə Yaxın Şərqdəki lokal qarşıdurmanın qlobal enerji və maliyyə sisteminə təsir potensialını bir daha nümayiş etdirir. Mövcud dinamika göstərir ki, qarşıdakı mərhələdə həm hərbi eskalasiyanın səviyyəsi, həm də diplomatik təşəbbüslərin effektivliyi regional sabitliyin əsas müəyyənedicisi olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Bağlı qapılardan açıq üfüqlərə

## *328 kilometrlik sərhəd Ankara–İrəvan dialoqunda Bakının maraqlarının uzlaşma müstəvisidir*

**Ermənistan sərhədçiləri Türkiyə ilə dövlət sərhədində yerləşən “Axurik” nəzarət-buraxılış məntəqəsində rus sərhədçilərini əvəz ediblər. Bu barədə fevralın 26-da Ermənistan Nazirlər Kabineti tərəfindən qəbul olunmuş 2021–2026-cı illər üzrə hökumət proqramının icrasına dair hesabatda bildirilib. Bu sahə əvvəllər Rusiya Federal Təhlükəsizlik Xidmətinin Ermənistandakı Sərhəd idarəsinin tabeliyində olub.**

Müzakirəsiz qəbul edilən sənəddə qeyd olunur ki, 2026-cı il martın 1-dən etibarən Türkiyə ilə dövlət sərhədindəki “Marqara” nəzarət-buraxılış məntəqəsində xidməti yalnız Ermənistan milli təhlükəsizlik xidmətinin sərhəd qoşunlarının hərbçiləri həyata keçirirlər: “2026-cı ilin əvvəlindən etibarən “Axurik” nəzarət-buraxılış məntəqəsində də xidməti yalnız Ermənistan MTX-nin sərhəd qoşunlarının hərbi qulluqçuları yerinə yetirirlər”. Eyni zamanda, vurğulanıb ki, hazırda Ermənistanın dövlət sərhədində MTX-nin sərhəd qoşunlarının tam nəzarəti altında olmayan nəzarət–buraxılış məntəqəsi yoxdur. Bu isə təbii olaraq rusiyalı sərhədçilərin Ermənistan–İran dövlət sərhədindəki nəzarət-buraxılış məntəqələrindən də çıxarılması deməkdir. Baş nazir Nikol Paşinyan Ermənistan–İran dövlət sərhədində rusiyalı hərbçiləri çoxillik xidmətinə görə Rusiya rəhbərliyinə təşəkkürünü bildirib. Bu, artıq onların daxili işidir. Sərhədlərin qorunması məsələsi də həmçinin. Yeri gəlmişkən, qeyd edək ki, sərhədləri dövlətin özünün qoruması ölkənin suverenliyinin ən əsas göstəricilərindəndir. Etiraf etmək lazımdır ki, 1992-ci ildən 2024-cü il iyulun 31-dək, yəni rus sərhədçilərinin İrəvandakı “Zvartnots” hava limanını tərk etdiyi günədək Ermənistana gələn sərnişinlər, qonaqlar üçün düşdükləri yerin hara olduğunu anlamaq çətin idi: Rusiya, yoxsa Ermənistan? Axı, bilet İrəvana alınmışdı. Yəni belə qeyri-müəyyən vəziyyət hökm sürürdü və hazırda buna son qoyulub.

Bütövlükdə, uzun illər müxtəlif istiqamətlərdə Rusiya sərhəd xidmətinin iştirakı ilə həyata keçirilən nəzarət mexanizminin dəyişdirilməsi rəsmi İrəvanın məsuliyyəti birbaşa öz üzərinə götürməsi deməkdir. Bu addım ilk növbədə suverenlik baxımından simvolik və praktiki əhəmiyyət daşıyır. Nəzarətin yerli qurumlara keçməsi qərarların qəbulunda və icrasında daha çevik davranmağa imkan yarada bilər. Eyni zamanda, sərhəd xidmətinin vahid idarəetmə çərçivəsində fəaliyyət göstərməsi koordinasiyanı sadələşdirir və hesabatlılığı artırır. Digər mühüm məqam təhlükəsizlik sisteminin milliləşdirilməsi ilə bağlıdır. Ermənistan sərhəd qoşunlarının bütün nəzarət-buraxılış məntəqələrində xidmətə başlaması peşəkar kadr potensialının gücləndirilməsini və texniki imkanların artırılmasını stimullaşdıra bilər. Hadisənin siyasi tərəfi də diqqətəlayiqdir. Rəsmi İrəvan bununla göstərir ki, xarici tərəfdaşlarla əməkdaşlıq mümkün olsa da, əsas məsuliyyət milli qurumların üzərində olmalıdır.




Bu yanaşma beynəlxalq aləmdə Ermənistanın müstəqil qərarvermə qabiliyyətinə dair təsəvvürü möhkəmləndirə bilər. Nəhayət, ictimai rəy baxımından da bu dəyişiklik müəyyən psixoloji təsir yaradır. Sərhəddə öz bayrağı və öz hərbçisini görmək hər bir cəmiyyət üçün dövlətçilik duyğusunu gücləndirən amillərdən biridir. Bütün bunlar birlikdə Ermənistanın təhlükəsizlik modelində yeni mərhələnin formalaşdığını göstərir.

Onu da bildirək ki, Ermənistan–Türkiyə dövlət sərhədinin ümumi uzunluğu 328 kilometrdir. Ermənistan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdiyi vaxt Türkiyə ilə sərhəddə üç nəzarət-buraxılış məntəqəsi mövcud idi. Bunlardan ikisi avtomobillərin hərəkəti, biri isə həm avtomobil, həm də dəmir yolu üçün nəzərdə tutulmuşdu. 1993-cü il aprelin 3-dən etibarən (Kəlbəcər rayonunun işğalından sonra) bu keçidlər fiziki şəxslər üçün bağlanıb. 1993-cü il iyulun 6-dan 1995-ci il yanvarın 1-dək Türkiyə hava sərhədini də bağlamışdı. Vətən müharibəsində Azərbaycanın qələbəsindən sonra, 2020-ci ildən başlayaraq sərhədlərin açılması istiqamətində proses gedir. 2022-ci il fevralın 4-də İrəvan və İstanbul arasında müntəzəm aviareyslər bərpa olundu. 2023-cü il yanvarın 6-da Türkiyə tərəfi iki ölkə arasında birbaşa müntəzəm aviadaşımalarla bağlı qadağanın aradan qaldırıldığını bildirdi.

2022-ci ilin iyulunda Türkiyə Xarici İşlər Nazirliyi münasibətlərin ümumi istiləşməsi fonunda iki ölkənin sərhədi üçüncü ölkə vətəndaşları üçün ən qısa zamanda yenidən açmağı planlaşdırdığını bildirdi. 2022-ci ilin yayında “Alican” nəzarət-buraxılış məntəqəsi əsaslı təmir edildi. 2023-cü ilin fevralında isə Türkiyə və Suriyada baş vermiş dağıdıcı zəlzələdən sonra Ermənistandan Türkiyəyə humanitar yardımın çatdırılması üçün bu buraxılış məntəqəsi açıldı.

Ermənistan–Türkiyə sərhədində son illər müşahidə olunan dinamika təkcə təhlükəsizlik və nəqliyyat məsələsi deyil, eyni zamanda, iqtisadi perspektivlər baxımından da diqqətəlayiqdir. Quru sərhədinin açılması və ticarət əlaqələrinin bərpası ilk növbədə Ermənistan iqtisadiyyatı üçün yeni imkanlar yarada bilər. Türkiyə regionun ən iri bazarlarından biridir və logistik baxımdan Ermənistan üçün ən qısa çıxış marşrutlarından sayılır. Sərhədin açılması daşınma xərclərini azalda, idxal və ixrac əməliyyatlarını sürətləndirə, xüsusilə kiçik və orta sahibkarlıq üçün yeni bazar imkanları formalaşdıra bilər. Bu proses, eyni zamanda, regionda iqtisadi inteqrasiyanın genişlənməsinə xidmət edər. Nəqliyyat və ticarət xətlərinin bərpası Cənubi Qafqazda qarşılıqlı asılılığı artıraraq uzunmüddətli sabitlik üçün əlavə zəmin yaradar. Kommunikasiyaların açılması tranzit imkanlarını genişləndirir, beynəlxalq yükdaşımaların marşrutlarını şaxələndirir və regionu daha cəlbedici iqtisadi məkana çevirər. Türkiyə ilə birbaşa quru əlaqəsinin qurulması Ermənistanın regional layihələrə qoşulmasını asanlaşdıra, investisiya mühitinə müsbət təsir göstərə bilər.

Bununla belə, məsələ yalnız ikitərəfli iqtisadi maraqlarla məhdudlaşmır. Türkiyə–Ermənistan sərhədinin açılması Cənubi Qafqazda formalaşan yeni reallıqlar kontekstində qiymətləndirilməlidir. Vətən müharibəsindən sonra yaranmış vəziyyət regionda yeni əməkdaşlıq çərçivəsinin formalaşmasını gündəmə gətirib. Bu baxımdan Ankara hər zaman Azərbaycanın maraqlarını nəzərə aldığını açıq şəkildə bəyan edib və praktiki addımlarında da bunu nümayiş etdirib. Türkiyənin Ermənistanla münasibətləri normallaşdırması prosesinin Bakının mövqeyi ilə uzlaşdırıldığı məlumdur. Ona görə də sərhədlərin açılması və ticarətin başlanması perspektivi Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması prosesi ilə sıx bağlıdır. Dayanıqlı və hüquqi baxımdan rəsmiləşdirilmiş sülh olmadan regionda genişmiqyaslı iqtisadi əməkdaşlığın tam reallaşması çətin görünür. Türkiyənin atacağı addımların Azərbaycanın razılığı və maraqları çərçivəsində həyata keçiriləcəyi isə regional balansın qorunması baxımından əsas amillərdən biri olaraq qalır.

***Səxavət HƏMİD***
***XQ***

# Cənub Qaz Dəhlizi Avropanın yeni enerji damarıdır

## *Məşvərət Şurası növbəti hədəfləri müzakirə edib*




**Azərbaycan qazının əsas ixrac marşrutu sayılan Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verir. Ötən müddətdə bu əvəzolunmaz layihə ölkəmizi "qoca qitə"nin mühüm enerji müttəfiqinə və bir neçə dövlətlə strateji tərəfdaşa çevirib. Təsadüfi deyil ki, Azərbaycan qazını yeni mənbə kimi səciyyələndirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizini yeni enerji damarı, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihə adlandırıb.**

Dövlətimizin başçısı deyib: "Bu layihə, həqiqətən də, uğur hekayəsidir. Bu, Avrasiyada ən böyük infrastruktur layihələrindən biridir. Uzunluğu 3500 kilometr olan inteqrasiya edilmiş boru kəməri sistemi olan bu layihə enerji təhlükəsizliyi və əməkdaşlıq layihəsidir. Çünki Cənub Qaz Dəhlizinin keçdiyi marşrut boyunca yerləşən bütün ölkələr arasında əməkdaşlıq olmasa, bu layihənin həyata keçirilməsi mümkün olmazdı".

Son illər dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platforması mədən yanacağına marağı nə qədər azaltsa da, yaxın perspektivdə təbii qazdan imtina real görünmür. Məlum olduğu kimi, hazırda Avropanın 12 ölkəsi: İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Almaniya və Avstriya Azərbaycandan qaz alır. Bütövlükdə isə, Azərbaycan Türkiyə, Gürcüstan, Ukrayna və Suriya da daxil olmaqla dünyanın 16 ölkəsinə "mavi yanacaq" ixrac edir.

Martın 3-də Bakıda öz işinə başlayan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarının açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Sonuncu dəfə bu auditoriya qarşısında çıxış edərkən bildirmişdim ki, biz 12 ölkəyə qaz tədarük edirik. Hazırda isə Azərbaycan qazının istehlakçısı olan ölkələrin sayı 16-ya çatıb. Bu göstərici üzrə Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına əsasən dünyada birinci yerdədir. Sonuncu dəfə çıxışım zamanı qaz təchizatının coğrafiyasının genişləndirilməsi ilə bağlı planlarımıza toxunmuşdum. Gördüyünüz kimi, bu planlar artıq reallaşdırılıb. Hesab edirəm ki, digər mühüm hadisə qaz təchizatımızın artıq Avropa hüdudlarından kənardakı istiqamətlərə də çatması olmuşdur. İlk dəfə olaraq Suriyaya qaz tədarükünə başlamışıq ki, bu da Suriya xalqına mövcud olan kəskin elektrik enerjisi qıtlığının azaldılmasında yardım göstərmək məqsədi daşıyır".

Bununla belə, "köhnə qitə"də təbii qaza ciddi ehtiyac duyulduğu indiki şəraitdə bu siyahının daha da genişlənəcəyi şəksizdir. Bakıda keçirilən mötəbər enerji toplantısında bu vacib məqama toxunan dövlətimizin başçısı istehsalçı Azərbaycan, tranzit ölkələr və istehlakçılar arasında əməkdaşlıqda müsbət dinamikanın müşahidə olunduğunu vurğulayaraq deyib ki, birgə maraqlar və qarşılıqlı fayda prinsipi 10 ildən artıq davam edən uğurlu yolumuzun əsas amilidir.

Ölkəmizin Avropanın enerji bazarında mövcudluğunu genişləndirmək niyyətində olduğunu bildirən Prezident İlham Əliyev bildirib ki, qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq istehsal həcmlərinin artacağı gözlənilir ki, bu da mövcud qaz nəqli infrastrukturlarının genişləndirilməsinə zərurət yaradır: "Bu gün Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir. Biz bazarda mövcud tələbatı və qlobal vəziyyəti nəzərə alaraq, artacaq tələbatı qarşılamaq məqsədilə əlavə genişləndirmə və interkonnektor imkanlarını araşdırırıq. Məqsədimiz ixracı maksimum səviyyəyə çatdırmaqdır... Bunun üçün yeni bazarlara, mövcud boru kəməri sisteminin genişləndirilməsinə ehtiyac var və əlbəttə, qazpaylama şəbəkəmizin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir".

Bunun üçün isə ölkəmizin potensial imkanları olduqca genişdir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bu il "Azəri-Çıraq-Günəşli" yatağının dərin qaz laylarından, növbəti illərdə isə "Ümid" yatağının ikinci mərhələsi və "Şahdəniz"in yeni mərhələsi üzrə hasilata başlanacağı, eləcə də 2-3 il ərzində "Abşeron" yatağının tammiqyaslı işlənmə mərhələsinə start veriləcəyi gözlənilir ki, bu da 10-15 milyard kubmetr həcmində əlavə qaz əldə etməyə imkan verəcək.

Məlum olduğu kimi, artıq bir neçə ildir ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində "yaşıl gündəlik"lə bağlı məsələlər də geniş müzakirə olunur. Sevindirici haldır ki, Azərbaycan dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in də əsas iştirakçılarından biri kimi mövqeyini getdikcə gücləndirir. Prezident İlham Əliyev beynəlxalq enerji toplantısında ölkəmizin bu sahədəki uğurlarından da geniş bəhs edib. Dövlətimizin başçısı 2023-cü ildə "Masdar" şirkəti tərəfindən inşa olunmuş 230 meqavatlıq "Qaradağ" günəş və bu ilin yanvarında "ACWA Power" şirkətinin maliyyəsi ilə ərsəyə gətirilmiş 240 meqavatlıq "Xızı-Abşeron" külək elektrik stansiyalarının Azərbaycanın dünyanın "yaşıl" gündəliyinə töhfəsi kimi dəyərləndirib.

Bununla yanaşı, hazırda bir neçə "yaşıl" layihənin icra mərhələsində olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev yaxın illərdə alternativ enerji mənbələri ilə işləyən yeni elektrik stansiyalarının istifadəyə veriləcəyini bildirib. Dövlətimizin başçısı açılış mərasimindəki çıxışında, həmçinin "yaşıl" enerjinin ötürülməsi və onun ixraca nəqli istiqamətində görülən işlərdən də ətraflı bəhs edib: "Biz enerji kabelləri – Azərbaycandan Avropaya Qara dənizin dibi ilə gedən enerji kabeli və Mərkəzi Asiyadan Azərbaycana gələn enerji kabeli üzərində birlikdə işləməliyik. Hər iki müqavilə imzalanıb və bir layihədə iqtisadi-texniki əsaslandırma tamamlanmaq üzrədir, digər layihədə isə bu iş davam edir. Bütün bu layihələrin reallaşacağı zaman onlar çox dayanıqlı olacaq və deyərdim ki, bir çox ölkələrin enerji dəhlizləri üçün ekzistensial əhəmiyyət kəsb edəcək. Alternativ enerji ilə bağlı planlarımız artıq imzalanmış müqavilələrə əsaslanır".

Avropa İttifaqının enerji və mənzil siyasəti üzrə komissarı Dan Yorgensen isə çıxışında Cənub Qaz Dəhlizinin strateji əhəmiyyətinə toxunaraq bildirib ki, Azərbaycan qazının bu dəhliz vasitəsilə Avropaya ixracı Rusiya qazından asılılığın azaldılmasına imkan yaradıb. Bunu Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə kimi dəyərləndirən komissarın sözlərinə görə, 2020-ci ilin sonundan Xəzərdə hasil edilən qazın 50 milyard kubmetrdən çox həcmi Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik boru kəməri ilə Avropaya çatdırılıb: "Rusiya qazından asılılığımızı davamlı şəkildə azaltdığımız dövrdə Azərbaycanla tərəfdaşlığımızın vacibliyi yalnız artacaq, Avropanın enerji təhlükəsizliyinə və Azərbaycan iqtisadiyyatına fayda verəcək. Trans-Adriatik Boru Kəməri ilə kommersiya daşımaları başladığı dövrdə Azərbaycan 2024-cü ildə Avropa İttifaqının alıcılarından təbii qazın ixracına görə, təxminən, 24 milyard avro qazanıb. Bugünkü səfərin mövqeyi açıq bəyan etmək fürsətidir: Azərbaycanın qazı, qaz təchizatı Avropa İttifaqının enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalacaq".

Daha sonra Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərin 4-cü iclası öz işini "Cənub Qaz Dəhlizi sessiyası: Cənub Qaz Dəhlizində davamlı uğur və yeni inkişaf mərhələsi" və "Yaşıl Enerji Layihələri" üzrə plenar sessiyalarla davam etdirib. "Nazirlər sessiyası"nda Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili, Bolqarıstanın energetika naziri Trayço Traykov, Moldovanın energetika naziri Dorin Junqetu, ABŞ dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Keyleb Or, Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi Lord Con Alderdays, Türkiyənin energetika və təbii sərvətlər nazirinin müavini Zəfər Dəmircan və başqaları çıxış ediblər.

"Cənub Qaz Dəhlizi sessiyası"nda SOCAR, bp, Azərbaycan Qaz Təchizatı Şirkəti, TANAP, TAP, ICGB, XRG, TotalEnergies, Asiya İnkişaf Bankı və Boston Consulting Group nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

"Yaşıl Enerji Layihələri" sessiyasında isə BOEMDA, "SOCAR Green", "Masdar", "ACWA Power", bp, Xlinks, Zhero, CEER, IFC, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı və İƏT-in Təmiz Enerji Mərkəzinin nümayəndələrinin "yaşıl enerji dəhliz"ləri və layihələri, "yaşıl enerji" interkonnektorları ilə bağlı təqdimatları dinlənilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Bakıda keçirilən ənənəvi Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarına maraq olduqca yüksəkdir. Bu il Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclasında Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 27 ölkənin, 11 beynəlxalq maliyyə institutu və təşkilatın, 49 enerji şirkətinin qatılması, eləcə də bu mötəbər enerji tədbirində nazirlər, nazir müavinləri və digər yüksək səviyyəli nümayəndələrin iştirakı da bunu təsdiqləyir.

Körfəz ölkələrində hərbi münaqişənin alovlanması, dünyanın iri maye qaz ixracatçılarından olan Qətərin qaz emalı obyektlərinə İranın hava hücumu və gündəlik olaraq Hörmüz boğazından 300 milyon kubmetr qazın daşınmasında yaranan fasilələr artıq Avropa və Uzaq Şərq bazarlarında "mavi yanacağ"ın 1000 kubmetrinin qiymətini 600 ABŞ dollarınadək bahalaşdırıb.

Belə bir şəraitdə Avropa qazın tanker daşımalarının da davamlı enerji təhlükəsizliyinin təminatçısı olmadığını görür. Və boru kəmərləri daşımalarının vacibliyi məncə, budəfəki Bakı toplantısında daha qabarıq şəkildə diqqət mərkəzində olacaq. Düşünürəm ki, Avropa İttifaqı Cənub Qaz Dəhlizinin genişləndirilməsi məsələsini özünün prioritet layihələri siyahısına daxil edə bilər.

Azərbaycan 2025-ci ilin yekunlarına görə, təqribən, 38,9 milyard kubmetr əmtəəlik qaz hasil edib, bunun isə 25,2 milyard kubmetri xarici bazarlarda kapitala çevirib. Avropa bazarlarında satış həcmlərimiz 2 ildir ki, 12,8 milyard kubmetr ətrafında sabitləşib.

# Hörmüz boğazında böhran neft bazarını möhkəm silkələyib

*(əvvəli 1-ci səhifədə)*

Dünya üzrə dizelin təxminən 10 faizi və aviasiya yanacağının 20 faizi məhz Hörmüz boğazından daşınır. Strateji əhəmiyyətə malik bu keçid nöqtəsi qlobal enerji bazarında sabitliyin əsas dayaqlarından biridir. Burada gəmiçiliyin təhlükəsizliyinə yönələn hər hansı təhdid yanacaq qiymətlərinə və inflyasiya göstəricilərinə dərhal təsir göstərir. Tam blokada baş verərsə, ölkələr mövcud ehtiyatlar hesabına tədarükü ən çoxu 25 gün davam etdirə bilər. Bu fakt boğazın iqtisadi və strateji əhəmiyyətini aydın şəkildə nümayiş etdirir.

İranın Hörmüz boğazına təsir imkanları qlobal enerji bazarına birbaşa təsir göstərən strateji alət rolunu oynayır. Dəniz nəqliyyatının məhdudlaşdırılması və ya nəzarət altına alınması neft, dizel və aviasiya yanacağının qiymətlərində dərhal dəyişiklik yaradır. Regionda qeyri-sabitliyin uzun müddət davam etməsi enerji idxalından asılı ölkələrə əlavə iqtisadi təzyiq göstərə, yanacaq xərclərini artıra və münaqişədə iştirak edən dövlətlərin strateji qərarlarını daha da mürəkkəbləşdirə bilər.




Nəzərə alsaq ki, qlobal neft tranzitinin 20 faizdən çoxu məhz buradan həyata keçirilir. Məhz bu səbəbdən Hörmüzdə yaranan hər hansı logistika problemi dünya bazarındakı yanacaq qiymətlərinə dərhal təsir göstərir. Hörmüzdəki hər hansı təhlükə qlobal yanacaq qiymətlərini dərhal silkələyir.

Qeyd edək ki, martın 2-si Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 8,9 faiz yüksəlib. Bakı vaxtı ilə saat 13:00-a olan məlumata görə, artım 6,5 dollar təşkil edərək bir barel üçün 79,37 dollara çatıb. Saat 03:02-yə olan məlumatlara görə, neftin qiyməti 2025-ci il iyunun 23-dən bəri ilk dəfə bir barel üçün 81,79 dollara satılıb. Norveçin "Rystad Energy" konsaltinq şirkətinin analitikləri "London ICE" birjasında "Brent" markalı neftin qiymətinin 20 dollara qədər sıçrayış edəcəyini proqnozlaşdırırlar.

Bununla yanaşı, martın 1-də Səudiyyə Ərəbistanı və Rusiyanın da daxil olduğu OPEC+ qrupu qiymət artımını yumşaltmaq məqsədilə gündəlik neft hasilatını 206 min barel artırmaq barədə razılığa gəlib. Bununla belə, bəzi mütəxəssislər bu addımın təsirinin məhdud olacağını bildirirlər. Digər tərəfdən, Çinin də məsələ ilə bağlı mövqeyi qətidir. "Xinhua" agentliyi Çinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mao Ninə istinadən bildirib ki, Hörmüz boğazı və ona bitişik sular malların və enerji daşıyıcılarının nəqli üçün mühüm beynəlxalq ticarət yollarıdır, bununla əlaqədar Çin müvafiq tərəfləri hərbi əməliyyatları dərhal dayandırmağa çağırıb.

Onun sözlərinə görə, Çin tərəfləri münaqişənin daha da şiddətlənməsinə yol verməməyə çağırır, Yaxın Şərqdə sülh və sabitliyin təmin olunması üçün sülhün təşviqi və müharibələrin qarşısının alınması, həmçinin problemin dialoq və danışıqlar yolu ilə həlli istiqamətində beynəlxalq ictimaiyyətlə əməkdaşlığa hazırdır.

Azərbaycan neft ixracını əsasən Bakı–Tbilisi–Ceyhan kəməri ilə Qara dənizə çıxır və bu marşrut birbaşa Hörmüzə tam bağlı deyil. Buna baxmayaraq, dünya bazarındakı qiymət artımı Azərbaycana da əlavə gəlir gətirir. Xatırladaq ki, 2026-cı il büdcəsində bir barel xam neftin qiyməti 65 dollardan hesablanmışdı, halbuki fevralın ortasında "Azeri light" markalı neftin qiyməti artıq 70,36 dollar səviyyəsinə yüksəlmişdi. Martın 2-nə olan məlumata görə isə neftin bir barelinin qiyməti 72,75 dollar olub. Yəni ölkə büdcəsinin proqnozundan yüksək bazar qiymətləri ölkəmizə daha çox valyuta gəliri qazandırır.

Onu da bildirək ki, hazırkı qiymət sıçrayışının fundamental əsasları yoxdur. Neft hasilatı və qlobal təklif hələ ki, proqnozları ötür. Əsl problem boru kəmərləri ilə daşımada yaranmış risklərdədir. Gərginlik azaldıqca, qiymətlərin yenidən enməsi gözlənilir. Yəni indiki bahalaşma situasiya qısa çəkərsə, neft qiymətləri tədricən əvvəlki səviyyələrə enəcək. Lakin münaqişə uzun müddət davam edərsə, analitiklər neftin bir barelinin 90 dollar civarında tarazlaşa biləcəyini ehtimal edirlər.

Nəticə etibarilə, Hörmüz boğazındakı təhlükələrin artması dünya neft bazarlarında təchizatın qəfil azalması qorxusunu oyadır və bu, qiymətləri yüksəldir. Azərbaycan üçün bu, daha yüksək ixrac qiymətləri və əlavə valyuta gəliri mənasına gəlir. Lakin ekspertlər də vurğulayır ki, cari bahalaşma əsasən qlobal gərginlik və logistika risklərinə bağlıdır və gərginlik aradan qalxdıqdan sonra qiymətlər yenidən enəcək.

***N.ABDALOV***
***XQ***

### *Ekspert rəyi*

**Zəfər VƏLİYEV,**
**enerji məsələləri üzrə ekspert**



Məsələ təkcə Hörmüz boğazının bağlanması ilə məhdudlaşmır. Hələ 2022-ci ildə dünyanın aparıcı bankları və mütəxəssislər qlobal neft bazarına dair proqnozlarında təklifin artacağını, nəticədə, qiymətlərin aşağı düşəcəyini bildirirdilər. Lakin geoiqtisadi reallıq fərqli istiqamətdə inkişaf etdi. Hörmüz boğazının bağlanması ehtimalı iqtisadi baxımdan son dərəcə ağır nəticələr doğura biləcək amildir.

Artıq bir neçə ildir ki, real fiziki bazarlarda qeyri-müəyyənlik müşahidə olunur. 2014-cü ildən etibarən neft-qaz sektoruna yönələn investisiyaların azalması qlobal bazarda tarazlığın pozulmasına gətirib çıxarıb. Mövcud emal güclərinin konfiqurasiyasına uyğun xammal təchizatında problemlər yaranıb. Hörmüz boğazı ətrafında gərginliyin artması da məhz bu mövcud çətinlikləri daha da sürətləndirib.

Hörmüz boğazı yalnız bir dövlətin nəzarətində deyil. Onun dayaz hissəsi İranın, dərin hissəsi isə Omanın yurisdiksiyasına daxildir. Dünyada mayeləşdirilmiş təbii qazın (LNG) təxminən beşdə biri bu marşrutdan keçir. Bazarın belə təsirlənməsi daha çox Qətərdə istehsalın dayanmasından qaynaqlanır. Belə ki, Qətər ABŞ və Avstraliyadan sonra dünyada üçüncü ən böyük LNG ixracatçısıdır. Onun LNG istehsal gücü ildə 77 milyon tondur. Bu fakt göstərir ki, söhbət yalnız xam neftdən getmir – neft məhsulları və qaz tədarükü də ciddi risk altındadır.

Qarşıdurmanın coğrafiyasının genişlənməsi qiymətlərə birbaşa təsir göstərir. Hörmüz boğazı üzərindən hər gün dünya bazarlarına 21.5 milyon barel neft və neft məhsulları ixrac olunur, bunlardan 13 milyon ton xam neftdir. Bab əl-Məndəb boğazından Qırmızı dənizə gündəlik 4.9 milyon barel, Süveyş kanalından Aralıq dənizinə isə 4.1 milyon barel neft ixrac olunur. Hərbi əməliyyatlar bu gəmilərin hərəkətinə birbaşa təsir göstərir. Eyni zamanda, regiondakı emal gücləri də gündəlik xammal tələbatını ödəməkdə çətinliklərlə üzləşir.

İran və Oman istiqamətində yerləşən əsas neft ehtiyatları təxminən 243 milyon barel həcmində qiymətləndirilir ki, bu da qlobal istehlak baxımından cəmi 22–23 günlük təminata bərabərdir. Əgər Yaxın Şərqdə hasilat azalarsa, bu, qlobal enerji təhlükəsizliyi üçün ciddi təhdidə çevriləcək. Çünki dünya neftinin "ağırlıq mərkəzi" məhz bu regionda cəmləşib.

Böhranlardan sonra qiymətlərin müəyyən qədər də yüksəlməsi ehtimalı var. Alıcı ölkələr alternativ mənbələrə yönəlməyə çalışa bilərlər, lakin bu proses həm vaxt aparır, həm də böyük maliyyə və logistika xərcləri tələb edir. Üstəlik, yeni marşrutlara keçid baş verdikdən sonra əvvəlki tranzit xətlərinə qayıdış həmişə asan olmur. Hazırda qlobal dəniz daşımalarının həcmi gündə 76 milyon bareldən artıqdır və sığorta, fraxt və logistika xərclərinin artması qaçılmazdır.

Azərbaycan indiyədək 620 milyon tondan çox xam neft hasil edib və qlobal bazarda balanslaşdırıcı təchizatçılardan biri kimi çıxış edir. Tarazlıq qorunduğu halda emal müəssisələrinin gəlirliliyi sabit qalır. Lakin mövcud vəziyyət davam edərsə, bir sıra ölkələr gündəlik xammal təminatında çətinliklərlə üzləşə bilər. Bu ssenari 2020-ci illə müqayisədə daha kritik mərhələyə gətirib çıxara bilər. Qarşıdakı mərhələdə alternativ variantların axtarışı sürətlənəcək. Neftin qiymətində əlavə artım ehtimalı qalır.

# Leyla Əliyeva "Yaşıl enerji layihələri" sessiyasında






**Martın 3-də Bakı Konqres Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərin 12-ci iclası və Yaşıl Enerji Məşvərət Şurası nazirlərin 4-cü iclası çərçivəsində "Yaşıl enerji layihələri" sessiyası keçirilib.**

Leyla Əliyeva tədbirdə çıxış edərək Xəzər dənizinin probleminə toxunub, bunun ildən-ilə daha çox narahatlıq doğuran məsələ olduğunu bildirib. "Deməliyəm ki, bu problem təkcə bizi və Xəzər dənizi ilə qonşu olan digər ölkələri narahat etmir. Xəzər dənizi əslində daha geniş qlobal ekosistemin güzgüsüdür. Ona görə də əgər Xəzər dənizi problem yaşayırsa, bu o deməkdir ki, dünya ekosistemi də problem içindədir. Əlbəttə ki, bu, böyük narahatlıq doğurur. Ancaq mən yalnız müsbət düşüncənin tərəfdarıyam, ona görə də əminəm ki, biz bir yerdəyik, Xəzər dənizinin səviyyəsinin yenidən qalxması üçün əlimizdən gələni edə biləcəyik və onun Aral dənizi və Urmiya gölü kimi yox olmasına imkan verməyəcəyik", - deyə o əlavə edib.

Leyla Əliyeva son 100 ildə Xəzərdə suitilərin 1 milyondan 200 minə qədər azaldığını qeyd edib.

O, həmçinin ölkəmizin bərpaolunan enerji layihələrinə fəal şəkildə investisiya yatırdığını və məqsədimizin regional yaşıl enerji mərkəzinə çevrilmək olduğunu bildirib.

Avropa Komissiyasının Energetika Baş İdarəsinin direktoru Kristina Lobilyo Borrero bərpaolunan təmiz texnologiyaların tətbiqinin qazıntı yanacaqlardan asılılığı azaldaraq enerji təhlükəsizliyini artırdığını, vətəndaşları və sənayeni qiymət dəyişkənliyindən qoruduğunu bildirərək bu dəyişikliklərin həm də yeni sənaye imkanları və uzunmüddətli sabitliyin göstəricisi olduğunu qeyd edib.

Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev Azərbaycanın bərpaolunan enerji potensialından söz açaraq bioenerji, geotermal resurslar və yaşıl hidrogenin inkişafı istiqamətində işlər görüldüyünü qeyd edib. Agentliyin direktoru, eyni zamanda, Qarabağın, Şərqi Zəngəzurun və Naxçıvanın yaşıl enerji zonasına çevrilməsi üçün beynəlxalq əməkdaşlıq çərçivəsində əsas fəaliyyət sənədləri hazırlandığını diqqətə çatdırıb.

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) törəməsi olan "SOCAR Green"in baş direktoru Elmir Musayev şirkətin fəaliyyəti haqqında danışaraq əsas məqsədlərinin beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək neft-qaz obyektlərini dekarbonlaşdırmaq və Azərbaycanda ekspert biliklərini konsolidasiya etmək olduğunu bildirib.

"Masdar Azərbaycan" MMC-nin direktoru Murad Sadıqov, "ACWA Power" şirkətinin Biznesin inkişafı üzrə direktoru Polina Lyubomirova, bp-nin Azərbaycan-Gürcüstan-Türkiyə regionu üzrə baş maliyyə meneceri Ayla Əzizova, "Xlinks" layihəsinin icraçı direktoru Ceyms Hamfrey, Beynəlxalq Maliyyə Korporasiyasının Qərbi Balkan və Cənubi Qafqaz ölkələri üzrə direktoru Vibke Şlomer və digərləri çıxış edərək bərpaolunan enerji sahəsindəki perspektivlərdən söz açıblar.

***XQ***

**"Şəhərsalma və Memarlıq İli" – 2026**

# Paytaxtın "qocalmış" məhəllələri tarixə qovuşur

## Bəs sakinlərin köçürülməsi necə təşkil edilib?

**Yaxın perspektivdə paytaxtın bir sıra rayonlarında qəzalı və istismar müddətini başa vurmuş binaların sökülməsi, eləcə də yeni infrastruktur layihələrinin icrası ilə bağlı genişmiqyaslı hazırlıq işləri görülür. İlkin mərhələdə prosesin şəhərin 10 rayonunu əhatə edəcəyi, ilk növbədə, qəzalı vəziyyətdə olan fərdi yaşayış evlərindən sakinlərin köçürüləcəyi bildirilir.**

**Daşınmaz əmlak üzrə ekspert Aydın Əbilovun** sözlərinə görə, söküntü və yenidənqurma prosesi "Bakı şəhərinin 2040-cı ilə qədərki dövrdə inkişafına dair Baş planı"nına uyğun şəkildə həyata keçirilir. Sökülən ərazilərdə yeni yaşayış binalarının, parkların, sosial obyektlərin və nəqliyyat infrastrukturunun yaradılması planlaşdırılır. Bayıl qəsəbəsində, "Sovetski" adlanan ərazidə və ətraf məhəllələrdə, eləcə də Yasamal rayonunda istismar müddətini başa vurmuş fərdi yaşayış evlərinin və magistral, park zonalarına düşən tikililərin sökülməsi nəzərdə tutulur.

Nəqliyyat əlçatanlığının təmin olunması məqsədilə yeni yolların çəkiləcəyi xəttə düşən tikililər də söküləcək. Baş plana əsasən şəhərin memarlıq görünüşü yenilənəcək, urbanizasiya tələblərinə uyğun müasir mühit formalaşdırılacaq. Bu proses, eyni zamanda, həmin ərazilərdə yaşayan vətəndaşların daha təhlükəsiz və müasir mənzillərlə təmin olunmasına əlverişli imkan yaradacaq.

Qəzalı vəziyyətdə olan və istismar müddətini başa vurmuş tikililər fövqəladə hallar zamanı ciddi təhlükə ehtimalı yaradır. Bəzi binalar sürüşmə zonalarında, neftlə çirklənmiş ərazilərdə, yüksək gərginlikli xətlərin keçdiyi sahələrdə inşa olunub. Kommunikasiya xətlərinin mühafizə zolağında qanunsuz tikilmiş fərdi evlər də təhlükə mənbəyidir. Belə risk amillərinin aradan qaldırılması məqsədilə bu cür tikililərin sökülməsi qaçılmaz hesab olunur.

### Sosial yanaşma və yerləşməyə dəstək

Bu məqamda sakinlərin köçürülməsi prosesinə diqqət yetirək. Əvvəlcə, onu qeyd edək ki, söküntü qərarı veriləndən sonra vətəndaşlara kompensasiya təklif olunur. Dövlət ehtiyacları üçün alınan torpaqlar əmlak bazar dəyəri ilə qiymətləndirilərək pul kompensasiyası ödənilir. Özəl tikinti şirkətlərinin həyata keçirdikləri layihələrdə isə mülk sahiblərinə əksər hallarda yeni tikiləcək binalarda mənzillər təklif olunur, bəzi hallarda isə pul ödənişi edilir.

Daşınmaz əmlak üzrə ekspertlərin sözlərinə görə, tərəflər arasında razılıq əldə olunmadıqda məsələ məhkəmə müstəvisinə keçirilir. Bu zaman prosesə müstəqil qiymətləndirmə qurumları cəlb olunur və əmlakın bazar dəyəri müqayisəli satış, xərc və zərurət yarandıqda isə gəlir metodları əsasında müəyyən edilir.

Bəzən kompensasiya məbləğləri ilə bağlı narazılıqlar da eşidilir. Sakinlər bildirirlər ki, mərkəzi ərazilərdəki yeni binalarda kvadratmetrin qiyməti 3–4 min manat civarında olduğu halda, təklif edilən kompensasiya (məsələn, 2700 manat) eyni ərazidə yeni mənzil almağa imkan vermir. Nəticədə, bəzi vətəndaşlar şəhərin kənarına və ya Sumqayıta köçmək məcburiyyətində qalırlar.



*Ekspert rəyi*



**Vüqar ORUC,**
**Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri**

Bakı şəhəri rayonlarında san vaxtlar aparılan söküntü işləri ilə əlaqədar, təxminən, 1500-dən çox ailə ilə razılaşma əldə olunub. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"na uyğun olaraq həyata keçirilən prosesin bundan sonra da davam etdiriləcəyi nəzərdə tutulub. Bu zaman şəhərin tarixi və qədim simasının qorunması şərti ilə infrastrukturun yenilənməsi, müasir standartlara cavab verən tikinti işlərinin aparılması qarşıya əsas vəzifə kimi qoyulub.

Adətən parkların salınacağı, abadlıq işlərinin aparılacağı, metro xətlərinin və digər infrastruktur layihələrinin həyata keçiriləcəyi ərazilərdə yerləşən fərdi ev və müəyyən obyekt sahibləri ilə müvafiq dövlət qurumları arasında birbaşa razılaşma əldə olunur və dövlət büdcəsindən həmin şəxslərə kompensasiya ayrılır. Yeni binaların tikintisi üçün isə müvafiq inşaat şirkətləri və investorlar müəyyənləşdirilir. Həmin investorlar tərəfindən birbaşa sakinlərlə danışıqlar aparılır və ya müvafiq dövlət qurumlarının müəyyənləşdirdiyi kompensasiya məbləği təklif edilir. Bir çox hallarda dövlətin icra qurumları tərəfindən keçirilən tenderlərdə qalib gələn şirkətlər kompensasiya məbləğini müəyyənləşdirir və həmin qərara uyğun olaraq ödənişlər həyata keçirilir.

Bu proses bəzi hallarda Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən, yaxud Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılmış komissiya tərəfindən icra olunur. Xüsusilə Yasamal rayonu ərazisində həyata keçirilən söküntü işləri və kompensasiya ödənişləri müvafiq komissiya tərəfindən təşkil edilir.

Fikrimcə, daha məqsədəuyğun olar ki, bütün hallarda kompensasiya məbləğini müstəqil qiymətləndirici şirkətlər müəyyən etsin. Çünki "Qiymətləndirmə fəaliyyəti haqqında" qanuna əsasən, ölkədə daşınmaz əmlakın dəyərini müstəqil qiymətləndirici müəyyən etməlidir. Bu, daha obyektiv yanaşmadır. Əgər kompensasiya məbləğini investor müəyyən edirsə, təbii ki, o, daha az məbləğ ödəməyə çalışa bilər. Dövlət müəyyən edirsə, bu zaman da büdcə və qənaət prinsipləri nəzərə alınır. Lakin qiymətləndirici bu prosesdə müstəqil tərəf kimi çıxış edərsə və kompensasiya məbləğini obyektiv şəkildə müəyyənləşdirərsə, bu, daha ədalətli razılaşmaların əldə olunmasına səbəb ola bilər.

Bu proses ölkənin, xüsusilə də paytaxtın tikinti və inşaat baxımından yenilənməsini, müasir standartlara cavab verən binaların inşasını, istismar müddəti başa çatmış və qəzalı vəziyyətdə olan binaların vətəndaşların təhlükəsizliyi baxımından sökülməsini nəzərdə tutur. Eyni zamanda, paytaxtın simasının yenilənməsi və gözəlləşdirilməsi məqsədi daşıyır.

Kompensasiya məbləğlərinin müəyyənləşdirilməsi prosesində sahə ölçülməsi zamanı müəyyən problemlə üzləşilir. Məsələn, Nəsimi rayonunun Mirəli Qaşqay küçəsində yerləşən 1 və 2 mərtəbəli evlərdə aparılan ölçmə işləri vaxtı sahənin daxili divarlar üzrə hesablanması sakinlərin narazılığına səbəb olub. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətindən (AQC) məsələ ilə bağlı bildirilib ki, mənzillər satış zamanı tikinti altı sahə də daxil olmaqla təqdim olunur, lakin çıxarış yalnız daxili sahəyə görə verilir. Bu isə kompensasiya hesablanarkən uyğunsuzluq yaradır.

AQC bu zaman vahid yanaşmanın tətbiqini təklif edir: ya tikintialtı sahə rəsmi sənədlərdə açıq şəkildə göstərilməli, ya da satış təcrübəsində bu məsələyə hüquqi məhdudiyyət qoyulmalıdır. Əks halda, kompensasiya hesablanarkən həm daxili, həm də tikintialtı sahə nəzərə alınmalıdır.

**Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin üzvü Vüqar Bayramov** kompensasiya mexanizminin təkmilləşdirilməsini təklif edir. Deputatın fikrincə, xüsusən kiçik sahəli mənzillərin sahiblərinə yalnız pul kompensasiyası verilməsi onların eyni ərazidə yeni mənzil əldə etməsini çətinləşdirir. Bu baxımdan alternativ mexanizm kimi həmin ərazidə tikilən yeni binalarda mənzil ayrılması daha məqsədəuyğundur. Deputatın sözlərinə görə, dövlət ehtiyacları üçün torpaq alındıqda da vətəndaşlara əlavə sosial dəstək mexanizmləri nəzərdən keçirilə bilər.

### Ədalətli köçürmə və "yerində yenilənmə"

Beynəlxalq təcrübədə şəhərsalma və yenidənqurma proseslərində "ədalətli kompensasiya və sosial balans" adlı əsas prinsipə önəm verilir. Bu baxımdan qardaş Turkiyədə "Şəhər transformasiyası" proqramı diqqətdə saxlanılır. Bu, köhnəlmiş və ya təhlükəli tikililərin müasir, dayanıqlı və sosial cəhətdən əlverişli yaşayış sahələri ilə əvəz edilməsi prosesidir.

Bu proqram yaşayış keyfiyyətini artırmağı, ictimai məkanları bərpa etməyi və şəhər kimliyini qoruyaraq inklüziv mühit yaratmağı hədəfləyir. Başqa sözlə, bu zaman köhnə binaların zəlzələyə davamlığına, müasir tikililərlə əvəzlənməsinə üstünlük verilir, eyni zamanda, hər kəs üçün əlçatan, sosial və "yaşıl" məkanların yaradılması, iqlim dəyişikliyinə davamlı infrastrukturun qurulması, şəhər mühitinin yenilənməsi ilə yerli iqtisadiyyatın dəstəklənməsi kimi amillər də diqqətdə saxlanılır.

Bu layihələr çərçivəsində binaların təmiri və ya yenidən tikilməsi ilə yanaşı, ətraf mühitin abadlaşdırılması da həyata keçirilir. Eyni zamanda, qəzalı binalar sökülərkən sakinlərə 3 seçim – yeni tikilidə mənzil, pul kompensasiyası və ya dövlət tərəfindən dəstəklənən uzunmüddətli kredit təqdim olunur. Bu modeldə əsas məqsəd vətəndaşın eyni ərazidə qalmasını təmin etməkdir.

Almaniyada isə şəhər yenilənməsi zamanı "Sosial icarə fondu" mexanizmi tətbiq olunur. Məsələn, söküntü zonalarında yaşayan aztəminatlı ailələr üçün müvəqqəti yaşayış və ya subsidiyalı kirayə mənzil təmin edilir. Kompensasiya yalnız bazar dəyərinə görə deyil, sosial vəziyyət nəzərə alınmaqla diferensial şəkildə müəyyənləşdirilir. Fransada böyük şəhərlərdə həyata keçirilən yenidənqurma layihələrində "Yerində yenilənmə" prinsipinə üstünlük verilir. Sakinlər müvəqqəti köçürüldükdən sonra həmin ərazidə tikilmiş yeni mənzillərə qaytarılır. Bu məqsədlə dövlət və bələdiyyə orqanları tərəfindən tikinti şirkətləri ilə üçtərəfli müqavilə bağlanılaraq sosial kvota tətbiq edilir.

Bakıda həyata keçirilən söküntü və yenidənqurma prosesi şəhərin təhlükəsizliyi və müasir urbanistik inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Lakin prosesin sosial ədalət prinsipi əsasında aparılması, kompensasiya mexanizmlərinin daha şəffaf və vahid meyarlara əsaslanması mühüm şərtdir. Beynəlxalq təcrübə də göstərir ki, ən səmərəli model yalnız bazar dəyərinə əsaslanan pul kompensasiyası deyil, vətəndaşa seçim imkanı verən, yerində yenilənməni və sosial təminatı ehtiva edən kompleks mexanizmdir. Bu baxımdan Azərbaycanda da kompensasiya siyasətinin təkmilləşdirilməsi, xüsusilə kiçik sahəli mənzillərin sahibləri üçün alternativ mexanizmlərin tətbiqi aktual məsələlərdən biri kimi qalır.

Bakıda aparılan söküntü və yenidənqurma prosesləri göstərir ki, mövcud hüquqi baza, ümumilikdə, prosesi tənzimləsə də, təcrübədə kompensasiya məbləğlərinin hesablanması, sahələrin müəyyən edilməsi və sosial təminat mexanizmləri ilə bağlı boşluqlar qalmaqdadır. Bu baxımdan bir sıra konkret normativ dəyişikliklər məqsədəuyğun görünür. Məsələn, "Ədalətli kompensasiya" anlayışının qanunvericilikdə dəqiq təsbiti vacibdir. Çünki mülkiyyət hüququnun qorunması ilə bağlı normalar Milli Məclis tərəfindən qəbul edilmiş müəyyən qanunlarda ümumi şəkildə əksini tapsa da, "Ədalətli kompensasiya" anlayışının konkret formulunun müəyyənləşdirilməsinə ehtiyac var.

Bütün bunlar nəzərə alınaraq kompensasiya təkcə cari bazar dəyərinə deyil, eyni ərazidə alternativ mənzil əldə etmə imkanına, köçürmə və sosial uyğunlaşma xərclərinə əsaslanan kompleks hesablamaya əsaslanmalıdır. Qanunvericilikdə "Yerində təminat prinsipi" ayrıca norma kimi təsbit edilməlidir. Bu dəyişiklik mülkiyyət hüququnun real müdafiəsini gücləndirər və sosial narazılığı azaldar.

Kompensasiyanın müəyyənləşdirilməsində sahə ölçülməsi ilə bağlı vahid standartın tətbiqi də mühüm amillərdən biridir. Hazırda daxili sahə və tikintialtı sahə arasında uyğunsuzluq kompensasiya mübahisələrinin əsas səbəblərindəndir. Buna görə də mənzil satışı və dövlət qeydiyyatı zamanı sahə anlayışları vahid metodologiya əsasında müəyyənləşdirilməlidir. Çıxarışlarda isə həm daxili sahə, həm də tikintialtı sahə ayrıca göstərilməlidir. Söküntü zamanı kompensasiya hesablanarkən hər iki parametr nəzərə alınmalı və bu, Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalarda açıq ifadə olunmalıdır. Bu dəyişiklik normativ boşluğu aradan qaldırar və qiymətləndirmə prosesində şəffaflığı artırar.

Kiçik sahəli mənzillər üçün alternativ yollar axtarılmalı, xüsusilə 40 kvadratmetrdən az sahəsi olan mənzillər üçün ayrıca mexanizm hazırlanmalıdır. Eyni zamanda, kiçik sahəli mənzillərin sahiblərinə pul kompensasiyası əvəzinə, həmin ərazidə tikilən yeni binalarda minimum sosial standartlara uyğun mənzil təqdim edilməsi qanunla nəzərdə tutulmalıdır.

Yuxarıda qeyd edilənlərlə bərabər, sosial ədalət prinsipinə daha uyğun model ola bilən subsidiyalı ipoteka mexanizminin tətbiqi də diqqətdə saxlanılmalı, müstəqil qiymətləndirmə institutu gücləndirilməli, qiymətləndirmə prosesində subyektivliyi azaltmaq məqsədilə yalnız akkreditə olunmuş müstəqil ekspertlərin fəaliyyətinə xüsusi önəm verilməli və hər bir söküntü layihəsində qiymətləndirmə hesabatları ictimaiyyət üçün açıq reyestrdə yerləşdirilməlidir. Bütün bunlarla bərabər, "bir pəncərə" hüquqi müdafiə mexanizmi işə salınmalı, söküntü zonaları üzrə xüsusi hüquqi məsləhət mərkəzləri yaradılmalıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 46** **23 fevral 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Reklam haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 iyul tarixli 456 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Reklam haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 iyul tarixli 456 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 5 noyabr tarixli 200 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1034 (Cild I); 2025, № 9, maddə 868) cədvəlində “İqtisadi fəaliyyət növü” sütunu üzrə 2-ci risk dərəcəsinin iyirmi dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

“Lotereya, idman mərc və kazino oyunlarının təşkili üzrə fəaliyyət”.

**2.** “Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası”nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 avqust tarixli 295 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1433 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 16 dekabr tarixli 392 nömrəli Qərarı) aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

“12. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrində kazino oyunlarının təşkilinə lisenziya” blankının forması təsdiq edilsin (13 nömrəli əlavə).

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252 (Cild I); 2024, № 6 (II kitab), maddə 729; 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş “İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların Siyahısı”nın 2-ci hissəsinin 151-ci sətrindən “, kazino oyunları üçün xüsusi masalar” sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 fevral tarixli 83 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 215, № 7, maddə 912) ilə təsdiq edilmiş “Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar”ın əlavəsində - “Valyuta sərvətləri və milli valyutanın mənbəyi və istifadə məqsədi barədə məlumatların təqdim edilməsi forması”nın 5-ci hissəsinə “O Mərc oyunu” sözlərindən sonra “O Kazino oyunları” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 48** **24 fevral 2026-cı il, Bakı şəhəri**

**“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 235-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 235-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471, № 10, maddə 1180, № 11, maddə 1253, № 12 (II kitab), maddə 1461; 2025, № 9, maddə 879, № 10, maddə 974) ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadə Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndin iyirmi ikinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi üçüncü abzas əlavə edilsin:

“sabit tarif - elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi.”;

1.2. 7.13-cü bəndin üçüncü abzasının birinci cümləsindən “yalnız” sözü çıxarılsın və həmin cümləyə “tarifə” sözündən sonra “, habelə sabit tarifə” sözləri əlavə edilsin;

1.3. 8.2-ci bənd üzrə:

1.3.1. birinci abzasın birinci cümləsinə “göstərişlərinə” sözündən sonra “, habelə sabit tarifə” sözləri əlavə edilsin;

1.3.2. ikinci abzasın birinci cümləsinə (ikinci halda) “istehlakçıya” sözündən sonra “elektrik enerjisinin sayğacla müəyyənləşən dəyəri və sabit tarif barədə” sözləri əlavə edilsin;

1.4. 8.4-cü bəndə “enerjisinə” sözündən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.5. 8.14-cü bəndə, 8.18-ci bəndin birinci cümləsinə, 8.22-ci, 9.1-ci, 9.10-cu, 10.3-cü və 10.13-cü bəndlərə ismin müvafiq hallarında “haqqı” sözündən sonra ismin müvafiq hallarında “və sabit tarif” sözləri əlavə edilsin;

1.6. 8.22-ci və 8.28-ci (hər iki halda) bəndlərə “elektrik enerjisi sərfinə” sözlərindən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.7. 9.13.2-ci yarımbəndə “müəyyənləşən” sözündən sonra “dəyəri və sabit tarif barədə” sözləri əlavə edilsin;

1.8. 9.13-cü bəndin səkkizinci abzasının ikinci cümləsinə (hər iki halda) “dəyərini” sözündən sonra “və sabit tarifi” sözləri əlavə edilsin;

1.9. Qaydalara 1 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə istehsal, dəmir yolu nəqliyyatı, elektrikləşdirilmiş şəhər nəqliyyatı müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi” üzrə:

1.9.1. 10-cu hissənin birinci abzasından “yalnız” sözü çıxarılsın və həmin hissəyə “göstərişinə” sözündən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.9.2. 11-ci hissənin birinci cümləsinə “tarif” sözündən sonra “və _____ manat sabit tarif” sözləri əlavə edilsin;

1.9.3. 12-ci hissənin ikinci abzasına “elektrik enerjisinə” sözlərindən sonra “və sabit tarifə” sözləri, “haqqı” sözündən sonra “və sabit tarif” sözləri əlavə edilsin;

1.9.4. 16-cı hissəyə “haqqını” sözündən sonra “və sabit tarifi” sözləri əlavə edilsin;

1.10. Qaydalara 2 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi” üzrə:

1.10.1. 9-cu hissənin birinci abzasından “yalnız” sözü çıxarılsın və həmin abzasa “göstərişinə” sözündən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.10.2. 10-cu hissənin birinci cümləsinə “tarif” sözündən sonra “və _____ manat sabit tarif” sözləri əlavə edilsin;

1.10.3. 11-ci hissənin ikinci abzasına “elektrik enerjisinə” sözlərindən sonra “və sabit tarifə” sözləri, “haqqı” sözündən sonra “və sabit tarif” sözləri əlavə edilsin;

1.10.4. 15-ci hissəyə “haqqını” sözündən sonra “və sabit tarifi” sözləri əlavə edilsin;

1.11. Qaydalara 3 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə büdcədən maliyyələşdirilən təşkilat (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi” üzrə:

1.11.1. 9-cu hissənin birinci abzasından “yalnız” sözü çıxarılsın və həmin abzasa “göstərişinə” sözündən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.11.2. 10-cu hissənin birinci cümləsinə “tarif” sözündən sonra “və _____ manat sabit tarif” sözləri əlavə edilsin;

1.11.3. 11-ci hissənin ikinci abzasına “elektrik enerjisinə” sözlərindən sonra “və sabit tarifə” sözləri, “haqqı” sözündən sonra “və sabit tarif” sözləri əlavə edilsin;

1.11.4. 15-ci hissəyə “haqqını” sözündən sonra “və sabit tarifi” sözləri əlavə edilsin;

1.12. Qaydalara 4 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi” üzrə:

1.12.1. 3-cü hissədən “yalnız” sözü çıxarılsın və həmin hissəyə “göstərişinə” sözündən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.12.2. 4-cü hissənin birinci cümləsinə “tarif” sözündən sonra “və _____ manat sabit tarif” sözləri əlavə edilsin;

1.13. Qaydalara 7 nömrəli əlavə - “Enerjitəchizatı müəssisəsinin nümayəndələri tərəfindən məişət abonentinə (özünəxidmət üsulu tətbiq olunmadıqda) təqdim edilən elektrik enerjisi sərfinə görə birtipli Ödəniş Sənədi” üzrə:

1.13.1. adına “elektrik enerjisi sərfinə” sözlərindən sonra “və sabit tarifə” sözləri əlavə edilsin;

1.13.2. “tarif” xanasından sonra aşağıdakı məzmunda xana əlavə edilsin:

| | |
|---|---|
| sabit tarif | |

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187, № 9, maddə 874) ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nın 1-ci hissəsinə “Elektrik enerjisi” sözlərindən sonra “(o cümlədən sabit tarif)” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 357 nömrəli, 10 dekabr tarixli 385 nömrəli və 25 dekabr tarixli 412 nömrəli, 2026-cı il 2 fevral tarixli 34 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə”nin “222210. “Elektrik enerjisi haqqının ödənilməsi” maddəsinə “dəyərinin” sözündən sonra “və sabit tarifin” sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2756 (Cild I); 2024, № 1, maddə 83) ilə təsdiq edilmiş “Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri”nin 2.1.12-ci yarımbəndinin ikinci abzasına “dəyərinin” sözündən sonra “və sabit tarifin” sözləri, üçüncü abzasına “sərfiyyatla” sözündən sonra “və sabit tariflə” sözləri əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 184 (Cild I); 2024, № 1, maddə 83) ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri”nin 2.1.12-ci yarımbəndinin ikinci abzasına “dəyərinin” sözündən sonra “və sabit tarifin” sözləri, üçüncü abzasına “sərfiyyatla” sözündən sonra “və sabit tariflə” sözləri əlavə edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 100 (Cild I); 2024, № 1, maddə 75) ilə təsdiq edilmiş “Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri”nin 2.1.10-cu yarımbəndinin ikinci abzasına “dəyərinin” sözündən sonra “və sabit tarifin” sözləri, üçüncü abzasına “sərfiyyatla” sözündən sonra “və sabit tariflə” sözləri əlavə edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 314 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 733; 2025, № 10, maddə 993) ilə təsdiq edilmiş “Qapalı paylayıcı şəbəkələrin fəaliyyət Qaydaları”nın 4.6.4-cü yarımbəndinə “dəyərini” sözündən sonra “və sabit tarifi” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 47** **23 fevral 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 oktyabr tarixli 748 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41 (Cild I); 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qaydalara 4 nömrəli əlavə – “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında dövlət məvacibinin, aylıq əlavənin və digər təminatlarla bağlı ödənişlərin həyata keçirildiyi valyutaların növləri” cədvəlinə aşağıdakı məzmunda 1.4-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 1.4-1. | Bəhreyn Krallığı |

**2.** Həmin Qaydalara 5 nömrəli əlavə – “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar” cədvəlinə aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 10-1. | Bəhreyn Krallığı, Manama şəhəri | 3,462 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 49** **24 fevral 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun və Azərbaycan Respublikası Prezidentinin “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” 2025-ci il 17 fevral tarixli 331 nömrəli və “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2026-cı il 27 yanvar tarixli 592 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 879 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və ikinci abzasda “təmsilçilik xərclərinin” sözləri “təmsilçilik müavinətinin” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş Qaydaları” üzrə:

2.1. adında, 1.1-ci bənddə (hər iki halda) ismin müvafiq hallarında “təmsilçilik xərcləri” sözləri ismin müvafiq hallarında “təmsilçilik müavinəti” sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənddə “əri (arvadı), uşaqları və 18 yaşına çatmış əmək qabiliyyəti olmayan övladları” sözləri “arvadı (əri), 18 yaşına çatmamış uşaqları və övladlığa götürdüyü şəxslər, həmçinin 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladları və övladlığa götürdüyü şəxslər” sözləri ilə əvəz edilsin;

2.3. 3-cü hissənin adında “təminat” sözü “xidmət (sığorta)” sözləri ilə əvəz edilsin;

2.4. 3.1-ci bəndin birinci cümləsində və 7.5-ci bənddə “onlarla birlikdə yaşayan” sözləri “onların” sözü ilə əvəz edilsin;

2.5. 3.2-ci bəndin birinci cümləsində “onlarla birlikdə yaşayan” sözləri “onların” sözü ilə, “təminat” sözü isə “xidmət (sığorta)” sözləri ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda 3.3-cü, 3.4-cü, 7.2-1-ci və 7.9-cu bəndlər əlavə edilsin:

“3.3. Xarici ölkədəki nümayəndələr və onların ailə üzvlərindən xidməti zərurətlə bağlı, həmçinin növbəti məzuniyyət zamanı müxtəlif tipli tibbi arayışlar və tibbi test nəticələri tələb olunduqda xərclər təsdiqedici sənədlər əsasında xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.

3.4. Xarici ölkədəki nümayəndələr xidməti zərurətlə bağlı üçüncü dövlətə ezamiyyətə göndərildikdə, ezamiyyət müddətinin günlərinə uyğun əlavə səyahət sığortası tələb olunduqda xərclər təsdiqedici sənədlər əsasında xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.”;

“7.2-1. Xarici ölkədəki nümayəndəyə onunla birlikdə yaşayan 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə onun dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 2 (iki) faizi həcmində bu Qaydaların 1.4-cü bəndi nəzərə alınmaqla aylıq müavinət ödənilir.”;

“7.9. Xidmət dövründə xarici ölkələrdəki nümayəndələr və onlarla birlikdə yaşayan ailə üzvləri Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə müəyyən olunmuş güzəştlərdən, imtiyazlardan və immunitetlərdən istifadə edirlər.”;

2.7. 4-cü hissə, 6.3-cü və 7.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

“4. Nəqliyyat və yüklərin daşınması xərcləri

4.1. Xarici ölkələrə nümayəndə təyin olunduqda və geri çağırıldıqda, habelə xidmətinə xitam verildikdə xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək və Azərbaycan Respublikasına qayıtmaqla əlaqədar tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla nəqliyyat xərcləri (onların xarici dövlətlərdə yaşadıqları ünvandan limana (vağzala) kimi olan nəqliyyat xərcləri də daxil olmaqla), habelə yüklərin daşınması xərcləri (ailə üzvlərinin hər biri üçün 80 kq-dək, yükün ümumi çəkisi 240 kq-dan artıq olmamaqla) bu məqsədlər üçün xərclər smetasında nəzərdə tutulmuş vəsaitlər hesabına müvafiq təsdiqedici sənədlər əsasında ödənilir.

4.2. Xarici ölkədəki nümayəndələrə verilən növbəti məzuniyyətlə əlaqədar onların və ailə üzvlərinin, habelə xarici ölkədəki nümayəndələrin növbəti məzuniyyətə çıxıb-çıxmamasından asılı olmayaraq, onların ailə üzvlərinin ildə 1 (bir) dəfə Azərbaycan Respublikasına gəlmək və xarici ölkədəki nümayəndələrin xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə qayıtmaq həddində nəqliyyat xərcləri, həmçinin ailə üzvünün (üzvlərinin) ölümü ilə əlaqədar xarici ölkədəki nümayəndələrin, onların ailə üzvlərinin Azərbaycan Respublikasına gəlməsi və xidmət keçdiyi dövlətə qayıtması ilə bağlı nəqliyyat xərcləri bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş qaydada ödənilir.”;

“6.3. Təhsil xərcləri bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulmuş normadan yuxarı olduğu təqdirdə, həmin fərq nümayəndənin şəxsi vəsaiti hesabına ödənilir.”;

“7.6. Xarici ölkələrdəki nümayəndələrin xaricdə xidmət etdikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”na uyğun olaraq Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük ödənişləri tutulmur.”;

2.8. 5.1-ci bəndin birinci cümləsində “və onlarla birlikdə yaşayan ailə üzvlərinin fəaliyyət göstərdikləri ölkələrdə” sözləri “tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla fəaliyyət göstərdikləri ölkələrdə məişət ləvazimatı (mebel, inventar və avadanlıqlar) ilə komplektləşdirilmiş” sözləri ilə, ikinci cümləsində “onlarla birlikdə yaşayan” sözləri “onların” sözü ilə əvəz edilsin;

2.9. 5.3-cü bənd ləğv edilsin;

2.10. 5.11-ci bəndin ikinci cümləsində “nümayəndə ilə birlikdə yaşayan” sözləri “nümayəndənin” sözü ilə əvəz edilsin;

2.11. 6-cı hissənin adında “haqqı ilə bağlı müavinət” sözləri “xərcləri” sözü ilə əvəz edilsin;

2.12. 6.1-ci bənddə “nümayəndə ilə birlikdə yaşayan və ümumi təhsil müəssisəsində oxuyan ailə üzvlərinin təhsil haqqı ilə bağlı müavinətin” sözləri “nümayəndənin ümumi təhsil pilləsi üzrə (məktəbəhazırlıq, ibtidai, ümumi orta və tam orta təhsil) təhsil alan ailə üzvlərinin təhsil xərclərinin” sözləri ilə əvəz edilsin;

2.13. 6.2-ci bənddə “haqqı ilə bağlı müavinət xarici ölkədəki nümayəndə ilə birlikdə yaşayan və ümumi təhsil müəssisəsində oxuyan” sözləri “xərcləri xarici ölkədəki nümayəndənin ümumi təhsil pilləsi üzrə təhsil alan” sözləri ilə əvəz edilsin;

2.14. 7.1-ci bənddə “xərci” sözü “müavinəti” sözü ilə əvəz edilsin;

2.15. 7.2-ci bənddə “yaşına çatmış əmək qabiliyyəti olmayan övladları” sözləri “yaşından yuxarı əmək qabiliyyəti olmayan övladları və övladlığa götürdüyü şəxslər” sözləri ilə əvəz edilsin;

2.16. 7.7-ci bənddə “onunla birlikdə yaşayan ailə üzvü öldükdə, onların cəsədinin” sözləri “onların ailə üzvləri xaricdə vəfat etdiyi təqdirdə, nəşin” sözləri ilə əvəz edilsin;

2.17. həmin Qaydalara əlavə - “Xarici ölkələrdəki nümayəndələrin yaşayış sahəsi ilə təminat norması” üzrə:

2.17.1. yuxarı sağ küncdə “təmsilçilik xərclərinin” sözləri “təmsilçilik müavinətinin” sözləri ilə əvəz edilsin;

2.17.2. “Qeydlər”in 1-ci hissəsində “nümayəndə ilə birlikdə yaşayan” sözləri “nümayəndənin” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*I Türkoloji Qurultay – 100*

# Türkoloji Qurultayın yubileyi Bakıda elmi məclislərlə qeyd edildi

**I Türkoloji Qurultayın 100 illik yubileyi ilə bağlı Bakıda keçirilən daha bir nüfuzlu elmi məclis – Xəzər Universiteti, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzi və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin birgə təşkil etdiyi beynəlxalq elmi simpozium başa çatıb.**

1 əsr əvvəl ilk Türkoloji Qurultayın keçirildiyi tarixi "İsmailiyyə" sarayında – Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında yubiley məclislərinə yekin vurulub. AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli akademiyada keçirilən beynəlxalq konfrans kimi, Xəzər Universitetinin evsahibliyi etdiyi simpoziumun da yüksək səviyyədə təşkil edildiyini və uğurla başa çatdığını vurğulayıb.

Qeyd edilib ki, hər iki ünvanda təşkil edilmiş toplantı və müzakirələrdə Azərbaycanla yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Rusiyanı təmsil edən alimlər iştirak ediblər. Dilçilik, tarix, etnoqrafiya, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq sahələri üzrə məruzələrdə Birinci Türkoloji Qurultayın elmi irsi yenidən və sistemli şəkildə dəyərləndirilib, müasir türkoloji araşdırmalar üçün yeni metodoloji yanaşmalar irəli sürülüb.

**İstanbul Universitetinin dünya şöhrətli türkoloqları Məhərrəm Erkinin və Əhməd Cəfəroğlunun yetirməsi, professor Osman Fikri Sərtkaya XQ-yə müsahibəsində bildirdi ki, I Türkoloji Qurultayın özü kimi, 1 əsrlik yubileyinin də Azərbaycan paytaxtında yüksək təntənə ilə keçirilməsi ilə Türk xalqlarının mənəvi aləminə yeni bir tarix yazıldı:**



– 1926-cı ildə indiki AMEA-nın tarixi zalında keçirilmiş I Türkoloji Qurultay XX əsrdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının elmi və mədəni həyatında dönüş nöqtəsi olmuşdur. Həmin qurultayda türk xalqlarının dili, tarixi, ədəbiyyatı, əlifba siyasəti, etnoqrafiyası və mədəni inkişafı ilə bağlı strateji əhəmiyyət daşıyan qərarlar qəbul edilmiş, Türk dünyasının aparıcı alim və ziyalıları ilk dəfə geniş miqyasda bir elmi platformada bir araya gəlmişdir.

Mürəkkəb və ziddiyyətli siyasi şəraitə baxmayaraq, qurultayın ən mühüm tarixi nəticələrindən biri latın qrafikalı ortaq türk əlifbasının qəbul edilməsi olmuşdur. Bu qərar yalnız texniki islahat deyil, həm də türk xalqları arasında elmi və mədəni inteqrasiyanın əsasını qoyan mühüm ideoloji addım kimi qiymətləndirilməlidir. Birinci Türkoloji Qurultayın elmi irsi bu gün də aktualdır və müasir türkologiyanın inkişafına istiqamət verən mühüm mənbə rolunu oynayır.

Konfrans çərçivəsində təqdim etdiyim məruzə Dədə Qorqud kitabı ilə bağlıdır. "Dədə Qorqud kitabındakı bəzi şəxs adlarının yeni oxunuşları haqqında fikirlər" mövzusuna həsr edilib və klassik mətnlər üzərində aparılan filoloji təhlillərin hələ də yeni nəticələr verdiyini göstərir. Türk dünyasında ən çox tədqiq olunan abidələrdən biri olan "Dədə Qorqud" irsində belə, hələ də elmi baxımdan aydınlaşdırılmalı olan məqamlar mövcuddur. Bu fakt türk mədəniyyətinin və tarixi yaddaşının dərinliklərinin gələcək tədqiqatlar üçün geniş imkanlar açdığını sübut edir.

Bu baxımdan Azərbaycanda son illər həyata keçirilən elmi və mədəni təşəbbüsləri yüksək qiymətləndirirəm. Xüsusilə vurğulamaq istərdim ki, 11 sentyabr 2024-cü ildə Bakıda Beynəlxalq Türk Akademiyası və Türk Dil Kurumunun birgə təşkilatçılığı ilə keçirilən "Türk Dünyası Ortaq Əlifba Komissiyası"nın üçüncü iclasında 34 hərfdən ibarət Ortaq Türk Əlifbası layihəsi üzrə ümumi razılıq əldə edilmişdir. Bu qərar türk xalqları arasında vahid elmi və mədəni məkanın formalaşdırılması istiqamətində mühüm mərhələ olmaqla, bir əsr əvvəl – 1926-cı il Bakı Türkoloji Qurultayında qarşıya qoyulmuş idealların real nəticəyə çevrildiyini göstərir.

Onu da qeyd edim ki, Azərbaycanın zəngin elmi və mədəni potensialı tarixən region üçün mühüm rol oynamışdır. Xüsusilə Bakı şəhəri XIX əsrin sonu – XX əsrin əvvəllərində Türk dünyasının aparıcı elmi və mədəni mərkəzlərindən biri kimi tanınmış, maarifçilik hərəkatının, mətbuatın, ədəbiyyatın və elmi fikrin inkişafında xüsusi yer tutmuşdur. Bu gün Bakının yenidən Türk dünyasının elmi əməkdaşlıq və inteqrasiya platformalarından birinə çevrilməsi həmin tarixi missiyanın müasir dövrdə davam etdiyini aydın şəkildə nümayiş etdirir.



Digər tərəfdən, məni Bakıya və Azərbaycana mənəvi baxımdan bağlayan çox önəmli bir amil də var. Bu, həyatımda və elmi yolumda dərin iz qoymuş müəllimlərimlə – xüsusilə də dünya miqyasında tanınan görkəmli türkoloq Əhməd Cəfəroğlu ilə bağlı xatirələrim və elmi bağlılığımdır. Eyni zamanda, müəllimlərimdən biri olan Zəki Vəlidi Toğan da mənim formalaşma prosesimdə mühüm rol oynamış şəxsiyyətlərdəndir. Bu, mənim üçün ayrıca bir şərəf tarixçəsidir.

Lakin etiraf etməliyəm ki, Əhməd Cəfəroğlu ilə qurduğum elmi və insani münasibətlər həyatımın ən dəyərli səhifələrində xüsusi yer tutur. Hər dəfə Bakıya gələndə həmin mənəvi bağlar, həmin unudulmaz xatirələr məni yenidən o illərə qaytarır.

Köprülünün tələbəsi olan Əhməd Cəfəroğlu filologiya doktoru kimi İstanbul Universitetində - əvvəlcə Türk dili tarixi kafedrasında dosent, sonra professor vəzifəsində çalışmışdır. Böyük alim Mehmet Fuad Köprülünün vəfatından sonra həmin kafedraya rəhbərlik etmişdir. O, eyni zamanda, universitet nəzdində fəaliyyət göstərən Türkiyat İnstitutunun direktoru olmuşdur.

Əhməd Cəfəroğlu yalnız nəzəri biliklərlə kifayətlənən bir tədqiqatçı deyildi. Onu yaxından tanıyanlar haqlı olaraq qeyd edirdilər ki, o, türkçülüyü yalnız kitablardan öyrənən və ya başqalarından eşidən bir alim deyil, bütün varlığı ilə bu ideyanı yaşadan və təmsil edən bir şəxsiyyət idi.

Alimin müxtəlif ölkələrdə və müxtəlif dillərdə nəşr olunmuş 350-dən artıq elmi əsəri vardır. O, Avropanın aparıcı universitetlərində türk dili və türkologiya mövzularında mühazirələr oxumuş, bir müddət Roma Sapienza Universitetində də fəaliyyət göstərmişdir. Eyni zamanda, bir sıra nüfuzlu beynəlxalq elmi cəmiyyətlərin və akademiyaların üzvü olmuşdur.

İllər sonra anladım ki, elmi taleyimdə son dərəcə böyük mənəvi çəkisi olan bir gerçəklik də vardır: mən Fuad Köprülü məktəbinin davamçısı olan bir alimin – Əhməd Cəfəroğlunun yetirməsi olmuşam. Bu, elmi nəsil baxımından son dərəcə məsuliyyətli və şərəfli bir mövqedir. O, məni beynəlxalq və nüfuzlu elmi dairələrdə təqdim edərkən həmişə xüsusi təmkin və etimadla danışar, ən çətin elmi işlərin belə öhdəsindən gələ biləcəyimi vurğulayardı.

Həmin illərdə SSRİ-nin Bakıda nəşr olunan nüfuzlu "Sovetskaya türkologiya" jurnalının redaksiya heyəti bütün sayları onunla yanaşı, mənə də göndərirdi. Bu gün həmin nadir nüsxələr bir çox məşhur kitabxana və arxivlərdə belə tapılmayan qiymətli bir kolleksiya kimi şəxsi arxivimdə qorunur. Bu toplu, eyni zamanda, Əhməd Cəfəroğlunun mənəvi və elmi yadigarıdır.

Bu dəfə Bakıya səfərim də məni həmin düşüncələr və xatirələrlə yenidən üz-üzə qoydu. Təşkilatçılara dərin minnətdarlığımı bildirirəm. Bu gün Azərbaycanı azad, müstəqil, bütün əraziləri üzərində suverenliyini bərpa etmiş bir dövlət kimi görmək və bunu bilavasitə burada – Bakıda hiss etmək mənim üçün xüsusi qürur və böyük mənəvi məmnunluq mənbəyidir.

**Egey Universiteti Türk ləhcələri və ədəbiyyatları kafedrasının müdiri Yılmaz Özkaya isə Bakıda təşkil edilmiş beynəlxalq elmi məclislərin, aparılan geniş müzakirələrin 1 əsr əvvəl yazılmış tarixin önəmini və qarşıya qoyduğu hədəfləri getdikcə bütövləşən və güclənən Türk dünyasına layiqincə çatdırdığını söylədi:**



– 100 il əvvəl Bakıda keçirilmiş I Türkoloji Qurultay türk xalqlarının elmi və mədəni həyatında yeni mərhələnin başlanğıcı olmuşdur. Dünyanın müxtəlif ölkələrindən gəlmiş tanınmış türkoloqların iştirakı ilə keçirilən bu mötəbər toplantıda ortaq əlifba, dil, ədəbiyyat, tarix, mədəniyyət və mənəvi irsin öyrənilməsi istiqamətində fundamental müzakirələr aparılmış, türkologiya elminin gələcək inkişaf xətti müəyyənləşdirilmişdir. Məhz həmin qurultaydan sonra türk dilləri və mədəniyyətləri üzrə tədqiqatlar daha sistemli xarakter almış, yeni elmi istiqamətlər formalaşmışdır.

1 əsr sonra eyni tarixi məkanda, Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən "Birinci Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans qurultayın ideya müəlliflərinin, təşkilatçılarının və iştirakçılarının xatirəsinin anılması baxımından bütün Türk dünyası üçün mühüm elmi-mənəvi hadisədir. Bu konfrans 1926-cı il qurultayının ideya miqyasını və strateji dərinliyini müasir elmi kontekstdə yenidən gündəmə gətirmişdir.



Tarixi Bakı Qurultayı yalnız elmi forum deyil, humanitar elmlərin ümumi inkişaf trayektoriyasını dəyişən bir platforma idi. Həmin toplantıda ilk dəfə olaraq bütün türk xalqlarının dili, ədəbiyyatı, yazı sistemi və mədəni irsinin vahid elmi yanaşma və ortaq metodoloji əsaslar üzərində öyrənilməsi ideyası irəli sürülmüşdür. Bu yanaşma sonrakı onilliklər ərzində Azərbaycanda, Türkiyədə, Qazaxıstanda və ümumilikdə Türk dünyasında aparılan tədqiqatların formalaşmasına ciddi təsir göstərmişdir.

Bir əsrlik zaman məsafəsi göstərir ki, qurultayın irəli sürdüyü ideyalar aktuallığını itirməmiş, əksinə, XXI əsrdə yeni elmi və texnoloji imkanlar fonunda yenidən canlanmışdır. Əgər 1926-cı ilin iştirakçıları vahid elmi platforma və ortaq araşdırma mühiti arzusunda idilərsə, bu gün rəqəmsal korpuslar, yazılı abidələrin elektron kodlaşdırılması, müasir reyestrlər, elmi verilənlər bazaları və beynəlxalq tədqiqat şəbəkələri həmin ideyanın real elmi infrastruktur səviyyəsində həyata keçirilməsinə imkan yaradır.

Bu baxımdan Bakıda keçirilən beynəlxalq konfrans və simpozium yalnız tarixi xatirənin yaşadılması ilə məhdudlaşmır, eyni zamanda, türk xalqlarının elmi əməkdaşlığında yeni mərhələyə – praktik və texnoloji cəhətdən dəstəklənən qarşılıqlı fəaliyyət modelinə keçidin rəmzi kimi tarixə yazıldı.

Bugünkü beynəlxalq elmi konfrans çərçivəsində Azərbaycanın bütün Türk dünyası ilə elmi və mədəni dialoqu xüsusi əhəmiyyət daşıyır. Türk dünyasını təmsil edən hər bir ölkə vahid intellektual məkanın mühüm elmi mərkəzi kimi çıxış edir və bu mərkəzlərin hər biri özünəməxsus akademik ənənəyə söykənir. Azərbaycan elmi mühiti isə Bakı elmi məktəbinin klassik irsindən başlayaraq müasir tədqiqat institutlarına və innovativ araşdırma mərkəzlərinə qədər uzanan davamlı inkişaf xətti ilə seçilir. Məhz bu konfrans müxtəlif elmi məktəbləri bir platformada birləşdirərək tarixi elmi irslə çağdaş elmi dinamikanın üz-üzə gəldiyi və qarşılıqlı şəkildə zənginləşdiyi intellektual məkan formalaşdırır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında verilmiş sərəncam Türk dünyasının elmi-mədəni irsinə, alim və ziyalılarına göstərilən yüksək dövlət qayğısının və ehtiramın bariz nümunəsidir. Bu təşəbbüs təkcə tarixi hadisənin anılması deyil, eyni zamanda, türk xalqları arasında elmi əməkdaşlığın, ortaq dəyərlər üzərində qurulan mədəni inteqrasiyanın və intellektual həmrəyliyin daha da möhkəmləndirilməsinə yönəlmiş strateji addım kimi dəyərləndirilməlidir.

Bakıda təşkil edilmiş mötəbər elmi məclislər iştirakçılar üçün həm mənəvi kədər, həm də dərin qürur və sevinc hissi ilə müşayiət olunur. Kədər onunla bağlıdır ki, qurultayın görkəmli iştirakçılarının böyük bir qismi 1937-ci il repressiyaları zamanı faciəli şəkildə məhv edilmişdir. Sevinc isə ondan qaynaqlanır ki, onların irəli sürdüyü ideyalar bu gün də yaşayır, inkişaf edir və Türk dünyasının müxtəlif ölkələrindən olan alimlər yenidən bir araya gələrək elmi və mədəni dialoqu davam etdirirlər. Bu mənada, bugünkü konfrans yalnız tarixi yaddaşın bərpası deyil, eyni zamanda, faciələrlə kəsilmiş elmi irsin XXI əsrdə yeni məzmunla davam etdirilməsinin rəmzidir.

Bakı təntənələri başa çatdı və bir daha göstərdi ki, türkologiyanın aktual problemləri yalnız ayrı-ayrı ölkələrin elmi gündəliyi çərçivəsində deyil, vahid elmi məkan və ümumi strateji baxış əsasında araşdırıldıqda daha dolğun və səmərəli nəticələr verir. Müxtəlif ölkələri və elmi məktəbləri təmsil edən alimlərin məruzələri türkologiya elminin çağdaş mərhələdə multidissiplinar yanaşmaya, koordinasiyalı tədqiqatlara və institusional əməkdaşlığa ehtiyac duyduğunu aydın şəkildə ortaya qoydu. Əsas nəticələrindən biri də o oldu ki, türk dünyasının zəngin tarixi, dili, ədəbiyyatı və mədəni irsi üzrə aparılan tədqiqatlar bundan sonra daha sistemli şəkildə əlaqələndirilməli, ortaq layihələr, birgə elmi proqramlar və davamlı tədqiqat şəbəkələri vasitəsilə inkişaf etdirilməlidir.

**Xəzər Universitetində keçirilən simpoziumda iştirak edən Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin direktoru, professor Kamal Çiçək qəzetimizə müsahibəsində toplantının yalnız elmi baxımdan deyil, eyni zamanda, siyasi-mədəni və mənəvi baxımdan da mühüm əhəmiyyət daşıdığını vurğuladı:**

– Türkiyədən, Azərbaycandan və digər türkdilli ölkələrdən nüfuzlu alimlərin bir araya gələrək ortaq dil, tarix və ədəbiyyat problemlərini müzakirə etməsi türk dünyasında elmi və mədəni davamlılığın canlı nümunəsidir.

Kamal Çiçək bildirib ki, bu cür görüşlər XX əsrin əvvəllərində formalaşmış maarifçilik və birlik ideyalarının bu gün də yaşadığını və yeni nəsil tədqiqatçılar tərəfindən inkişaf etdirildiyini açıq şəkildə nümayiş etdirir. Müasir şəraitdə bu beynəlxalq simpoziumu yalnız elmi müzakirə platforması kimi dəyərləndirmək kifayət deyil. Onun fikrincə, tədbir son illərdə bütün türk dünyasını əhatə edən regional və beynəlxalq əməkdaşlıq prosesləri ilə sıx bağlıdır və bu baxımdan Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən ortaq siyasi, iqtisadi və mədəni təşəbbüslərlə ideya baxımından üst-üstə düşür.



Xəzər Universitetində təşkil olunan bu beynəlxalq toplantı tarixi dəyər daşıyır və Türk dünyasında elmi inteqrasiyanın dərinləşdirilməsi yolunda mühüm mərhələdir. Onun sözlərinə görə, bu simpozium müxtəlif ölkələrdə formalaşmış elmi məktəblər arasında körpü rolunu oynayır, tədqiqatçıların qarşılıqlı əməkdaşlığını gücləndirir və yeni ortaq layihələrin yaranmasına zəmin yaradır.

**Bakı məclislərinin daha bir iştirakçısı Kırşəhir Ahi Evran Universitetinin dosenti, türkoloq Osman Kabadayı isə açıqlamasında qeyd etdi ki, bu toplantılar yalnız yubiley xarakteri daşımadı, eyni zamanda, türk dünyasının elmi və mədəni gələcəyi baxımından mühüm bir mərhələ oldu:**



– I Türkoloji Qurultayın 100 illiyi münasibətilə keçirilən beynəlxalq elmi məclislər Türk dünyasının müxtəlif bölgələrindən gəlmiş alimləri, ziyalıları və fikir adamlarını eyni məqsəd ətrafında bir araya gətirdi. Fevralın 27-dən keçirilən görüşlərdə, aparılan müzakirələrdə iştirak edən tədqiqatçıları birləşdirən əsas amal türk dillərinin, ədəbiyyatlarının, ortaq tarixin və ümumi mədəni irsinin qorunması və gələcək nəsillərə daha mükəmməl ötürülməsi arzusunun gerçəkləşməsinə yeni dəstək elmi dəstək qazandırılması idi.

Xəzər Universitetində keçirilən simpoziumda "I Bakı Türkoloji Qurultayında qazax aydınları" mövzusunda məruzəm maraqla qarşılandı. Müzakirələr göstərdi ki, simpozium yalnız keçmişin elmi mirasına istinad etmir, eyni zamanda, müasir dövrdə türkoloji tədqiqatların qarşısında duran problemlərin həllinə yönəlmiş yeni baxışları və metodoloji yanaşmaları da ortaya qoyur.

Möhtəşəm yubiley tədbirlərinin təşkilində əməyi olan təşkilatçılara, alimlərə və dəstək göstərən bütün qurumlara təşəkkürümüzü bildiririk. Türk dünyasının elmi və mədəni birliyi yolunda atılanbelə addımlar ümumi gələcəyimizin möhkəmlənməsinə xidmət edir.

Müsahiblərimizin də dedikləri kimi, Bakı konfransı və simpoziumu, müxtəlif görüşlər və təmaslar bir daha göstərdi ki, 100 il əvvəl Bakıda bir araya gəlmiş görkəmli türkoloqların daşıdığı ideallar bu gün yenidən canlanır və yeni elmi nəsil bu zəngin irsi layiqincə davam etdirir. Belə beynəlxalq elmi platformalar həm də Türk dünyasında ortaq elmi məkanın yaradılmasına, tədqiqatçıların birgə layihələrə cəlb olunmasına və akademik əməkdaşlığın möhkəmlənməsinə imkanlar açır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

Türkoloji Qurultay – 100

# 100 il sonra "danışan" məxfi sənədlər

## *Arxiv materiallarının xronoloji transkripsiyası, seçmə tərcümələr və şərhlər*

***(əvvəli 18, 20, 24 və 26 fevral 2026-cı il tarixli saylarımızda)***

27 yanvar 1926-cı il tarixində Qarayev əlifbanın qurultayda qəbulu narahatlığı ilə bağlı Stalinə məktub ünvanlayıb, ondan kömək istəyir:



**Moskva**
**VKP (b) MK-ya, Stalinə Qarayevin məlumatı.**

*25 fevralda Türkoloji Qurultay açılır. Qurultayın gündəliyindəki məsələlər arasında yeni türk əlifbası məsələsi də var. Nəzərəçarpacaq sayda nümayəndə yeni əlifbaya qarşı çıxacaq. Bizim məlumatımıza görə, yeni əlifbanın əsas əleyhdarları arasında Tatarıstan, Başqırdıstan, Qırğızıstan nümayəndələri, bəzi özbək və Krım nümayəndələri də olacaq. Qurultaya Türkiyədən beş nəfər dəvət olunub, onların əksəriyyəti və ya demək olar ki, hamısı yeni əlifbaya qarşı çıxış edə bilər.*

*Lakin bizim ilkin məlumatımıza görə, qurultay nümayəndələrinin yarıdan çoxu yeni əlifbanı dəstəkləyəcək. Güman edirik ki, qurultayda əhəmiyyətli sayda kommunistlər olacaq. Azərbaycan Kommunist Partiyası artıq qurultayın təşkili və ona rəhbərlik məsələləri üzrə bir sıra tədbirlər qəbul etmişdir. Sizin təlimatınızı gözləyirik.*

*Qarayev*

* * *

Azərbaycan Kommunist (Bolşevik) Partiyasının müraciətləri qurultaydan əvvəl planlaşdırılmış "siyasi süzgədən keçirmə" prosesidir. Fəal latın əlifbası tərəfdarı olan nümayəndələrin seçilməsi məqsədilə konfranslar təşkil edilməsi, tədbirlər "elmi müzakirə" adı ilə aparılsa da, əslində qurultayda latın əlifbasının qəbulunu təmin etmək üçün əvvəlcədən hazırlanmış süni kadr seçimi idi. Qurultaydan öncə keçiriləcək Azərbaycan müəllimləri konfransı da əvvəlcədən ictimai rəy formalaşdırmaq üçün "bəyannamə qəbul etmək" məqsədi daşıyırdı. Qarayevin Stalinə məktubu isə əsl narahatlığın ifşası idi: 27 yanvar 1926-cı il tarixli məktubda qurultayın nəticələrindən əmin olmadığını və bir çox nümayəndənin yeni əlifbaya qarşı çıxacağını bildirir. Bu, göstərir ki, SSRİ daxilində türk xalqları arasında latın əlifbası məsələsində yekdil mövqe yoxdur və ciddi ideoloji parçalanma riski var. Qarayev mərkəzi hakimiyyətin müdaxiləsini və direktivləri, Stalindən təlimat gözləməsi qurultayın formal müstəqilliyini inkar edir və açıq-aydın göstərir ki, qərarlar Kreml tərəfindən idarə olunur. Azərbaycan Kommunist Partiyası artıq bir sıra tədbirlər görsə də, Moskvanın siyasi xəttinə uyğun addımlar atmağa hazırdır.

İdeoloji məqsəd türk xalqlarının ümumi yazı sistemini formalaşdırmaqdır. Əlifba texniki məsələ yox, qurultaya təsir imkanlarının əvvəlcədən qurulması, türk xalqları arasında bir ortaq mədəni-kodlaşdırma sisteminin yaradılması baxımından vacib sayılırdı. Latın əlifbasına keçid həm panislamizmin və pantürkizmin zəifləldilməsi, həm də rus qrafikasına sonrakı keçidin mərhələləşdirilməsi üçün siyasi vasitə idi.

Mirzoyan da əlifbanın qəbulu ilə bağlı narahatlığını gizlətmir, 6 fevral 1926-cı ildə Rostov Vilayət Komitəsinin katibi Mikoyana belə bir məzmunda məktub ünvanlayır:



**Rostov-Don**
**Partiya Vilayət Komitəsinin katibi Mikoyana**

25 fevralda Bakıda Ümumittifaq Türkoloji Qurultayı açılır. Qurultayda mədəni işlərə dair ciddi məsələlər müzakirə olunacaq, əsasən isə sənə yaxşı tanış olan – müsəlman xalqları üçün latın əlifbasının məqsədəuyğunluğu və zəruriliyi məsələsi müzakirə olunacaq. Qurultayda bizim üçün latın əlifbasının fəal tərəfdarlarının olması vacibdir.

Bütün türk, dağlı və müsəlman respublikaları, vilayətləri və bölgələri, hətta Şimali Osetiya vilayəti belə Qurultayda təmsil olunur. Dağıstanda isə qurultayda təxminən on beş yer ayrılıb.

Təkidlə tələb olunur ki, bu nümayəndələrin hamısı qurultaya latın əlifbasının fəal tərəfdarları olaraq seçilsin.

Səndən xahiş edirəm ki, bu məsələyə xüsusi diqqət yetirəsən və bu işdə bizə hərtərəfli kömək göstərəsən. Əgər bacarsan, nümayəndələrin hər biri üzrə bizə şəxsi məlumat da təqdim et.

*(İmza) Mirzoyan*

6/II–26

* * *

Bəli, bu sənəd (Mirzoyanın Mikoyana göndərdiyi 6 fevral 1926-cı il tarixli məktub) 1926-cı il Bakı Türkoloji Qurultayı ətrafında aparılan ideoloji hazırlıq və kadr siyasətini aydın şəkildə üzə çıxarır. Aşağıda sənədin əsas məğzini və nəticələrini strukturlaşdırılmış formada təqdim edirəm:

Rəsmi olaraq "mədəni məsələlərin" müzakirəsi adı altında çağırılan qurultay latın əlifbasına keçidi qəbul etdirmək üçün siyasi manevr kimi istifadə olunurdu. Məktubda deyilir ki, ən əsas məsələ latın əlifbasının müsəlman xalqlar üçün məqsədəuyğun olub-olmamasıdır. Tərəfdar olmayan nümayəndələrin qarşısı inzibati yolla alınır. Mirzoyan açıq şəkildə bildirir ki, qurultayda iştirak edəcək bütün nümayəndələr "latın əlifbasının fəal tərəfdarları" olmalıdırlar. Bu, ideoloji plüralizmə yer verilmədiyini və əvvəldən nəticənin formalaşdırıldığını sübut edir.

Dağıstandan 15 nümayəndə ayrılıb, amma hamısı nəzarət altındadır, bu nümayəndələrin seçimində tərəfkeşlik prinsipinə riayət olunur. Məktubda Mikoyandan həmin nümayəndələrin şəxsiyyətləri üzrə fərdi məlumat istənilir. Bu isə açıq şəkildə ideoloji süzgəcdən keçirmə deməkdir. Qurultayın nəticələri əvvəlcədən müəyyənləşdirilib. Mirzoyan Mikoyandan bu məsələyə xüsusi diqqət yetirməyi və kömək etməyi tələb edir, bu da göstərir ki, "elmi müzakirə" formal xarakter daşıyır, Sovet dövlətinin total nəzarət aparatı işləkdir.

Aşağıdakı siyahını təqdim etməyə də bilərdik, lakin məhz SSRİ-dən şəxsən dəvət olunan şərqşünas, türkoloq və ictimai-mədəni xadimlərinin siyahısında adının üstündən xətt çəkilməsi, dəvətə münasib bilinməməsi diqqətimizi çəkdi. Siyahıdakı son abzas və qeyd məsələnin latın əlifbası ilə bağlılığına dəlalət edir:

"Bütün bu hesablamalara əsasən, qurultayda səsvermə hüququna malik 132 nümayəndə iştirak edəcək.

Onlardan 75 nəfəri qəti şəkildə yeni latın əlifbasının qəbulunu dəstəkləyəcək, yalnız 30 nəfər isə ərəb əlifbasının islah edilmiş variantını müdafiə edəcək.

Qalan 27 nəfərin mövqeyi naməlumdur.

Biz güman edirik ki, yalnız bu 75 səsə əlavə olaraq, həm həmin 27 nəfər arasında, həm də ərəb əlifbasının islahat tərəfdarları arasında ümumilikdə əlavə ən azı 10 səs də əldə edəcəyik (qeyd: 65 nəfər qəti şəkildə latın əlifbasına tərəfdardır)".

Bu siyahı başqa bir arxiv səhifəsində yenilənir:



* * *

Bu sənəd Bakı Türkoloji Qurultayında latın əlifbasının qəbulunun təmin olunması üçün aparılan gizli səs hesablamalarını və potensial dəstəyin siyasi qiymətləndirilməsini əks etdirir: qurultayda 132 səsvermə hüququ olan nümayəndə iştirak edəcək; 75 nəfəri "qəti şəkildə" latın əlifbasının lehinə çıxış edəcək (möhkəm tərəfdar kimi); yalnız 30 nəfər ərəb əlifbasının islah edilmiş variantını dəstəkləyir; 27 nəfərin mövqeyi qeyri-müəyyəndir, bu onların ya tərəddüddə olduğunu, ya da nəzarətdən kənar qaldığını göstərir. Müəlliflər ehtimal edirlər ki, bu qeyri-müəyyən və ya zəif müxalif qrupun içindən ən azı 10 səsi latın əlifbası xeyrinə əldə etmək olar.

Bu siyahı SSRİ rəhbərliyinin qurultay öncəsi mövqelərinin rəqəmlərlə qiymətləndirilməsi və əks mövqe tutanların siyahıdan çıxarılması prosesinə işarə edir. Adların üzərindən xətt çəkilməsi, həmin şəxslərin ya dəyişdirildiyini, ya da siyasi baxımdan "etibarsız" sayılıb qurultaydan kənarlaşdırıldığını göstərir.

Üzərindən xətt çəkilən adlar:
Samurskiy (Dağıstan)
Qayaz Maksudov (Tatarıstan)
Həbib Zeyni (Başqırdıstan)
Muxaddin Qurban Əliyev (Tatarıstan)
Atnaqulov (Kazan)

Adının üzərindən xətt çəkilənlər təkcə SSRİ vətəndaşları olmamışlar. Məsələn:
Myt Hartman (Almaniya)



Sven Qedun (Stokholm – İsveçrə)
Gize (Almaniya)
Sami Rüfet (Türkiyə)
Professor Tomsen (Kopenhagen)
Yuliya Nemet (Macarıstan)
Bursalı Məmməd Tahir bəy (Türkiyə)
Q.Ştumme (Leypsig)



***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

Q.Yakob (Berlin)
B.Munkaçi (Budapeşt)

Onlar latın əlifbasına qarşı mövqedə dayanmışlar, ya ərəb əlifbasının islahatını müdafiə etdikləri, ya da müəyyən edilməmiş mövqeləri səbəbilə ideoloji cəhətdən etibarsız sayılmışlar. Bu səbəbdən qurultaya dəvət olunmaqdan imtina edilib, sonradan siyahıdan çıxarılıblar. Sənədin aşağı hissəsindəki siyasi hesabatla (75 qəti tərəfdar, 30 ərəb əlifbasını dəstəkləyən, 27-si qeyri-müəyyən) tam uyğun gəlir. Yəni bu siyahı ideoloji süzgəclə tənzimlənib və etibarsız hesab edilən şəxslər kənarlaşdırılıb. Bu fakt əvvəlki sənədlərdə təsvir olunan qurultaya əvvəlcədən siyasi müdaxilə və yönləndirmə fəaliyyətini bir daha sübut edir.

Bu faktı təsdiq edən başqa bir sənəd də var:

Azərbaycan Fövqəladə Komissiyası
Azərbaycan Sovet Sosialist Respublikası
Əks-inqilabi casusluq, banditizm və əks-inqilabi mübarizə üzrə Fövqəladə Komissiya



Bu Azərbaycan Fövqəladə Komissiyasının Türkoloji Qurultay ərəfəsində siyasi mövqe bölgüsü ilə bağlı daxili xüsusi məlumat sənədidir.

№ 1868/c
6 fevral 1926-cı il, Bakı
I Ümumittifaq Bakı Türkoloji Qurultay haqqında
"K" seriyası. Azərbaycan Kommunist (B) Partiyası MK katibi yoldaş Qarayevə
Yalnız şəxsən.

Bizdə olan məlumatlara əsasən, Türkoloji Qurultayda qüvvələrin nisbəti aşağıdakı kimidir:
– Ərəb əlifbasını dəstəkləyənlər – 61 səs
– Latın əlifbasını dəstəkləyənlər – 36 səs
– Rus əlifbasını dəstəkləyənlər – 13 səs
– Mövqeyi müəyyən olunmamışlar – 17 nəfər

Bu sizə məlumat üçün çatdırılır.
İmza:
ÇEKA müavini Qorboçenko
SKRO rəisi Morov
(Qeyd: SKRO — xüsusi nəzarət orqanı kimi çıxış edən bölmədir)

Sənədin üzərindəki qırmızı ştamplar:
"Ç.K. Azərbaycan Kom. Partiyası (B) MK Katibliyi"
"Qeyd № 853/c, 7 fevral 1926-cı il"

* * *

Bu sənəd, Türkoloji Qurultayda yazı sistemi məsələsi ilə bağlı real mövqe balansını göstərən kəşfiyyat-analitik məlumatdır. Təhlükəsizlik orqanlarının Qarayevə birbaşa çatdırdığı bu rəqəmlər aşağıdakı nəticəni göstərir ki, ərəb əlifbasını dəstəkləyənlər əksəriyyətdədir (61 nəfər); latın əlifbasını dəstəkləyənlər sayca azdır (36 nəfər); 13 nəfər rus əlifbasına üstünlük verir (bu Moskvayönümlü təbəqənin təsirini göstərir); 17 nəfərin isə mövqeyi qeyri-müəyyəndir– bu qrup hələ də manipulyasiya edilə bilər. Bu sənəd SSRİ rəhbərliyinin və yerli partiya orqanlarının qurultay nümayəndələrinin siyasi loyallığını sistemli şəkildə izlədiyini, əlifba məsələsinin tam ideoloji nəzarətə alınması üçün kəşfiyyat və partiya aparatının birgə çalışdığını sübut edir.

Hansı naməlum səbəbdənsə xaricdən dəvət olunan nümayəndələrə "münasibət" dəyişir. Arxiv qovluğunun 33-cü səhifəsində yeni siyahı ilə tanış oluruq:

8 fevral 2026-cı il tarixində Zifeld S.Ağamalıoğluna məktubla müraciət edir:

Əziz Səməd ağa!

Artıq ikinci həftədir ki, mən köhnə qrip və bronxit xəstəliyinə tutulmuşam və Təşkilat Komissiyasının işindən kənarlaşmışam. Buna baxmayaraq, mənə hər gün komissiya üzvlərinin işi ilə bağlı məlumatlar çatdırılır, bu məni getdikcə daha da narahat edir.

ZK (Zaqafqaziya Komitəsi) yoldaş Qarayevi Türkiyəyə göndərmək üçün göndəriş yazanda, sonda qurultay və əlifba məsələsinə dair qüvvələrin ehtimal olunan nisbəti haqqında da məlumat tələb olundu. O zaman Həbib aşağıdakı rəqəmləri təqdim etdi:

Latın əlifbasını dəstəkləyənlər – 76 nəfər
Ərəb əlifbasını dəstəkləyənlər – 30 nəfər
Qalanları tərəddüddədir.

Çox dar dairədə və qeyri-dəqiq məlumatlara əsaslanaraq Məmmədzadə komitəyə öz rəqəmlərini verdi. Mən isə başqa rəqəmlər təqdim etdim, onlar qurultayın daha dərin tərkibi əsasında hazırlanmışdı:

Latın əlifbasını dəstəkləyənlər – 36 nəfər
Ərəb əlifbasını dəstəkləyənlər – 73 nəfər
Rus əlifbasını dəstəkləyənlər – 14 nəfər
Tərəddüd edənlər – 14 nəfər

Qüvvələrin nisbəti bizim işimiz üçün heç də ümidverici deyil.

Bu necə baş verdi?

Bizim əziz yoldaşlarımız, eləcə də sən, Səməd ağa, uzunmüddətli sükutdan sonra "yeni türk mədəniyyəti gəncliyi"nin təmsilçiləri kimi çıxış etdiniz və hamını öz "mifologiyanız"la çaşdırdınız...

Mən etiraf edirəm ki, əvvəlcə vəziyyəti belə görmürdüm və bu qədər özünəarxayın davranışa təslim olmuşdum. Lakin sonra məlum oldu ki:

1. Çobanzadə ərəb əlifbasının tərəfdarıdır;
2. Kırımlılar ərəb əlifbasının tərəfdarıdır;
3. Özbəklər ərəb əlifbasının tərəfdarıdır;
4. Aşmarin kilsə-slavyan əlifbasının, yəni Kiril yazısının tərəfdarıdır;
5. Qazax nümayəndələri ərəb əlifbasının tərəfdarıdır;
6. Samoyloviç ya ərəb əlifbasını, ya da ruslaşdırmanı dəstəkləyir, istənilən halda səninlə latın əlifbası barədə mübahisədə razılaşmamışdı;
7. Bir sıra digər professorlar – kimisi rus yönümlüdür, kimisi Avropa yönümlü, lakin latın əlifbasına qarşıdırlar;



8. Pavloviç isə sonradan ərəb əlifbasının təkmilləşdirilməsi ilə bağlı ümumiləşdirmə və icmal xarakterli çıxışlar etməyə, təriflərə başladı..., guya ərəb əlifbası dəyişdirilə bilməz və sairə.

Mənim dəfələrlə və israrla irəli sürdüyüm təkidli təkliflərimə baxmayaraq, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Krım və xüsusilə Başqırdıstanda latın əlifbasına keçidlə bağlı ərəbçilər arasında təbliğat işi aparılmalı və təşkilati tədbirlər görülməli idi. Bu günə qədər edilməyib. İndi isə artıq gecdir!!! Ərəbçilər öz işlərini gördülər. Biz isə hər şeyi əldən verdik! Əgər qurultayda vəziyyəti dəyişmək mümkün deyilsə, onda ərəbçilərə artıq heç bir pul xərcləməyə dəyməz, çünki bu artıq mənasızdır.

Bundan əlavə, partiya təşkilatlarımızın rəhbərlərinə tapşırılmalıdır ki, nümayəndələri seçərkən bəzi yerlərdə, məsələn, Belorusiyada, Türkmənistanda (eləcə də Dağıstanda və Qafqazın digər yerlərində) İKP və Konfransın Təşkilat Komissiyasının bütün tövsiyələrini rəhbər tutsunlar. Çünki bu komissiyaların bir hissəsi, məktəb müəllimləri və s. bitərəf və ərəbçi adamlardır. Onların ətrafına isə daha çox zəhərli və fanatik məktəb müəllimləri toplanır, böyük maskalar altında fəaliyyət göstərirlər.

Səməd ağa! Mən ən çox Sizə inanıram və bütün düşüncələrimi Sizə yönləndirmişəm. Bu məsələdə ümidim yalnız Sizin səsinizə və təsirinizədir.

..."İnformatorlarımızın" optimist məlumatlarına əsaslanmamalıyıq. Yalnız bundan sonra biz obyektiv tədbirlər görüb, qurultayda latınçılar üçün zərər təşkilati addımlar ata bilərik. Hörmətli Məmmədzadə, mən bu barədə Ruhulla ilə də danışmışam.

İşimizdə uğurlar arzulayıram. Sizin A.Zifeld

* * *

Bu məktub bütövlükdə 1926-cı il Bakı Türkoloji Qurultayı ərəfəsində əlifba məsələsi üzrə siyasi, təşkilati və ideoloji gərginlikləri əks etdirən nadir sənəddir. Məktubun əsas xətti 1926-cı ildə Bakıda keçiriləcək I Türkoloji Qurultay öncəsində əlifba islahatı və latın əlifbasına keçid, qarşıdurmada baş verən mübarizələri əks etdirir, həmin dövrdə, qeyd olunduğu kimi, türkdilli xalqların ortaq yazı sistemi məsələsi SSRİ rəhbərliyi üçün ciddi bir ideoloji savaş mövzusuna çevrilmişdi. Məktub müəllifi Zifeld bu mübarizələrin birbaşa içindədir və ələlxüsus latın əlifbasının qızğın tərəfdarıdır.

Rəsmi təqdim olunan rəqəmlərdə latınçılar üstünlük təşkil edir:
Latın – 76 nəfər
Ərəb – 30 nəfər
Tərəddüd edənlər – qalanlar

Əsl vəziyyət isə tam əksidir. Zifeld yazır:
Latın – 36
Ərəb – 73
Rus – 14
Tərəddüdlü – 14

Latın tərəfdarlarının çox azlıq təşkil etdiyi etiraf edilir və bu, müəllif üçün ciddi təşviş mənbəyidir. Ərəb əlifbasının tərəfdarları uzun müddətdir təşkilatlanıblar, ərazilərdə təbliğat aparıblar (Türkmənistan, Qazaxıstan, Başqırdıstan və b. yerlərdə), məktəb müəllimləri və bitərəf nümayəndələr vasitəsilə mövqelərini gücləndiriblər. Latınçılar isə gecikiblər və indi artıq "çox gecdir".

Zifeld məktubda ciddi bir təhlükəyə işarə edir: təşkilat komissiyalarına seçilən bəzi "bitərəf" nümayəndələr əslində ərəb əlifbasının gizli tərəfdarlarıdırlar, onların ətrafında "zəhərli" və "fanatik" təbliğatçılar cəmləşib və bu proseslər "böyük maskalar altında" həyata keçirilir. O, məktubda siyasi və təşkilati cəbhədə atılmalı olan addımları sadalayır, məsələn, partiya rəhbərlərinə nümayəndə seçkilərində diqqətli olmalı, İKP və Təşkilat Komissiyasının tövsiyələrinə birmənalı əməl edilməli, əgər vəziyyət dəyişməyəcəksə, ərəbçi nümayəndələri dəstəklənməməli, çünki bu iş uduzulub.

Məktub təkcə siyasi hesabat deyil, şəxsi etiraf və son ümiddir. Zifeld S.Ağamalıoğluna səmimi şəkildə müraciət edir, "ən çox Sizə inanıram" deyərək onu latınçılığın son ümidi kimi görür – "ümidim yalnız sizin səsinizə və təsirinizədir!" deyə etiraf edir. Bu məktub həm daxili ideoloji savaşın, həm də latınlaşdırılmış təbliğatın zəifliyinin reallığını göstərir: əlifba dil məsələsi yox, ideoloji identiklik, millətçilik, ruslaşdırma və panislamçılıq – panturançılıq arasında gedən mədəni qarşıdurmanın əsas cəbhəsi idi. Latınçılar və ərəbçilər arasında aparılan mübarizə SSRİ rəhbərliyinin gözündə hansı ideoloji xəttin qalib gələcəyinə dair ölçü vahidi idi.

*Rəhim Hüseynzadə – 75*

# Fəal media qurucusu, yetkin jurnalist

**Dünən Azərbaycan Mətbuat Şurasında uzun illər media sahəsində çalışmış, istedadlı qələm sahibi, Əməkdar jurnalist Rəhim Hüseynzadənin anadan olmasının 75 illiyinə həsr olunmuş toplantı keçirildi. Mərasimdə yubilyarın tələbə yoldaşları, həmkarları, ailə üzvləri və yaxınları iştirak edirdilər.**




Məclisi giriş sözü ilə açan MŞ-nin sədri Rəşad Məcid əvvəlcə imzası Azərbaycan oxucusuna yaxşı tanış olan qocaman həmkarımızın mənalı həyat yolu və zəngin fəaliyyəti barədə məlumat verdi. O bildirdi ki, Rəhim Məhəmməd oğlu Hüseynzadə (əvvəllər soyadı Huşiməndi olub) 1951-ci il martın 3-də Gəncədə doğulub. Rəhimin atası Məhəmməd kişi 1945-ci ildə Cənubi Azərbaycanda Demokrat Firqənin rəhbərliyi altında yaradılmış milli hökumət zamanı böyük bir fədai dəstəsinin başçısı olub. "21 Azər" adı ilə tarixə düşmüş bu hərəkat nəticəsində Cənubi Azərbaycanda milli hakimiyyət qurulub.

Təəssüf ki, 1 il sonra taleyin acı istehzası ilə eyni gündə beynəlxalq imperializmin və İran irticaçı qüvvələrin əli ilə milli hökumət devrilib. İnqilabçılarla birgə Məhəmməd kişi də Şimali Azərbaycana mühacirət edərək Gəncə şəhərində məskunlaşıb. Rəhim 75 il əvvəl ulu Nizami yurdunda dünyaya göz açaraq, burada böyüyüb boya-başa çatıb.

O, 1958-1968-ci illərdə Gəncə şəhər 5 saylı orta məktəbdə təhsil alıb. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsini, 1983-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını (keçmiş Bakı Ali Partiya Məktəbi) fərqlənmə diplomu ilə bitirib.

Gənc jurnalist yeni yaradılan Neftçala rayonunda nəşr olunan "Gündoğar" qəzetində əvvəlcə ədəbi işçi, sonra isə şöbə müdiri işləyib. 1977–1992-ci illərdə qonşu Salyan rayonundakı "Qələbə" qəzetində məktublar şöbəsinin müdiri vəzifəsində çalışıb. 1985-ci ildə isə Azərbaycan Jurnalistlər İttifaqının nüfuzlu "Qızıl qələm" mükafatına layiq görülüb.

... MŞ sədrinin bu məlumatına əlavə olaraq bildirim ki, 1980-ci ildə gənc əməkdaşı olduğum "Bakinski raboçi" qəzetindən Salyan rayonuna ezamiyyətə getmişdim. Universitet yataqxanasından yaxşı tanıdığım Rəhim müəllimlə görüşmək üçün "Qələbə" qəzetinin redaksiyasına gəldim. Qəzetin redaktoru Mahmud Ağalarov gəlişimin məqsədini biləndə Rəhim Hüseynzadəni o ki var tərifl ədi. Dedi ki, onun gərgin əməyi sayəsində redaksiya poçtuna daxil olan oxucu məktublarının sayı kəskin artıb. Hər bir oxucu məktubunun arxasında sadə insanların arzu və təklifləri, bir çox hallarda haqlı giley-güzarları dayanır. Rəhim Hüseynzadə bu məktublarda qaldırılan haqlı şikayətləri çoxunun müsbət həll olunmasına nail olub. Bunun nəticəsidir ki, rayonda redaksiya ilə fəal oxucu kütləsi olduqca səmimi etimad mühiti yaranıb.

Aradan illər keçsə də, Salyanda mərd, savadlı, gözütox "Gəncəli jurnalist"in xətrini çox istəyirdilər və bu gün də onu unutmayıblar. Rəhim Hüseynzadə 1992–1996-cı illərdə artıq Salyan Rayon icra hakimiyyətində başçının köməkçisi və məsləhətçisi vəzifələrində işləyib. O, idarəetmə sahəsində də məsul vəzifələrin öhdəsindən uğurla gəlib.

Lakin Rəhim müəllimin qəlbi, arzu və düşüncələri daim mətbuatla bağlı idi. Balıq susuz yaşaya bilmədiyi kimi, o, da jurnalistikadan kənarda qala bilməzdi. Düzgün qərar verərək, 1998-ci ildə yenidən mətbuata qayıtdı. O dönəmdə oxucular arasında kifayət qədər populyar olan "Kriminal", "Vaxt", "Hürriyyət" qəzetlərində çalışdı. 2000-ci ildən "Qırxçıraq" adlı regional ictimai-siyasi qəzetinin baş redaktoru kimi fəaliyyət göstərdi. Bu mətbu nəşr Azərbaycan Mətbuat Şurasının (MŞ) təsisçiləri sırasına qəbul olundu.

Rəhim Hüseynzadə Mətbuat Şurasında işə də bu vaxt dəvət edildi. 2004-cü ildən MŞ-də icraçı katib vəzifəsində çalışdı. Bu qurum yeni yaranmışdı, o dönəmdə məhdud işçi qüvvəsi ilə fəaliyyət göstərirdi. Rəhim müəllim MŞ-nin o vaxtkı sədri Əflatun Amaşovun rəhbərliyi altında ölkəmizdə media – ictimaiyyət və media–hakimiyyət münasibətlərinin operativ şəkildə, düzgün və ədalətli tənzimlənməsi üçün əlindən gələni edirdi. Onun bu sahədəki səmərəli fəaliyyəti layiqincə qiymətdirilib. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Rəhim Hüseynzadə bir qrup həmkarı ilə birlikdə "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

Rəhim müəllim MŞ-nin icraçı katibi işlədiyi illərdə çap mətbuatının mövcud durumu, üzləşdiyi problemlər, onların həlli yolları barədə dərin araşdırmalar əsasında dəyərli məqalələr hazırlayaraq müxtəlif qəzetlərdə dərc etdirib. Onun mətbuatda Azərbaycan ədəbi dilinin qorunması ilə bağlı olduqca dəyərli qeyd, təklif və tövsiyələrini təkcə jurnalist cameəsi deyil, görkəmli dilçi-alimlərimiz də böyük maraq və razılıqla qarşılayıb.

...Bu zəruri məlumatdan sonra yubiley mərasimi səmimi sözlərlə, çoxsaylı təbriklərlə, xoş arzularla davam etdi. MŞ-nin sədri Rəşad Məcid qeyd etdi ki, hörmətli Rəhim müəllim xeyli müddət bu binanın divarları arxasında səmərəli fəaliyyət göstərib. Buna görə də tamamilə haqlı olaraq MŞ-ni onun öz evi, buradakıları insanları öz yaxınları və doğmaları hesab edə bilər.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov çıxışında dərin minnətdarlıq hissi ilə vurğuladı ki, uzun illər MŞ-də icraçı katib kimi çalışan Rəhim Hüseynzadə bu qurumu, sadəcə, bir struktur deyil, mətbuatın mənəvi qalası halına gətirmək üçün əzmlə, fədakarcasına çalışıb. Milli mətbuatımızda etik prinsipləri qorumaq onun üçün formal bir vəzifə deyildi, bu, onun ruhunun tələbi olub.

MŞ-nin nəzdində fəaliyyət göstərən Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu isə qeyd etdi ki, həyatda özünün ən yaxın dostlarından biri hesab etdiyi Rəhim müəllim doğma qəzetçilik sənətinə və ənənələrə bütün ruhu ilə bağlanan yaradıcı insandır. O, tribunalardan qışqıranlardan olmayıb. Amma hər cümləsi bir faydalı əmələ çağırışdır. O, səssiz qalanda da danışır – çünki onun susqunluğu belə mövqedir!

Toplantıda yubilyarın xeyli sayda tələbə yoldaşları iştirak edirdilər. Onlar bir-bir söz alaraq həmin an ürəklərindən dillərinə axan ən ülvi hissləri sözə çevirdilər. Rəhim müəlllimin tələbə dostlarından – 2-ci dərəcəli dövlət qulluqçusu İsrafil Qurbanov, AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi Əli Şamil, "İki sahil" qəzetinin baş redaktorunun müavini İsmayıl Hacıyev, Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru Akif Cabbarlı, "Azərbaycan müəllimi" və "Bizim yol" qəzetlərinin baş redaktorları Sarvan İbrahimov və Bahəddin Həzi, yubilyarın uşaqlıq və gənclik illərinin yaxın dostları – tarix üzrə fəlsəfə doktorları Səməd Bayramzadə və Pərviz Kazımi, şair Tariyel Umid, jurnalistlər Asif Məhərrəmov və Fərman Nəbiyev, Elbrus Həsənov, diaspor fəalı Qənimət Səfərov və başqaları Rəhim müəllimin yüksək insani keyfiyyətlərindən ürəkdolusu söz açdılar.

AMEA-nın elmi işçisi Nuranə Huşməndinin atası ilə bağlı çıxışı isə olduqca kövrək və həssas notlar üzərində qurulmuşdu. Bu səmimi, duyğusal sözləri "Dünyanın ən yaxşı atası"na yalnız və yalnız çox etibarlı bir qız övladı söyləyə bilərdi. Sonra isə Rəhim Hüseynzadənin nəvələri babalarının şəninə gözəl mahnı səsləndirdilər.

Sonda yubilyar təbriklərə və xoş arzulara görə razılığını bildirdi. Biz isə ona deyirik: çox hörmətli Rəhim müəllim, bugünkü toplantı bir daha göstərdi ki, yaşayıb-yaratmağa dəyər hələ! Azərbaycan oxucusu sizdən bundan sonra da bir-birindən maraqlı, dəyərli yazılar gözləyir. İnanırıq ki, siz onları intizarda qoymayacaqsınız!

***Məsaim ABDULLAYEV***
***XQ***

*Mirzə Sadıqcan–180*

# Azərbaycan tarının atası

**Milli musiqi düşüncəsini dəyişən və yeni mərhələyə daşıyan nadir sənətkarlardan biri də tarzən Mirzə Sadıq Əsəd oğlu Sadıqcandır. Sadıqcanın şöhrəti yalnız ölkəmizdə deyil, Qafqazın müxtəlif bölgələrində, o cümlədən İranda da geniş yayılıb, adı dövrün məşhur musiqiçiləri sırasında çəkilib. O, tarın konstruktiv imkanlarını genişləndirərək milli musiqimizin rəmzinə çevirib.**



Sadıqcan tarın texniki imkanlarını təkmilləşdirərək ona cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırmaqla səs diapazonunu genişləndirib. Bu yenilik muğamların daha dolğun, emosional və zəngin çalarlarda ifasına şərait yaradıb. Sadıqcan ilk dəfə tarı diz üstündə deyil, sinədə çalmağa başlayıb. Bu üsul həm ifaçının səhnə davranışını dəyişib, həm də alətin səsinin daha güclü və təsirli yayılmasına imkan verib.

Şuşada fəaliyyət göstərən ədəbi musiqi məclisləri gənc Sadıqcanın formalaşmasında mühüm rol oynayıb. Xüsusilə Mir Möhsün Nəvvabın yaratdığı "Məclisi-fəramuşan" və "Məclisi-xanəndə", eləcə də Xurşidbanu Natəvanın təşkil etdiyi məclislər dövrün tanınmış xanəndə və sazəndələrini bir araya gətirirdi. Sadıqcan da məhz bu yaradıcı mühitdə püxtələşərək, tar ifaçılığında özünəməxsus üslub formalaşdırıb.

Sənətkara verilən "can" təxəllüsü xüsusi məna daşıyır. Xalq rəssamı Lətif Kərimovun "Musiqi lüğətinin izahı" əsərində qeyd olunur ki, XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, o cümlədən Azərbaycanda xalq tərəfindən sevilən və dəyər verilən xanəndə və sazəndələrə "can" kimi fəxri adlar verilirdi.

Mirzə Sadığın yaradıcılığında muğam üçlüklərinə xüsusi yer verilir. O, Hacı Hüsü və Ata Bağdagüloğlu ilə birlikdə muğam üçlüyü yaradıb, daha sonra Şuşanın məşhur xanəndəsi Məşədi İsinin üçlüyündə çıxış edib. XIX əsrin 90-cı illərində Məşədi İsi ilə Sadıqcanın Mərkəzi Asiyaya birgə səfərləri Azərbaycan muğamının geniş coğrafiyaya yayılmasında mühüm rol oynayıb. Aşqabad, Səmərqənd, Daşkənd və digər şəhərlərdə keçirilən xalq şənliklərində onların çıxışları böyük maraqla qarşılanıb.

Sadıqcan 1880-ci ildə Təbrizdə Nasirəddin şah Qacarın oğlunun toy mərasiminə dəvət olunub. Sadıqcanın xanəndə Hacı Hüsü ilə birlikdə apardığı möhtəşəm məclisdə Hacı Hüsü ən yaxşı xanəndə, Sadıqcan isə ən gözəl tarzən kimi Nasirəddin şah Qacar tərəfindən "Şiri-Xurşid" ordeni ilə təltif olunub.

Yaradıcı düşüncə sahibi olan Sadıqcan həm də bəstəkar idi. "Mahur–Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Yetim Segah", "Çoban Bayatı" kimi muğamların yaranması onun bəstəçiliyi və tar ifaçılığı ilə bağlıdır. Bu muğamlar təkcə melodik quruluşuna görə deyil, emosional dərinliyi və struktur zənginliyi ilə də Azərbaycan muğam irsində xüsusi yer tutur.

Sadıqcanın "Orta Segah" və "Bayatı-Şiraz" muğamlarına bir neçə rəng bəstələməsi muğamların ifa zamanı daha dolğun, daha təsirli səslənməsinə imkan yaradıb. "Kafkazskoye obozreniye" qəzetində dərc olunan fikirlər Sadıqcanın sənətinin regional miqyasını göstərir. Qəzet yazırdı ki, onun çalğısı səlis, ifasının cazibə qüvvəsi olduqca güclüdür.

1901-ci ildə Şuşada təşkil olunmuş Birinci Şərq konsertində Sadıqcan ilk dəfə tarda "Mahur" muğamını tək, solo ifa edib. Dövri mətbuatda "Qafqazın birinci tarzəni" kimi xüsusi olaraq bəhs olunan Sadıqcan Qarabağın musiqi beşiyi Şuşada yaşayıb-yaradıb. O, 1902-ci ildə 56 yaşında vəfat edib. Qısa ömür yaşasa da, Azərbaycan musiqi tarixində silinməz iz qoyub. Bu gün Sadıqcanın adı çəkiləndə tarın taleyini dəyişən, muğamın ifadə imkanlarını genişləndirən və milli musiqi yaddaşında əbədi yaşayan sənətkar yada düşür.

***Ləman TƏHMƏZ***
***XQ***



**1849-cu ildə Biləcəridə kasıb bir ailədə dünyaya göz açan Ağa Musa Nağıyev fəhmi, zəkası və çalışqanlığı ilə Azərbaycanın ilk milyonçularından olmuşdu. Paytaxtın tozlu küçələrini əsrlərə meydan oxuyan 98 əzəmətli imarətlə bəzəyərək adını Azərbaycan tarixinə böyük əməlpərvər kimi yazdırıb.**

**Hələ 11 yaşında ikən çiyinlərindəki bir pudluq hambal palanının ağırlığına qatlaşan Musa üçün həyat erkən başlayan böyük imtahan idi.**

**Bakının tarixinə qızıl hərflərlə yazılmış I Türkoloji Qurultay 1 əsr əvvəl şəhərin möhtəşəm "İsmailiyyə" binasında keçirilmişdi. Bu günlərdə tarixi hadisənin 100 illik yubileyi də bu ünvanda qeyd edildi. Beləliklə, bu misilsiz tarixi hadisə və onu xalqımıza bəxş etmiş insanı yad edək.**

# 98 əzəmətli binanın sahibi

## *Milyonçu Ağa Musa Nağıyev xalqımıza belə bir zənginlik bəxş edib*

**Tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov bildirdi ki, zəhmətlə yığdığı pullarla aldığı kiçik torpaq sahəsi Nağıyevin həyatında dönüş nöqtəsi idi:**



– 1872-ci ilin fevralında çar hökuməti neftli torpaqlara tətbiq edilən iltizam sistemini ləğv edən fərman verdi. Bu qərardan sonra neftli torpaqlar satışa çıxarıldı. Ağa Musa da bir qədər pul toplayaraq torpaq almışdı. O zaman ağlına da gəlməzdi ki, kiçik torpaq sahəsində qazdırdığı quyudan su əvəzinə neft fontan vuracaq və bu neft bir müddət sonra onu Bakının ən iri maqnatlarından birinə çevirəcək.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakının arxitekturasına möhür vuran incilər arasında "İsmailiyyə" binasının xüsusi yeri var. Bu bina xalqımızın taleyinə şahidlik edən daşlaşmış yaddaş, eyni zamanda, bir atanın ömür boyu çəkəcəyi kədərin abidəsidir.

Ağa Musanın oğlu İsmayıl dövrün amansız xəstəliyi olan vərəmə tutulmuşdu. O, İsveçrədə müalicə alsa da, gənc yaşda vəfat etmişdi. İsmayılın ölümündən sonra Hacı Zeynalabdin Tağıyev dostunun bu dərin kədərini xalq üçün xeyirli bir işə çevirməklə nakam İsmayılın xatirəsini əbədiləşdirmək qərarına gəlir. O, dövrün nüfuzlu axundları ilə məsləhətləşərək Ağa Musanı oğlunun adına "Cəmiyyəti-xeyriyyə" binası olacaq "İsmailiyyə"ni tikdirməyə razı salır. 1908-ci ilin dekabrında "Qapan dibi" və "Şeytanbazar" adlanan, rus administrasiyasının məscid tikilməsinə icazə vermədiyi ərazidə "İsmailiyyə"nin təməli qoyulur. Bina Venesiyanın qotik üslublu saraylarına bənzər tikilir. Binanın pəncərələri sivri və yuxarıya doğru ucalan tağlarla əhatə olunur.

"İsmailiyyə"nin fasadında qızılı hərflərlə Quran ayələri, müdrik kəlamlar, müxtəlif yerlərində elmin, zəhmətin və xeyriyyəçiliyin önəmini vurğulayan yazılar həkk olunmuşdu. Binaya daxil olanda insanı geniş vestibül və möhtəşəm pilləkənlər qarşılayırdı. İkinci mərtəbədə yerləşən geniş akt zalı tavanındakı zərif bəzəkləri ilə o vaxtın ən dəbdəbəli tədbir məkanlarından biri sayılırdı.

Binada Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi, "Müsavat" partiyasının əsas mətbuat orqanı olan "Açıq söz" qəzetinin redaksiyası da yerləşirdi. Məhz bu səbəbdən "İsmailiyyə" milli oyanışın, azadlıq fəryadının səsinə çevrilmişdi. Təəssüf ki, 1918-ci il Mart hadisələri zamanı bina ermənilər tərəfindən əvvəlcə qarət edilmiş, sonra yandırılmışdı. Yanğın zamanı binaya dəyən zərərlə yanaşı, sarayda fəaliyyət göstərən qurumların da arxivi də məhv olmuşdu.

Sovet hakimiyyəti qurulandan sonra İsmailiyyə sarayının yararsız vəziyyətdə olması səbəbindən sökülməsinə qərar verilir. Lakin yerli əhali binanın qarşısına toplaşaraq etiraz edir və bundan sonra sarayın bərpasına başlanılır. Ümumi plan layihəsi olduğu kimi qalır, lakin fasadında bəzi dəyişikliklər edilir. Vaxtilə Quran ayələri və hədislərin yerləşdiyi medalyonlar isə beşguşəli qızılı ulduzlarla əvəz olunur.

1945-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinə verilir. Bu binada Azərbaycanı dünyaya tanıdan, elmimizi zirvələrə qaldıran nəhəng şəxsiyyətlər çalışıb. Akademiyanın ilk prezidenti görkəmli cərrahımız Mirəsədulla Mirqasımovdan tutmuş, neft dünyasının bilicisi Musa Əliyevə qədər hər kəsin burada izi var. Bu divarların şahid olduğu böyük bir sirr İkinci Dünya müharibəsinin taleyini dəyişən məşhur "Molotov kokteyli"nin əsl ixtiraçısı Yusif Məmmədəliyevlə bağlıdır. Molotov nə kimyaçı idi, nə də ixtiraçı. Sadəcə, silah Stalinə təqdim olunanda, o da Çörçilə göstərmək üçün Molotova verir. İngilis baş naziri də adını qoyur "Molotov kokteyli". Əslində isə ona "Məmmədəliyev kokteyli" desək, haqqını vermiş olarıq.

**Milyonçu və xeyriyyəçi Ağa Musa Nağıyevin nəvəsi, tarix elmləri üzrə fəlsəfə doktoru Dilarə Nağıyeva isə vurğuladı ki, babasında tikinti sahəsinə həvəsi babası oyatmışdı. Milyonçunun atası deyirmiş ki, Allah ev tikənin ömrünü uzun edər:**



– Babam varlandıqca Sabunçu, Ramana və Suraxanıda yeni neft yataqları alır, istehsalı genişləndirir. Başqa neft sənayeçilərindən fərqli olaraq Ağa Musa Nağıyev Qaraşəhərdə (indiki Ağ şəhər) kiçik "Neft emalı" zavodu tikdirir, sonra onu genişləndirir. Bununla bərabər, Ağa Musa hər il müxtəlif ali təhsil ocaqlarında oxuyan tələbələrin təhsilinə 8 min rubl ayırır. Onun tikdirdiyi Realnı məktəbin binasında bu gün Dövlət İqtisad Universiteti fəaliyyət göstərir.

1898-ci ildə Bakıda kimsəsiz uşaqlar üçün "Yetimlər evi"nin tikintisinə başlanır. İlin sonunda məlum olur ki, bu məqsədlə toplanmış vəsait azlıq edir. Ağa Musa Nağıyev və Şəmsi Əsədullayev ilk olaraq böyük məbləğdə ianə verirlər.

Bir gün Ağa Musa Nağıyev xeyriyyə məclislərinin birində siniyə ianə olaraq kiçik bir məbləğ qoyur. Pulun azlığını görən həmkarlarının baxışları Ağa Musanın nəzərindən yayınmır. Nəsə qaydasında deyil, – deyə o, nəzakətlə soruşur. Eşidəndə ki, bir az əvvəl oğlu İsmayıl böyük məbləğdə pul ianə verib, deyir – "Bu təəccüblü deyil, verər də, axı o milyonçu Ağa Musanın oğludur, mən isə kiməm ki, saman satan Hacı Nağının oğlu".

Çoxları bilmir ki, oğlunun vəfatından sonra o, 4 xəstəxana tikdirmişdi. O, tikdirəcəyi ilk xəstəxananın həyətyanı sahəsində vərəm mikroblarını məhv edə biləcək Şam ağacları əkdirmişdi. 10 ilə hazır olan və çox qısa müddət xeyriyyəçinin adını daşıyan xəstəxana 1920-1992-ci illərdək Rusiyada ilk səhiyyə naziri olmuş Semaşkonun adını daşımışdı.

Köhnə Bakı sakinləri danışırlar ki, bütün sərvətini itirən gənc bir oğlan Nağıyevin yanına gəlir və borc pul istəyir. Ağa Musa onu diqqətlə dinləyir, sonra bir rubl pulu gəncə uzadıb deyir: "Bu toxumdur. Gözləsən, ağac yetişəcək, gözləməsən, elə sadəcə bir rublu yeyəcəksən".

Milyonçunun onu ələ saldığını düşünən oğlan pulu götürmədən çıxıb getmək istəyir, lakin aclıq və ehtiyac onu məcbur edir ki, rublu götürsün.

Ordan çıxır və bazara gedir. Kefsiz halda bazarı gəzəndə gözünə qədimi bir şamdan sataşır, qiymətinin 1 rubl olduğunu öyrənir. Razılaşıb 80 qəpiyə onu alır, yerdə qalan bir abbasını isə onun təmizlənməsinə xərcləyir. Təmizlənmiş şamdanı 3 manata başqa biri alır. Sonra gənc bir neçə ay bazara gəlib köhnə əşyaları alır, onları təmizləyir və başqalarına sataraq pul qazanmağa başlayır. Bir neçə ildən sonra isə özünə dükan açır, şəhərin imkanlı adamlarından biri olur. Bu hadisədən sonra hər kəs Ağa Musadan borc almağa gəlir ki, onun əli "yüngül"dür.

Mən onun nəslinin nümayəndəsi kimi istəyirəm ki, Ağa Musa Nağıyevin də Bakıda heykəli ucaldılsın. Bu, ömrünü zəhmətlə keçirən böyük xeyriyyəçiyə vəfa borcumuzdur.

***Fidan ƏLİYEVA***
***XQ***

*Novruz marafonu*

# Od çərşənbəsinin məzmunu və işarəvi sistemi

**İlaxır çərşənbələr, bütünlükdə, əski layları, mifoloji qatdan müasir dövrümüzə qədər olanları əhatələmək potensiyası ilə diqqətçəkici açılımlara əsas verir. Novruzqabağı keçirilən mərasimlərlə bağlı türk xalqlarının inam və etiqadlarında, əfsanə, rəvayət, dastan, nəğmə, bayatı və s. nümunələrində lazımi qədər maraqlı epizod və əhvalat özünə yer alır.**



Bunların hamısı öz kökləri etibarilə ilkin təsəvvürə və ordan üzü bəri gələnlərə bağlanır. Bu zənginlikdə hər bir çərşənbənin öz yeri var. Dünyanın yaradılışına bağlanan 4 ünsürün (su, od, yel, torpaq) sərgilədiyi təsəvvürü əhatələyən müxtəliflik həm də özü ilə bağlı yaxınlıqları, bir çevrə daxilində sistem təşkil etməni diqqət önünə gətirir.

Od çərşənbəsi ətrafında da bir-birindən maraqlı fikir və mülahizələr söylənməkdədir. Uzaq Sibirdən Bavariyaya qədər bütün xalqlar oda sitayiş etmiş, ona pənah gətirmişlər. Od bəşər sivilizasiyasının ən böyük kəşflərindəndir və dünyanın dinamik inkişafının ən mühüm təminatlarındandır. İbtidai insanların mifoloji dərkində sitayişlərin sərgilədiyi mənzərə və təbiət varlıqlarına olan münasibət bütün parametrlərdə onu öyrənməyə köklənirdi.

Sirli-sehrli xarici aləmin sərgilədiyi təsəvvür, günəşin çıxması, yağışın yağması, buludun gəlməsi, fərqli-fərqli əsrarəngizliklərin özünü göstərməsi insanların marağına səbəb olmaqla dürlü-dürlü hekayə və əhvalatların yaranması üçün əsas olmuşdur. “Üçü bizə yağıdır”, “üçü cənnət bağıdır” düşüncəsinin bədii-estetik, fəlsəfi-qnesioloji, tarixi-psixoloji dərki çeşidli yanaşmalarda eyni aspekti, dünyanın yaranışında olanların stixial xarakterində olanları sərgiləyir.

Xalq dilində işləklik qazanmış “çillə qovan tonqal” mərasim zənginliyində işarələnmənin bir komponenti olaraq qədim insanların düşüncəsində bir akt olaraq qəlibləşmə xüsusiyyəti ilə özünü göstərir. “Novruz çərşənbələri” adı ilə rituallar səviyyəsində silsiləvi məzmun daşıyan bu mərasimlər çələngi qədim azərbaycanlıların dünyagörüşünü, arzu və istəklərini, həyat bilgilərini əhatələyir.

İşığı, günəşi çağırmaq ritual aspektində mifoloji səviyyədən paradiqmatik mənzərəyə qədər bir əsrarəngizliyi sərgiləyir. Avesta, şumer abidələri, qədim türk epos silsiləsi, mərasim aktları, meydan tamaşaları, mif, əfsanə, atalar sözü, məsəl və s. örnəkləri bütün tərəfləri ilə bir istiqamətdə Novruz və novruzqabağı zənginliyə yüklənir. Odun funksiyası və semantik qatındakı işarələnmələr orta əsrlərdən bu yana müxtəlif kontekstdə etnoqraflar, arxeoloqlar, folklorşünaslar və s. səviyyəsində təhlillərə əsas olmuşdur.



Xalq arasında od çərşənbəsi müxtəlif adlarla “üsgü çərşənbə”, “üsgü gecəsi” və s. şəklində özünü göstərir. “Addı çərşənbə” ifadəsinin özündə bir əzizləmə, simsar bilmə var və onun simvolik qatı əsrarəngizlik dolu birliyi, yaxınlığı, istiliyi, həyat şövqünü və s. məqamları diqqət önünə gətirir. “İgid, bir ocaq çat qaya başında, alovsuz qopuza əlim yatmayır” çağırışı paradiqmatik səviyyəsi ilə birliyə, odun sərgilədiyi kutsallığa bağlanır.

Torpağa istilik, hərarət bəxş edən günəşlə yerdəki nişanəsi olan odun sərgilədiyi təsəvvür inam, etiqad anlamında bir eyniyyətə yüklənir. Yusif Vəzir Çəmənzəminli odun funksional mahiyyətinə diqqət yetirərək vurğulayır ki, “ənasiri-ərbəə deyilən bu dörd amil xalqımız arasında təqdis olunur. Bunların içində böyük bir qüdsiyyət daşıyan od və axar sudur. Ocağa və çırağa and içərlər, suyu murdarlamazlar. Novruza yaxın çərşənbələrdə sabah erkən axar su üstə çıxarlar, çillə kəsdirərlər və s. Qız ərə gedərkən onu ocağın başına dolandırarlar, çərşənbələrdə tonqal qalarlar.

Bu adətlərin haralardan başlandığını izah etmək üçün bir az tarixə doğru dönməliyik. Herodotun təqribən iki min beş yüz il bundan əvvəl təsvir etdiyi adət bu gün eynilə aramızda yaşayır”. Odun və suyun müqəddəsləşdirilməsi və çərşənbə səviyyəsində dörd ünsürün sərgilədiyi təsəvvür əski inamlardan, insanların həyatı dərkinin başlanğıcına dayanmadan çağdaş dövrümüzə qədər eyni təsəvvürə yüklənir.

Od çərşənbəsinin mərasim və ayin səviyyəsində sərgilədiyi mənzərə etnokulturoloji sistemin ilkinliyə dayanan mədəniyyət, yaşam və təsəvvür fondunu bir bütöv olaraq əhatələyə bilmək gücü ilə görünür. “Oda pənah aparanın ocağı sönməz”, “ocaq sönməyən yerdə məskən salarlar”, “odu, çırağı yandıran xeyir aparar”, “oddan kül olar,küldən od”, “odla oynayan ocaqsız qalar” və s. deyimlər tarixi etibarilə çox qədim təsəvvürləri, ilkin düşüncədə olanları əhatələmək imkanları ilə atalar sözü, məsəl səviyyəsində qəlibləşmişdir.

Andlar, inanclar, alqış-dualar, əsatir, rəvayət timsalında olan mədəniyyət və təsəvvür zənginliyi öz məzmun xətti ilə odun funksional çəkisinə, tonqal çatmaq timsalında mərasim aktına və həmin prosesdə söylənilənlərə bağlanır. “Ocaqda kül titrəyəndə od xeyrə oynayar”, “çıraq yandıranın çırağı sönməz”, “çıraq yeri qibləyə olan ev uğurlu olar” və s. inanclar od-ocaq timsalında təsəvvürün simvolikasını, semantik məna qatında işarələnən xronotopların ümumi sistemini faktlaşdırır.

Çərşənbələr, eləcə də od çərşənbəsi timsalında əhatələnən təsəvvürlər öz kökləri ilə mifoloji sistemə, odun insan həyatında oynadığı funksional rola yüklənir. Qışın yağı, düşmən funksiyasında sərgilədiyi təsəvvür yazın (odun) xilasedici, himayəçi təsəvvürünü çox əski zamanlardan qəlibləşdirməklə ritual səviyyəsində təkrarlanmasına əsas olmuşdur.

“Qodu-qodu” mərasimindən günəşə qurban kəsməyə qədər olan təsəvvürlər silsiləsi öz çeşidli aspektləri ilə alt qatda olanların qəlibləşməsinə şərait yaratmışdır. Günəşə qurban kəsmək mərasimi ilə bağlı söyləmələrdə vurğulanır ki, “günəş istisini arzulayan ulu babalarımız od çərşənbəsində sübh tezdən günəşə qurban aparardılar”.

Günəşin doğması şərəfinə keçirilən bu qurban və eləcə də bu kimi mərasim aktları bütün spektrləri ilə çox əski təsəvvürdə oturuşmuş inam və etiqadları diqqət önünə gətirməklə od çərşənbəsi səviyyəsində mükəmməl bir təsəvvürün mərasim timsalında formalaşmasına əsas olmuşdur. Qayaüstü təsvirlərdəki rəsmlər, arxeoloji qazıntılarda əldə olunan tapıntılar, inam və etiqadlar çərşənbə adı ilə sıralanmadakı mənzərənin genetikasını aydınlaşdırmağa şərait yaradır.

Odun toplum düşüncəsindəki birləşdiricilik, el qurma, səmimiyyət, gözəllik, əsrarəngizlik səviyyəsində olan funksiyaları xalqın müxtəlif aspektlərdə əfsanə, rəvayət, nağıl, dastan səviyyəsində təqdim etdiyi epizod və əhvalatlarda da özünün əksini tapır. Burada od, ocaq qarşısında səcdəyə durmadan inam gətirməyə qədər olanlar arxaik qatdan üzü bəri daşınanlara bağlanır.

İbtidai zamanın yaşam tərzi həyatla mücadilədə andları, alqış-duaları təbiiliklə ortaya qoymuşdur. “Od haqqı”, “günəş haqqı”, “o işığa and olsun” və s. ifadələrin təsəvvürdə qəlibləşməsi və əski qatı min illərin yaşam tərzinin əks-sədası olaraq özünü göstərir.

“Ağ günə çıxasan”, “günün işıqlı olsun”, “üstünə nur yağsın”, “günün ağ olsun”, “üstünə günəş doğsun” və s. ifadələrin bir şüur hadisəsi olaraq sərgilədiyi təsəvvür müxtəlif aspektdə, üfiqi və şaquli yanaşmalarda əsaslı təsəvvürü, inam və etiqadları sərgiləyir. İfadənin müstəqim mənası və alt qatı metaforik anlamda təhtəlşüurda oturuşmuş dünyagörüşü, mifə qədər olanları və sonrakı çağlara daşınmanın oda inam haqqında təsəvvürləri və od çərşənbəsi timsalında ehtiva olunanların ümumi konseptini əhatələyir.

Qapıda, əkin sahələrinin qırağında ocaq qalanması bu çərşənbədə simvollaşmanı, ilahi qüvvələrdən köməklik diləməni, inamları əhatələməklə, həm də çağırış xarakteri ilə diqqət önünə gəlir. Burada odun əski təsəvvürə bağlanan müqəddəsləşdirilməsinin ümumi cizgiləri, kultlaşdırma məramı özünü göstərir. Od çərşənbəsi öz ümumi məzmunu ilə boz ayın sərtliklərinə, bozluq etməsinə əngəl kimi bir təsəvvürü də içinə alır və od, ocaq ritualının ümumi təsiri ilə yumşaqlığı, təbiətin oyanışını sürətləndirmək istəyinə köklənir.

“Duman qaç, qaç, duvağını aç, aç” deyimindəki işarələnmələr, eləcə də “gün çıx, gün çıx, kəhər atı min çıx” çağırışları toplumun qış, zillət və çətinliklərlə dolu həyatının daha rahat, şən, sevinc dolu anlarına çağırış funksiyası ilə ona (təbiətə, canlı aləmə) təsir etmək düşüncəsində görünür. “Ağırlığım, uğurluğum odlara” deyiminin (və təsəvvürünün) ritual xarakteri odun dərd-azara əlac olma funksiyasını, mahiyyətində normativləşən inam və etiqadları əhatələyir.

“Şam-çırağı alışdırın, küsülüləri barışdırın” və s. od çərşənbəsində Gün, İşıq, Od timsalında olan əski dünyagörüşün hərəkətliliyini sərgiləyir və qışın gətirdiyi fəsadlar səviyyəsində ondan qurtuluşu zərurətə çevirir. Ritual, mərasim timsalında qəlibləşmə üçün əsas olur. “Ocağında od olanın işi avand olar”, “ocağı olanın sığınmağa bucağı da olar”, “oda inanar, torpağa qısılarlar” və s. deyimlərin mətn informasiyası min illərin həyat təcrübəsini, müdriklik baxımından qəlibləşmiş düşüncə zənginliyini diqqət önünə gətirir.

Qədim əcdadlar odun insan həyatında və bütünlükdə həyat nizamı timsalında kutsallığını müxtəlif səviyyələrdə, ritualdan mərasimlərə qədər və od çərşənbəsində bir araya gətirməklə ümumiləşdirməyə həssaslıq göstərmişlər. Oda sitayiş, səcdə bütün paradiqması və simvolik məzmunu ilə dünya xalqlarında müxtəlif çeşidliliklə canlandırmalara əsas olmuş və bu gün də elmi-nəzəri fikir həmin əski yaddaşda olanların günümüzə qədərki semantikasına ayrı-ayrı elementləri, epizodları kontekstində həssaslıq göstərir. Odunuz gur, ocağınız isti olsun!

***Səhər Hidayət qızı ORUCOVA,***
***filologiya elmləri doktoru, professor***

# Günümüzün Simurq nağılı

*Naxçıvan Teatrının “Simurq quşu” tamaşası Bakı səhnəsində*

**Bu günlərdə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın “Kim dedi ki, simurq quşu var imiş” əsəri əsasında hazırlanan “Simurq quşu” tamaşasının təqdimatı böyük maraq və alqışlarla qarşılandı. Naxçıvan Dövlət Milli Dram Teatrının hazırladığı fəlsəfi məzmunlu səhnə əsəri tamaşaçılara yüksək ideyalar, rəmzi obrazlar və müasir teatr estetikasının harmoniyasını təqdim etdi. Səhnədə baş verən həqiqəti tamaşa boyunca izləyiciləri duyğusal və düşüncəyə sövq edən bir səyahətə apardı.**

...Pərdə açılır və biz səhnədə gəmi kapitanını görürük. Kapitan kamerton kimi situasiyanı yönləndirir, tamaşaçını dərin fəlsəfi mühakiməyə hazırlayır. Həyatda oyun, oyunda həyati “pazllar” seyrçini düşündürür, mistik qatlara enməyə vadar edir. Kapitanın varid olduğu adada Cəllad, Şahzadə, Padşah, Vəzir hərəsi öz qanunlarıyla yaşayırlar.



Hadisələr mifoloji zaman müstəvisində baş verir. Kamal Abdulla müəllif olaraq bu zamanı təfəkkür süzgəcindən keçirərək tamaşaçıya təqdim edir. Vəzirin tamaşaçılara üz tutub suallar və cavablar haqda söylədiyi mühakimələr sanki adama həyat imtahanını xatırladır. Həyat suallarla yaşanır, suallar yaşamağa, düşünməyə təkan verir.

Tamaşada əsas rolları Əməkdar artistlər Səməd Canbaxşiyev (Kapitan), Günay Qurbanova (Səs), Xalq artisti Şirzad Abutalıbov, Əməkdar artist Bəhruz Haqverdiyev, aktyorlar Əlizamin Abbasov (Ada sahibi), Anar Eyvazov (Nağılçı), Zakir Fətəliyev (Padşah), Şəbnəm Qaybalıyeva (Gözəl qız), Şirzad Abutalıbov (Vəzir), Uğur Nəsirli (Şahzadə), Xəlil Hüseynov (Cəllad), Ələsgər Quliyev (Dev) canlandırırlar. Onlar müəllifin ideyalarını səhnənin pafosu və şərtiliklərinə uyğun şəkildə böyük peşəkarlıqla çatdırırlar. Oyun estetikasının şərtlərinə əməl olunur və tamaşaçı bu oyunda sanki öz taleyini görür.

Aktyorların uğurunu xüsusi qeyd etmək lazım gəlir. Səməd Canbaxşiyev Kapitan roluna təbii cizgilər əlavə edərək ona əlahiddəlik qazandırır. Şirzad Abutalıbovun Vəziri son dərəcə canlı və dinamikdir, bu aktyorun səhnə plastikası məmnunluq doğurur. Ümumiyyətlə, paytaxtdan kənarda fəaliyyət göstərən teatr aktyorlarının əməyi ayrıca qiymətləndirilməlidir. Məhz bu tamaşada mən peşəkar aktyorlar gördüm və onların siması yaddaşıma həkk olundu.



“Simurq quşu” tamaşası bu aktyorları mənə sevdirdi. Səhnədəki fəlsəfi diskurs məni öz iç dünyama enməyə sövq etdi, o fikirlər ki, dünya qədər əbədidir, həmin düşüncələr seli içimdən keçib getdi. Təbii ki, hərə öz anladığı kimi refleksiya eləyib bu tamaşanı. Tamaşa insan düşüncəsində müxtəlif variasiyalar doğurur. Çoxqatlı mətn Kamal Abdulla yaradıcılığının spesifik xüsusiyyətidir və Naxçıvan teatrının belə bir fəlsəfi əsərin səhnə həllini tapması, doğrudan da, böyük uğurdur.

Səhnə əsərinin yüksək səviyyədə ərsəyə gəlməsində teatrın yaradıcı heyətinin böyük əməyi olub. Tamaşanın quruluşçu rejissoru Mir Qabil Əkbərov, quruluşçu rəssamı Araz Xudiyev, musiqi tərtibatçısı Əfsanə Şirəliyeva, rejissor assistenti isə Leyla Yaqubovadır. Mir Qabil Əkbərov müəllifin konseptual paradiqmasına sadiq qalaraq pyesi məhz bu aspektdən zühura gətirməsi alqışa layiqdir.

Yumaq kimi bir-birinə dolanan mizanlar sonda qəribə bir ahəng yaradır. Kosmosdan xaosa, xaosdan kosmosa keçidlər tül qədər zərifdir. Nağılçının keçmişlə gələcək arasında vurnuxması mistik haşiyədə - qapı çərçivəsində bir başqa məna qazanır. Personajlardan biri (Vəzir) söyləyir:

***Kağızdan evcik qurub,***
***qızıl saray bilmişik.***
***Nahaqdan incitmişik***
***qüssəli ürəkləri.***
***Bu dünyaya, bəlkə də,***
***bir az vaxtsız gəlmişik.***
***Kim deyərdi solacaq,***
***soldu nar çiçəkləri.***
***Vaxt gələcək ağrımız***
***örtüləcək çiçəklə,***
***Bütün yaralarımız***
***yenidən bitişəcək.***
***Hər şey qurtaracaqdır***
***xoşbəxt bir gələcəklə,***
***Soldu nar çiçəkləri –***
***indi nar yetişəcək.***

Hər son bir başlanğıc deməkdir, hər başlanğıc bir sondan xəbər verir. Biz hamımız Simurq quşuyuq. Nə vaxtsa bunu anlayacağıq… Anlayanda yeni bir nağıl başlanacaq.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il martın 11-i saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** Bakı, Mikayıl Useynov küç. 2

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1263.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 41 (31010) 4 mart 2026-cı il, çərşənbə

*4 Mart Ümumdünya Piylənmə ilə Mübarizə Günüdür*

# Səssiz gələn və getmək istəməyən qonaq

**Son illər dünyada artıq çəki və piylənmə halları artan xətt üzrə inkişaf edir. Həkimlərin müşahidələrinə görə, hərəkətsiz həyat tərzi, yüksək kalorili qidaların gündəlik rasionda çoxalması və ekran qarşısında keçirilən vaxtın artması xüsusilə gənclər və uşaqlar arasında risk faktorlarını gücləndirib.**



Piylənmə artıq təkcə fərdi sağlamlıq problemi deyil, cəmiyyətin ümumi rifahına təsir göstərən ciddi tibbi-sosial məsələdir. Məhz bu qlobal təhlükəyə diqqəti cəlb etmək məqsədilə ilk dəfə 2010-cu ilin may ayında Avropada qeyd edilib, daha sonralar bu gün qloballaşaraq mart ayının 4-də Dünyada Piylənmə ilə Mübarizə Günü kimi qeyd olunmağa başlayıb.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, artıq çəki və piylənmə son onilliklərdə sürətlə artaraq qeyri-infeksion xəstəliklərin əsas risk faktorlarından birinə çevrilib. Piylənmə artıq təkcə estetik problem deyil; o, ürək-damar xəstəliklərinin, şəkərli diabetin, bəzi onkoloji xəstəliklərin əsas risk faktorlarından biridir. Ən ağrılı məqam isə odur ki, bu problem getdikcə daha gənc yaşlara "enməkdədir".

Azərbaycan da bu tendensiyadan kənarda deyil. Qeyd edək ki, ölkəmizdə iki milyona yaxın insan artıq çəki və piylənmədən əziyyət çəkir. Bu isə əhalinin 20 faizini təşkil edir və kifayət qədər ciddi rəqəmdir. Uşaqlar arasında artıq çəki və piylənmənin risk amillərini öyrənmək üçün Təhsil Nazirliyi ilə İSİM birgə tədqiqat həyata keçirir.

Hələ 1997-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı piylənməni qlobal xarakter alan bir epidemiya kimi qəbul edib. O vaxtdan başlayaraq həkimlər artıq çəki və piylənmə problemi haqqında əhalinin maariflənməsi sahəsində intensiv kampaniya aparır, piylənmə səbəblərini və onun fəsadları haqqında məlumatlandırır, eyni zamanda, artıq kilolardan xilas olmağın profilaktikası və müalicə üsulları barədə də izahat verirlər.

Piylənmə səssiz gəlir, sürətli həyat tempinin, qeyri-sağlam qidalanmanın, hərəkətsizliyin və stresin nəticəsi kimi formalaşır. Böyük şəhərlərin ritmi insanı daha az hərəkətə, daha çox hazır və kalorili qidalara yönəldir. Texnologiya həyatımızı asanlaşdırdıqca, bədənimiz daha az işləyir. Nəticədə isə sağlamlıq balansı pozulur. Çəkinin artıq olması fiziki fəallığın intensivliyini aşağı salır. Fiziki problemlərdən başqa, piylənmə, eyni zamanda, psixoloji problemlərə də səbəb olur. Piylənmənin əsas səbəbi düzgün olmayan həyat tərzi, azhərəkətlilik, daimi stres vəziyyətində qeyri-düzgün qidalanmaqdır.

Əlbəttə, piylənmə qarşısı alına və idarə oluna bilən bir haldır. Sağlam qidalanma mədəniyyətinin formalaşdırılması, gündəlik fiziki aktivliyin artırılması, uşaqlara erkən yaşdan düzgün həyat vərdişlərinin aşılanması mühüm addımlardır. Ailə institutunun rolu burada xüsusilə əhəmiyyətlidir. Sağlam qidalanma vərdişlərinin təşviqi, məktəblərdə fiziki tərbiyəyə marağın artırılması, ailə daxilində düzgün qida seçimlərinin edilməsi və aktiv həyat tərzinin dəstəklənməsi mühüm amillərdir. Kiçik dəyişikliklər - gündəlik piyada gəzinti, şəkərli içkilərdən imtina, balanslı rasion böyük nəticələrə gətirib çıxara bilər.

Unutmamalıyıq ki, sağlam bədən yalnız fərdi rifah deyil, həm də ictimai sərvətdir. Sağlam vətəndaş güclü cəmiyyət deməkdir.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## İDMAN

## Şahdağda Avropa çempionatı



**Azərbaycanda keçiriləcək xizək alpinizmi üzrə Avropa çempionatında iştirak edəcək ölkələr bəlli olub.**

Azərbaycan Qış İdman Növləri Federasiyasından verilən məlumata görə, yarışda 18 ölkə mübarizə aparacaq. Bunlar Azərbaycanla yanaşı, Türkiyə, İtaliya, İsveçrə, Sloveniya, Almaniya, Rusiya, İspaniya, Avstriya, Norveç, Bolqarıstan, Çexiya, Polşa, Slovakiya, Yunanıstan, Andorra, İsveç, AİN-dir (Neytral Statuslu İdmançılar).

Qeyd edək ki, "Şahdağ" Turizm Mərkəzində təşkil olunacaq yarış martın 4-dən 8-dək davam edəcək. Turnirdə ölkəmizi 5 idmançı təmsil edəcək. Nəzrin Qəribova, Nəbiyulla Qələbəqiyev, Anid Sultanov, Abel İsmixanov və Nurid Şəkərəliyev medallar uğrunda mübarizə aparacaqlar.

## Moldovada 7 medal

**"Azəri" Taekvondo Klubunun üzvləri Kişineu şəhərində keçirilən "Moldova Open" beynəlxalq turnirində uğurla çıxış ediblər.**

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, təmsilçilərimiz 7 medal (4 qızıl, 2 gümüş, 1 bürünc) qazanıblar.

Uşaqlar arasında 27 kq çəki dərəcəsində mübarizə aparan İnci Rahova bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yeniyetmələrin yarışında 29 kq-da Aylin Məmmədzadə və 53 kq-da Ümid Səfiyarlı qızıl medala sahib olublar.

Yeniyetmə B kateqoriyasında 37 kq çəki dərəcəsində çıxış edən Zeynal Abışov da turniri çempion kimi başa vurub. Eyni yaş kateqoriyasında 29 kq-da Ahu İsgəndər və 33 kq-da Ayxan Xanmədlili gümüş medal qazanıblar. Mədinə Hənifəyeva (33 kq) isə turniri bürünc medalla tamamlayıb.

## Azərbaycan Kubokunda 1/4 final



**Dünən futbol üzrə Azərbaycan Kubokunda 1/4 final mərhələsinin cavab oyunlarına start verilib.**

Günün yeganə matçında "Zirə" "Sumqayıt"ı qəbul edib. Zirə İdman Kompleksinin stadionunda keçirilən qarşılaşma 2:0 hesabı ilə meydan sahiblərinin xeyrinə başa çatıb. Xatırladaq ki, tərəflər arasında baş tutan ilk matçda qolsuz bərabərlik qeydə alınmışdı. Beləliklə, 2 oyunun nəticəsinə görə bakılılar 1/2 finala vəsiqə qazanıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

✓ *Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən "AZƏROKSİGEN" ASC-yə verilmiş emissiya prospekti itdiyi üçün etibarsız sayılır.*

# İlin "yumşaq güc" ölkələri

**Müasir beynəlxalq münasibətlər sistemində təsir imkanları artıq yalnız hərbi və iqtisadi göstəricilərlə ölçülmür. "Yumşaq güc" anlayışı dövlətlərin mədəniyyət, diplomatiya, biznes mühiti, təhsil və qlobal imic vasitəsilə beynəlxalq ictimai rəyə təsir etmək qabiliyyətini ifadə edir. Bu kontekstdə Brand Finance tərəfindən hazırlanmış "Global Soft Power Index 2026" reytinqi ölkələrin dünyada necə qəbul olunduğunu sistemli şəkildə qiymətləndirir. İndeks qlobal sorğular və ictimai rəy göstəriciləri əsasında formalaşdırılır.**



2026-cı il reytinqində ABŞ 74,9 balla birinci yerdə qərarlaşıb. Çin isə 73,5 bal (liderdən cəmi 1,4 bal az–red.) toplayaraq ikinci pillədə yer alıb. ABŞ-ın liderliyi ilk növbədə əyləncə sənayesi, texnologiya, ali təhsil və qlobal siyasi liderlik sahələrində yüksək tanınma və təsir imkanları ilə izah olunur. Çin isə iqtisadi çəkisi, artan diplomatik fəallığı və beynəlxalq layihələr vasitəsilə mövqeyini gücləndirir.

Avropa ölkələri də siyahıda mühüm yer tutur. Böyük Britaniya (69,2), Almaniya (67,7), Fransa (65,8) və Rusiya (58,7) əhəmiyyətli təsir imkanlarını qoruyub saxlayır. Bununla belə, son illərdə bu ölkələrin bəzi göstəricilərində nisbi azalma müşahidə olunur. Eyni zamanda, İsveçrə və Kanada (hər ikisi 63,2 bal) sabitlik, yüksək həyat keyfiyyəti və effektiv idarəetmə imici ilə yüksək nəticələr əldə ediblər.

Reytinqin orta pillələrində qərarlaşan ölkələr, məsələn, Hindistan (48,0) və Braziliya (49,2) əsasən regional təsir və mədəni potensial hesabına mövqelərini qoruyurlar. Siyahının aşağı hissəsində isə daha kiçik dövlətlər və inkişaf etməkdə olan bazarlar yer alır; onların göstəriciləri daha dəyişkən və qeyri-bərabərdir.

Ümumilikdə, 2026-cı ilin reytinqi göstərir ki, qlobal təsir artıq təkcə sərt güc amilləri ilə müəyyən edilmir. Dövlətlərin beynəlxalq arenada etimad yaratmaq, cəlbedici imic formalaşdırmaq və gündəmi müəyyənləşdirmək bacarığı strateji əhəmiyyət daşıyır. "Yumşaq güc" bu mənada XXI əsrdə rəqabətin əsas indikatorlarından birinə çevrilib.

***XQ***




# Kim çox AES tikir?

**Hazırda dünyada ən çox atom reaktoru tikən ölkə Çindir. Ölkədə 37 reaktor inşa olunur və onların ümumi gücü təxminən 43 000 meqavat olacaq. Bu rəqəm digər bütün ölkələrdə tikilən reaktorların cəmindən də çoxdur.**



Dünya Nüvə Assosiasiyasının məlumatına görə, 2025-ci ildə ən fəal nüvə proqramı həyata keçirən ölkələr siyahısında Çin birinci yerdədir. Ondan sonra Hindistan və Rusiya gəlir. Hər iki ölkədə 6 reaktor tikilir. Hindistanda yeni layihələr 5 200 meqavat, Rusiyada isə 4 200 meqavat güc verəcək.

Elektrik enerjisinə tələbat artır və köhnə stansiyalar tədricən bağlanır. Buna görə də bir çox ölkə enerji təhlükəsizliyini qorumaq üçün yeni nüvə reaktorları tikir. Reaktorlar adətən 40 il işləmək üçün nəzərdə tutulur, lakin yeniləmədən sonra bu müddət 60–80 ilə qədər uzadıla bilər. Digər ölkələrdə tikinti daha azdır. Misir və Türkiyədə dörd reaktor inşa olunur, başqa ölkələrdə isə əsasən bir və ya iki layihə var. Diqqətçəkən məqam odur ki, ənənəvi nüvə enerjisi liderləri sayılan ABŞ, Fransa və Kanadada hazırda yeni reaktor tikilmir.

***XQ***

## HAVA

# Bakıda yağmursuz, bəzi rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var.**



Cənub-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 3-6°, gündüz 8-11° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 75-80, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 9-14° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Auditorlar Palatasının sədri Vahid Novruzov Milli Məclis Aparatının redaksiya və nəşr işləri şöbəsinin müdiri Hafiz Babayevə həyat yoldaşı

**BULUL BABAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi qurumun əməkdaşı İqbal Əsgərova qardaşı

**RUSLAN ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lənkərandan Taleh Qaraşov Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi, Əməkdar memar, professor Səbinə Hacıyevaya atası

**XALİD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi inzibati-təsərrüfat işləri üzrə prorektor Mübariz Şərifova bacısı oğlu

**BƏHRUZ NAMAZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2956
SİFARİŞ 319
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00